# Xalq qəzeti

Xalqın qəzeti!

№ 164 (30858) 8 avqust 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Dünya Vaşinqtondan xəbər gözləyir

*Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-a işgüzar səfərə gəlib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının (ABŞ) Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərə gəlib.

Dövlətimizin başçısını "Joint Base Andrews" hərbi hava bazasında rəsmi şəxslər qarşılayıblar.

*AZƏRTAC*

## "Baş kəsməklə" yoxsa, əməkdaşlıqla?!



səhifə ⇨ 4

## Livan ermeniləri İrəvana qarşı



səhifə ⇨ 4

## Azərbaycan təyyarə qəzasına görə cavab və cəza gözləyir



2024-cü il dekabrın 25-də baş verən AZAL təyyarəsi qəzası təkcə mülki aviasiya tarixinin faciəsi deyil, həm də beynəlxalq hüquq, dövlət suverenliyi və təhlükəsizlik prinsipləri baxımından ciddi narahatlıq doğuran hadisədir. Bakıdan Qroznıya yollanan "Embraer 190-100IGW" tipli sərnişin təyyarəsinin hava məkanında aldığı zədələr nəticəsində idarəetməni itirməsi və Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması nəticəsində 38 nəfərin həyatını itirməsi Azərbaycan üçün təkcə milli deyil, həm də beynəlxalq miqyasda haqlı suallar doğurur. Lakin bu faciənin məsuliyyətinin kimə aid olduğu hələ də aydın deyil və cavabdehlik məsələsi açıq qalır.

*(ardı 5-ci səhifədə)*

## Tehran–İrəvan xəttində yeni faza



səhifə ⇨ 5

## Prezident İlham Əliyevin ABŞ səfəri – yeni regional düzən və sülh

*Bakı-Vaşinqton münasibətləri üçün daha dinamik mərhələ gözləntimiz*



Bəri başdan deyək ki, Prezident İlham Əliyevin ABŞ-a bu ölkənin dövlət başçısı Donald Trampın dəvəti ilə gerçəkləşən səfərini gözləmək olardı. Çünki Bakı–Vaşinqton ikitərəfli münasibətlərinin hazırkı sabit axarı gələcək üçün perspektiv yaradır. Əsas olan bu axarı sabitlikdən dinamiklik müstəvisinə qaldırmaqdır. Həm də ona görə ki, dinamikliyin regional sabitlik və qlobal təhlükəsizlik aspekti var. Mövcud aspekt isə özlüyündə daha dərin yanaşmalar tələb edir.

ardı səhifə ⇨ 3

## Düşmən torpağımıza "ölüm toxumu" səpib...



səhifə ⇨ 6

## Ötən "Əsrin müqaviləsi"nin yeni əsr uğurları



səhifə ⇨ 7

## Gəncə yeniləşir, biz də dəyişək…



səhifə ⇨ 8

## Türkmən bəyliklərində törə və ənənələr



səhifə ⇨ 9

# Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşü

**Avqustun 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff ilə görüşüb.**



Əvvəlcə dövlətimizin başçısı İlham Əliyevin və ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun iştirakı ilə SOCAR-la "ExxonMobil" şirkəti arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalanıb.

Sənədi Azərbaycan Respublikasının iqtisadiyyat naziri Mikayıl Cabbarov və "ExxonMobil" şirkətinin vitse-prezidenti Con Ardill imzalayıblar.

Sonra dövlətimizin başçısı İlham Əliyev ilə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoffun görüşü olub.



Görüşdə Prezident İlham Əliyevin ABŞ Prezidenti Donald Trampın dəvəti ilə Vaşinqtona işgüzar səfərinin ikitərəfli münasibətlərimizin gündəliyinin və regional məsələlərin müzakirəsi üçün yaxşı fürsət yaratdığı bildirildi.

Söhbət zamanı Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatlarının strateji müstəvidə əməkdaşlığının inkişaf perspektivləri, Ermənistanla Azərbaycan arasında normallaşma prosesi və regiondakı sülh gündəliyinə dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan – ABŞ: əməkdaşlıqdan strateji tərəfdaşlığa

**Vaşinqtondan verilən məlamatlara əsasən Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ-a işgüzar səfəri çərçivəsində "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu"nun imzalanması nəzərdə tutulur. Bu məzmunda sənədin imzalanması əməkdaşlığın tamamilə yeni mərhələyə qədəm qoyması deməkdir.**

APA-nın məlumatında bildirilir ki, Bakının Vaşinqtonla strateji tərəfdaşlığı üç istiqaməti əhatə edəcək. Bunlardan birincisi, enerji, ticarət və tranzitin də daxil olduğu regional bağlantılar, ikincisi, süni intellekt və rəqəmsal infrastrukturun da daxil olduğu iqtisadi sərmayə, üçüncüsü, müdafiə sahəsində satış, terrorizmə qarşı mübarizə sahəsində əməkdaşlığın da daxil olduğu təhlükəsizlik sahəsində əməkdaşlıqdır.

Sonrakı dövrlərdə ABŞ prezidentləri 907-ci düzəlişin icrasını müvvəqqəti dayandırsa da, Bayden-Blinken administrasiyası bu ədalətsiz qərarı yenidən qüvvəyə mindirərək Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışıb.

"Caliber.az"ın əldə etdyi məlumatda isə göstərilir ki, Vaşinqtonda siyasi və tarixi baxımdan mühüm əhəmiyyət daşıyan Azərbaycan Respublikası ilə Ermənistan Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan arasında Birgə Bəyannamənin imzalanmasıdır. "Trend"in əldə etdiyi məlumata görə, sənəd ABŞ Prezidenti Donald Trampın iştirakı ilə ərsəyə gələcək.

Məlum olduğu kimi, Azərbaycan Ermənistanla sülh müqaviləsinin imzalamaq üçün 2 əsas şərt irəli sürmüşdü. Birinci şərt Minsk qrupunun ləğvi ilə əlaqədar ATƏT-ə birgə müraciətin edilməsi, ikinci şərt isə Ermənistan Konstitusiyasına dəyişikliklərin edilərək Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması ilə bağlıdır.

Azərbaycan və Ermənistan liderlərinin imzalayacağı Birgə Bəyannamədə Minsk Qrupunun ləğv edilməsinə iki ölkənin ATƏT-in Baş katibinə birgə müraciət edəcəyi təsdiqlənir.

Eyni zamanda Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair Sazişin mətni paraflanandan sonra adıçəkilən "sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılması"nın zəruriliyi qəbul edilir. Yəni, yekun sülh sazişinin imzalanması üçün əsas tələblərdən biri – Ermənistan konstitusiyasının dəyişdirilməsinin zəruriliyini təsdiq etməsidir.

Vətən müharibəsindən sonra Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdir ki, Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidi təmin edilməlidir. Azərbaycanın dövlət başçısının bu tələbi də Ermənistan tərəfindən qəbul edilir. Belə ki, imzalanacaq Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş təsdiq olunur. Beləliklə, Zəngəzur dəhlizi reallaşır.



Yaradılacaq Strateji İşçi Qrupu bilavasitə bu istiqamətdə fəaliyyət göstərəcək.

"Report" informasiya agentliyi isə öz mənbələrinə istinadən xəbər verir ki, Prezident Tramp "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalayacaq və bu, avqustun 8-də, yəni bu gün reallaşacaq. Belə olan halda, 33 il əvvəlki ədalətsizliyə son qoyulacaq və bu da Prezident İlham Əliyev ilə həmkarı Donald Tramp arasında qurulmuş uğurlu əməkdaşlığın yüksək nəticəsi kimi diplomatiya tarixində yer alacaq.

Xatırladaq ki, haqqında danışılan və Azərbaycana ABŞ-dan dövlət yardımının göstərilməsinə qadağa qoyan bədnam 907-ci düzəlişi, Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalının davam etdiyi bir dövrdə ABŞ Konqresi 1992-ci ildə rəsmi Bakının Ermənistana guya "blokada" tətbiq etməsini bəhanə kimi göstərərək qəbul etmişdi.

Respublikası arasında sülh sazişinin mətninin paraflanması gözlənilir. Bu addım tərəflərin müqavilə layihəsinin bütün bəndləri üzrə konsensusa gəldiklərini və mətnin məzmunu ilə razılaşmalarını rəsmi şəkildə təsdiqlədiklərini göstərir.

Paraflanma yekun imzalanma ilə eyni hüquqi qüvvəyə malik olmasa da, diplomatik baxımdan mühüm bir prosedurdur və sülh sazişinin mətninin razılaşdırılması mərhələsinin başa çatdığını təsdiqləyir. Beynəlxalq praktika baxımından bu, tərəflərin tamhüquqlu və hüquqi baxımdan məcburi olan sülh müqaviləsinin imzalanmasına doğru irəliləməyə hazır olduqlarını göstərir. Bu məlumatdan aydın olur ki, sülh müqaviləsinin bilavasitə imzalanması Ermənistanın 2026-cı ildə konstitusiyaya dəyişikliklərlə bağlı keçirəcəyi ümumxalq referendumundan sonra baş tuta bilər.

Vaşinqtonda yaşanacağı gözlənilən daha bir tarixi hadisə isə Prezident İlham

*XQ*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 235** **Bakı şəhəri, 2 avqust 2025-ci il**

***"Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 112-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Avtomobil yolları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 27 dekabr tarixli 112-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 20 iyul tarixli 315 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 7, maddə 1648) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli yol kimi istifadə edilməsi ilə bağlı məlumatın forması"nda aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzasdan "haqqının alınması" sözləri çıxarılsın;

1.2. "Qeyd" hissəsində "haqqının alındığı məntəqələrdə" sözləri "məntəqələrində" sözü ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 mart tarixli 76 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 3, maddə 510; 2024, № 3, maddə 304, № 7, maddə 897) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında avtomagistraldan ödənişli yol kimi istifadə Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1.4-cü yarımbənddən "(şlaqbaumlar, elektron ödəniş terminalı və açıq məntəqə)" sözləri çıxarılsın;

2.2. aşağıdakı məzmunda 2.1.4-1-ci yarımbənd əlavə edilsin:

"2.1.4-1. buraxılış məntəqəsi – ödənişli avtomagistrallarda nəqliyyat vasitələrinin giriş-çıxışına nəzarət etmək məqsədilə yaradılmış və keçid zolaqlarında quraşdırılmış, foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələr və qurğularla təchiz edilmiş məntəqədir;";

2.3. 2.1.5-ci yarımbənd ləğv edilsin;

2.4. 3.2.1-ci yarımbənddə "ödənişin tutulması" sözləri "ödəniş" sözü ilə əvəz edilsin;

2.5. 3.6-cı bəndin ikinci cümləsində "olan nəqliyyat vasitələrinin buraxılmasını təmin edən buraxılış məntəqəsi (açıq məntəqə)" sözləri "istifadəçilər üçün müəyyən edilmiş xidməti keçid zolağı" sözləri ilə əvəz edilsin;

2.6. 3.7-ci bənddə "ödənişin tutulması" sözləri "ödəniş əməliyyatı" sözləri ilə əvəz edilsin;

2.7. 4.1.8-ci yarımbənddə "ödənişin tutulması məntəqələrində" sözləri "ödəniş məntəqələrində" sözləri ilə əvəz edilsin;

2.8. 4.2.1-ci yarımbənddə "ödəniş" sözü "buraxılış" sözü ilə, "maneəni (şlaqbaumu) açmamaq" sözləri "maneəni götürməmək (şlaqbaumu açmamaq)" sözləri ilə əvəz edilsin;

2.9. 5.2.3-cü yarımbənddə "(şlaqbaumun) açılması" sözləri "götürülməsi (şlaqbaumun açılması)" sözləri ilə əvəz edilsin;

2.10. 5.3.1-ci yarımbənddə "ödəniş" sözü "buraxılış" sözü ilə əvəz edilsin;

2.11. 5.3.2-ci yarımbənddə "gedişini özbaşına" sözləri "keçidini" sözü ilə əvəz edilsin;

2.12. 5.3.3-cü yarımbənddə "(şlaqbaumu) özbaşına yığışdırmaq" sözləri "özbaşına götürmək (şlaqbaumu açmaq)" sözləri ilə əvəz edilsin;

2.13. 5.3.4-cü yarımbənd aşağıdakı redaksiyada verilsin:

"5.3.4. ödəniş məntəqələrindən keçmədən kənar yollardan (yerlərdən) istifadə etməklə, habelə ödənişsiz gediş hüququna malik istifadəçilər üçün müəyyən edilmiş xidməti keçid zolağından belə hüququ olmayan istifadəçilər tərəfindən ödənişli avtomagistrallara daxil olmaq və ya oradan çıxmaq;";

2.14. 5.3.5-ci və 5.3.6-cı yarımbəndlər ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# DSX-də multikulturalizm təlimi



**Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasında "Azərbaycançılıq ideologiyası multikultural cəmiyyətdə birlik və bərabərliyin təminatçısı kimi" mövzusunda maarifləndirici tədbir təşkil edilib.**

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə təşkil edilən tədbirin məqsədi çoxmillətli, çoxkonfessiyalı Azərbaycanda etnik rəngarəngliyin qorunması istiqamətində uğurlu dövlət siyasəti barədə şəxsi heyətin məlumatlandırılması, dini maarifləndirmə səviyyəsinin artırılması olub.

*XQ*

# Ukraynalı uşaqlar Qəbələdə



**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət-Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin təşkilatçılığı ilə ölkəmizə gətirilərək reabilitasiya tədbirlərinə cəlb olunan 30 ukraynalı uşaq üçün ekskursiyalar təşkil edilib.**

Onlar "Qəbəland" Əyləncə Mərkəzi və Nohurgöllə, Qəbələnin təbiət gözəllikləri ilə tanış olub, həmçinin əyləncə mərkəzində maraqlı vaxt keçiriblər.

Agentliyin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində yerləşdirilən uşaqların 10 günlük sosial reabilitasiya proqramı çərçivəsində onların emosional vəziyyətlərinin stabilləşməsinə, eləcə də cəmiyyətə inteqrasiyalarının təmin edilməsinə dəstək göstərilir. Uşaqlar müalicəvi masaj, müalicəvi hovuz və vanna, art-terapiya, əmək terapiyası kimi reabilitasiya tədbirlərinə cəlb olunur, həmçinin peşəkar psixoloq tərəfindən keçirilən fərdi və qrup terapiyalarında iştirak edirlər.

# Prezident İlham Əliyevin ABŞ səfəri – yeni regional düzən və sülh

(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyevin ABŞ-a səfərini, eyni zamanda, o səbəbdən gözləmək olardı ki, dövlətimizin başçısı ilə Birləşmiş Ştatlar lideri arasında yüksəksəviyyəli telefon danışığı və məktub mübadiləsi olub. Məhz bu müstəvilərdə əməkdaşlığın genişləndirilməsi, hətta strateji tərəfdaşlığın enerji və nəqliyyat layihələri xüsusunda möhkəmləndirilməsi, institusionallaşdırılması məsələləri önə çəkilib. Şəxsi etimada əsaslanmış söhbətlər zamanı, həmçinin, Cənubi Qafqazda sülh prosesinin irəlilədilməsi də vacib məqam kimi diqqətə çatdırılıb.



Etimadın fövqündə dayanan amilə gəlincə, Azərbaycanın beynəlxalq nüfuzunun artmasını və regionda balanslı, habelə proaktiv xarici siyasət kursuna sadiqliyini vurğulamaq mümkündür. Deməli, tərəflərin konkret razılıqlar əldə etmələri yeni imkanlar üçün də şansdır. Söhbət ABŞ-Azərbaycan münasibətlərini keyfiyyətcə yeni mərhələyə daşımaq şansından gedir.

Əlbəttə, regional sabitlik və təhlükəsizlikdən danışırıqsa, Azərbaycan və Ermənistan arasında sülh gündəliyi də önəmlidir. Heç şübhəsiz, ABŞ-da bu məqama xüsusi yanaşma var. Əlamətdar haldır ki, Vaşinqton məsələyə Cənubi Qafqaz siyasətində Azərbaycana böyük rol verilməsi kontekstində yanaşır. Bu yanaşma praqmatizmə əsaslanır, qarşılıqlı faydanı rəhbər tutur. Yəni, sülh gündəmi üçün prioritet həm də iqtisadi faydadır. Buna faydanın sülh diqtəsi kimi də yanaşmaq olar.

Qeyd edək ki, faydanın digər aspekti də var. Məlum olduğu kimi, Donald Tramp hakimiyyətə gələndən ABŞ Avropanın enerji təhlükəsizliyinə böyük önəm verir. Bu isə Azərbaycan üçün vacibdir, çünki ölkəmizə yeni iqtisadi imkanlar açır. Rəsmi Vaşinqton Xəzər regionunun zəngin enerji ehtiyatlarının Qərb bazarlarına nəqlinə çalışır ki, Trans-Adriatik Boru Kəməri (TAP) layihəsinin uğurla həyata keçməsi fikrimizin təsdiqidir. Əlbəttə, sırf ölkəmiz üçün ABŞ-la əməkdaşlığın dərinləşməsindəki faydanın rəqəmsal iqtisadiyyat və süni intellekt kimi aspektləri də diqqətdən yayınmamalıdır. Nəzərə alaq ki, fayda Bayden administrasiyası dövründə Bakı–Vaşinqton münasibətlərində yaranmış soyuqluğun zərərlərini də aradan qaldırmalıdır.

Qeyd etdiyimiz kimi, sabitlik, inkişaf və fayda üçün barış mühiti son dərəcə vacibdir. Ancaq sülh ədalətli olmalıdır. Bunun üçün isə Azərbaycanın 2020-ci ilin Vətən müharibəsindəki qələbəsi əsas götürülməlidir. Daha doğrusu, Zəfərimizin yaratdığı reallıqlar. O reallıqlar ki, Ermənistanın onlarla zaman-zaman qəbullanmadığını, müxtəlif manipulyativ gedişlərə baş vurduğunu görmüşük. Əlbəttə, bu cəhdlər heç bir nəticə verməyib. Hesab edirik ki, Vaşinqtonun sülh təşəbbüskarlığı həmin cəhdləri, obrazlı desək, torpağa tapşıracaq. Yəni, Ermənistan avantüradan uzaq durub haqqında söz açdığımız fayda və mənfəəti düşünməlidir. Deməli, rəsmi İrəvan Bakının sülh müqaviləsinin imzalanması üçün irəli sürdüyü şərtləri yerinə yetirməlidir. Yerinə yetirməlidir ki, Cənubi Qafqazın inkişafına maneçilik törədən Azərbaycanla münaqişə məntiqi tamamilə sıradan çıxsın.

Digər tərəfdən, Ermənistan Zəngəzur dəhlizinin açılmasına da manəə yaratmamalıdır. Çünki bu layihə Azərbaycanın beynəlxalq nəqliyyat və iqtisadi əlaqələrdə bərabərhüquqlu iştirakını təmin edən fundamental hüququdur. Hüququmuz sülh strategiyamızın qalib tərəf paradiqmasını vurğulamalıdır. Nəzərə alaq ki, bu vurğulanmada tarixi ədalət payı da var. Belə nəticəyə gəlmək mümkündür ki, regionda uzunmüddətli təhlükəsizlik, inkişaf və əməkdaşlıq üçün ədalətli davranmaq şərtdir və nəinki ABŞ-dan, bütövlükdə, dünyadan gözləntimiz də elə budur. Mövcud mənada Trampın təşəbbüsünü Misir və İsrail arasında illərlə davam edən münaqişəyə son qoymuş Prezident Cimmi Karterin missiyası ilə müqayisə etmək üçün şanslar yaranıb. Görəsən, tarixdə, belə demək mümkünsə, ikinci Kemp-Devid reallaşacaqmı? Hər halda, ümidlər var.

Prezident İlham Əliyevin ABŞ-a səfərinin daha bir vacib cəhəti üzərində dayanmaq istərdik. Məlum olduğu kimi, Birləşmiş Ştatlarda aktiv anti-Azərbaycan mövqe tutan qaragüruh düşərgə var. Bu düşərgənin konqresmenlər Frenk Pallone və Adam Şiff kimi "fəal" təmsilçiləri, stajlı ermənipərəstləri də həmçinin. Bundan başqa, "Amnesty International", "Human Rights Watch" və sair təşkilatların da təqdimatlarında Azərbaycan qərəzli şəkildə yada salınır. Elə təsəvvür formalaşdırılır ki, sanki, ölkəmizlə heç bir münasibət və əlaqə qurulmamalıdır. Hesab edirik ki, dövlətimizin başçısının Birləşmiş Ştatlara səfəri bu xəttin təmsilçilərini də susduracaq. Əlbəttə, onların tam şəkildə susacaqlarını söyləmək düzgün olmaz. Başlıca məqam isə budur ki, hazırda dövlətimizin başçısının məhz Prezident Donald Trampın dəvəti ilə ABŞ-da olması anti-azərbaycançı qüvvələrin böyük məğlubiyyətidir. Elə ermənipərəstlərin də.

Sonda onu da bildirək ki, Azərbaycanın qazandığı hərbi və siyasi qələbələrin beynəlxalq hüququn normaları çərçivəsində rəsmiləşdirilməsi son dərəcə vacibdir. Ümumiləşdirmə aparsaq, Prezident İlham Əliyevin ABŞ-a səfərinin bu baxımdan mühüm tarixi hadisə olacağını vurğulamaq üçün əsaslar kifayət qədərdir və yazımızda dolayısı ilə bu barədə də söz açdıq. İndi qalır ümid etmək. Ümid edək ki, ölkəmizə qarşı ədalətli yanaşma regional sülh, sülh isə öz növbəsində daha sürətli inkişaf və görünməmiş tərəqqi gətirəcək. Regionun bütün xalqları üçün rifaha hesablanmış inkişaf və tərəqqini.

***XQ-nin analitik qrupu***

## Xuntaçıların məhkəməsi

# Ermənistan hərbçilərinin qanlı əməllərinə hüquqi qiymət verilir

**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası avqustun 7-də davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslərin hər biri bildikləri dildə tərcüməçi, həmçinin müdafiələri üçün vəkillərlə təmin olunub.



İclasda təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak ediblər.

Hakim Zeynal Ağayev prosesdə ilk dəfə iştirak edən zərərçəkmiş şəxslərə məhkəmə heyətini, dövlət ittihamını müdafiə edən prokurorları, tərcüməçiləri və s. təqdim edib, habelə onların qanunvericiliklə nəzərdə tutulmuş hüquqlarını və vəzifələrini izah edib.

Hakim məhkəməyə daxil olmuş yeni sənədləri elan edib. Bunlar ifadə vermək üçün məhkəməyə dəvət olunmuş zərərçəkmiş şəxslərdən bəzilərinin ölkədə olmaması, zərərçəkmiş şəxslərdən birinin vəfat etməsi və s. barədə olub. Hakim sənədlərin cinayət işinin materiallarına əlavə olunacağını bildirib, tərəflər buna etiraz etməyib.

İfadə verən zərərçəkmiş şəxs Hafiz Abdurrəhmanovun hüquqi varisi Ülviyyə Abdurrəhmanova həyat yoldaşının 2020-ci ildə 44 günlük Vətən müharibəsində Tərtər-Ağdərə istiqamətində şəhid olduğunu bildirib.

Zərərçəkmiş şəxs Xaqani İbrahimovun hüquqi varisi - oğlu Adil İbrahimli ifadəsində atasının 1994-cü ildə Ermənistan silahlı qüvvələrinə qarşı döyüşlərdə şəhid olduğunu deyib.

Kamran Əsgərovun hüquqi varisi - atası Bayram Əsgərov övladının 2020-ci ildə Vətən müharibəsi zamanı şəhid olduğunu söyləyib.

Cavad Hüseynovun hüquqi varisi - atası Cavid Hüseynov övladının Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində şəhid olduğunu bildirib.

Səxavət Hüseynov və Polad Vəlixanov 2016-cı ildə Aprel döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin təxribatı nəticəsində qəlpə xəsarətləri aldıqlarını bildiriblər.

Tural Xəlilov və Murad Güləliyev ifadələrində 2021-ci il noyabrın 16-da Ermənistan silahlı qüvvələrinin qəfil hücumu nəticəsində Laçın istiqamətində yaralandıqlarını deyiblər.

Rusif Səfərov ifadəsində 2023-cü il sentyabrın 19-da Xocalı istiqamətində Ermənistan ordusunun qalıqları və qeyri-qanuni erməni silahlı dəstələri tərəfindən açılmış snayper atəşi nəticəsində üç güllə yarası aldığını bildirib.

Nihad İmanov, Vüsal Babayev, Ayxan Nəsibov, İlkin Məmmədzadə, Etibar Məmmədov, Nüsrət Hüseynov, Nemət Süleymanov, Nail Quliyev, Ramil Adıgözəlov, Zahid Qafarov, Cavid Məmmədli, Sənhəm Mustafayev, Çingiz Mustafayev, Emin Eminov, Selman Məmmədov, Rüfət Novruzov və Yusif Əsədullayev ifadələrində 2020-ci ildə Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin açdığı atəşlər nəticəsində yaralandıqlarını bildiriblər.

Sabit Bayramzadə, Elməddin İsmayılov və Ayaz Həsənli Vətən müharibəsi zamanı mina partlaması nəticəsində yaralandıqlarını deyiblər.

Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Nəsir Bayramovun suallarını cavablandıran Kənan Nəsirov 2020-ci il iyulun 12-də Tovuz döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin açdığı atəş nəticəsində ağır yaralandığını söyləyib.

Qılman Hüseynov ifadəsində 2022-ci il avqustun 2-də Füzuli rayonunun Qaraxanbəyli kəndində mina təmizlənməsi zamanı mina partlayışı nəticəsində xəsarət aldığını deyib. Onun sağ ayağı amputasiya olunub.

Baş prokurorun xüsusi tapşırıqlar üzrə köməkçisi Tuqay Rəhimlinin suallarını cavablandıran Ramin Əliyev 2022-ci il oktyabrın 8-də Ağdam-Füzuli yolunun çəkilişi zamanı mina partlayışı nəticəsində yaralandığını söyləyib.

Şərif Əliyev ifadəsində 2020-ci ildə Vətən müharibəsi zamanı, noyabr ayında Xocavənd istiqamətində yaralanaraq əsir götürüldüyünü bildirib.

Zərərçəkmiş şəxs dövlət ittihamçısı Fuad Musayevin suallarına cavabında bildirib ki, əsir götürüldükdən sonra başqa yerə, - sonradan öyrəndiyinə görə İrəvan şəhərinə, - aparılıb. Qeyd edib ki, əsir düşməzdən əvvəl döş qəfəsindən və hər iki ayağından yaralanıb. Əsir götürüldükdən sonra erməni hərbçilər rus və erməni dillərində sözlər deyərək ondan təkrarlamasını istəyiblər. Həmin ifadələri təkrarlamadığına görə sağ ayağının pəncə nahiyəsindən güllələnib.

Ş.Əliyev təqsirləndirilən şəxs David Babayanın suallarına cavabında bildirib ki, əsir götürülməzdən əvvəl 4 nəfər hərbçi yoldaşı şəhid olub, özü və daha bir nəfər hərbçi yoldaşı yaralanıb.

O, təqsirləndirilən şəxs Davit İşxanyanın suallarına cavabında Azərbaycana qaytarıldıqdan sonra Gəncədə klinikada əməliyyat olunduğunu söyləyib.

Zərərçəkmiş şəxs 2020-ci il dekabrın 15-də Azərbaycana qaytarıldığını bildirib.

Ceyhun Tanrıverdiyev ifadəsində hərbi xidmətdə olan zaman, 1997-ci ilin iyul ayında Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü bildirib. 1999-cu il sentyabrın 17-də Azərbaycana qaytarılıb. Dövlət ittihamçısı Vüsal Abdullayevin suallarına cavabında deyib ki, əsirlikdə saxlanıldığı vaxt döyülüb, söyülüb, işgəncələrə məruz qalıb.

Nail Rəcəbli ifadəsində hərbi xidmətdə olarkən, 1998-ci il yanvarın 1-də Beyləqan rayonunda Ermənistan silahlı qüvvələri tərəfindən əsir götürüldüyünü deyib. Xankəndidə təcridxanada, Şuşa həbsxanasında, İrəvanda həbsxanada saxlanılıb. 2000-ci il iyulun 18-də Azərbaycana qaytarılıb. O, dövlət ittihamçısı Təranə Məmmədovanın suallarına cavabında bildirib ki, əsirlikdə saxlanılan zaman xəsarət yetirilməsi nəticəsində yaralanıb, habelə barmağı sındırılıb, döyülüb, işgəncələrə məruz qalıb.

Amil Əliyev və Murad Sadıq 2023-cü ilin sentyabr ayında Azərbaycan Ordusunun keçirdiyi antiterror əməliyyatı zamanı yaralandıqlarını deyiblər.

Samir Cəbiyev 2010-cu il avqustun 17-də Gədəbəydə Ermənistan silahlı qüvvələrinin atəşkəsi pozması nəticəsində güllə yarası aldığını bildirib.

Sədrəddin Mürşüdov bildirib ki, hərbi xidmət zamanı, 1997-ci il fevralın 2-də Ermənistan silahlı qüvvələri tərəfindən xəsarət yetirilməklə əsir götürülüb. Əsirlik zamanı Şuşada və Xankəndidə saxlanılıb. Zərərçəkmiş şəxs bildirib ki, əsirlik zamanı milli ədavət zəminində, azərbaycanlı olduğuna görə döyülüblər.

Yunis İsmayılov ifadəsində 1993-cü ildə Ağdam rayonu uğrunda gedən döyüşlərdə yaralanaraq əsir götürüldüyünü bildirib. 1996-cı il mayın 10-da əsirlikdən azad olunub. O da digər əsirlər kimi işgəncələrə məruz qalıb, özünün və digər əsirlərin zorla dişləri çəkilib.

Təbriz Balayev, Fərhad Quliyev (mülki şəxs), Yaşar Məmmədov (mülki şəxs), Asif Tağıyev, Ədalət Nağıyev (mülki şəxs), Səyyad Abdullayev (mülki şəxs), Mirələm İsayev, Pərvin Abbasov, Absalam Cavadzadə və Kamran Sultanlı ifadələrində ayrı-ayrı vaxtlarda Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində zərər çəkdiklərini deyiblər.

Araz Abbasov 1993-cü il iyunun 5-də əsir götürüldüyünü bildirib. Həmin il avqustun 24-də əsirlikdən azad olunub. Əsirlik müddətində döyülüb, işgəncələrə məruz qalıb.

Nüsrət Əzizov ifadəsində 1994-cü il fevralın 1-də Füzuli rayonunun Əbdürrəhmanlı kəndində əsir götürüldüyünü bildirib. 1995-ci il mayın 12-də Azərbaycana təhvil verilib. O deyib ki, əsirlik zamanı döyülüb, işgəncələrə məruz qalıb.

Möhlət Mahmudov ifadəsində 1993-cü il iyulun 23-də Ağdam rayonu uğrunda gedən döyüşlərdə yaralanaraq əsir götürüldüyünü deyib. Əsirlik zamanı ona dəhşətli işgəncələr verilib, mütəmadi olaraq döyülüb, qeyri-insani rəftara məruz qalıb. Əsirlikdə olarkən azərbaycanlı əsirlərdən biri gözü qarşısında güllələnərək qətlə yetirilib. Həmin ilin noyabr ayında Mehman adlı azərbaycanlı ilə birlikdə əsirlikdən qaçıb.

Vəlhəd Məmmədov 1993-cü il iyunun 16-dan 1996-cı il mayın 10-dək, Cəmaləddin Əliyev 1995-ci il avqustun 14-dən 20-dək əsirlikdə olub. V.Məmmədov bir neçə azərbaycanlı ilə birlikdə pul müqabilində əsirlikdən azad olunub. Əsirlik zamanı onların hər birinə işgəncələr verilib.

Zərərçəkmişlər, həmçinin təqsirləndirilən şəxslərin, onların müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 8-də davam etdiriləcək.

***XQ***

# “Baş kəsməklə” yoxsa, əməkdaşlıqla?!

## *Azərbaycanın yaratdığı reallıq və imperialist təfəkkürdən imtina zərurəti*

**İran Prezidenti Məsud Pezeşkianın oğlu Yusif Pezeşkian İsrailə dəstək verməklə bağlı Azərbaycana yönələn ittihamlara münasibət bildirib. Məlum olduğu kimi, o, belə əsassız və sübutsuz yanaşmaların İslam respublikasının maraqlarına zidd mahiyyət daşıdığını vurğulayıb və fikrini əsaslandırmaq üçün bir sıra məqamlara toxunub.**



Qeyd edək ki, bir müddət əvvəl Prezident Məsud Pezeşkianın özü də ölkəsindəki anti-Azərbaycan təmayülləri sərt şəkildə qınamışdı. Dövlət başçısı İran daxilində Azərbaycanın istənilən diplomatik addımına şübhə və düşmənçiliklə reaksiya verilməsinin artıq travmatik hal aldığını demişdi. Onun bu ritorik sualı isə tam yerinə düşmüşdü: “Biz hansı addımları atmışıq ki, Azərbaycandan bu qədər ehtiyat edirik?”

Əlbəttə, Prezident Pezeşkian da oğlu Yusif kimi 12 günlük İran–İsrail müharibəsi zamanı Azərbaycanın ikinciyə dəstəklə bağlı ölkəsində yayılmış isterik durumun əsassızlığını vurğulayıb. O, başqa fikirlər də dilə gətirib. Ancaq hesab edirik ki, əsas məsələ Prezidentin səsləndirdiyi sualdır.

Həm Məsud Pezeşkianın, həm də övladı Yusif Pezeşkianın açıqlamaları, istər-istəməz, rejissoru böyük Həsən Seyidbəyli olan, baş rolunu sevimli sənətkarımız Rasim Balayev ifa edən məşhur “Nəsimi” filmindəki bir səhnəni yada salır. Həmin epizodda Əmir Teymur Nəsiminin qolunu açıb onu azadlığa buraxdığı üçün səs-küy qaldıran din xadimlərinə əsəbi şəkildə deyir: “Hanı sizin kəlamınızın qüdrəti? Nə vaxtadək baş kəsməklə qalib gələcəyəm mən?”

Bəxtimiz elə gətirib ki, iki böyük dövlətin əhatəsindəyik. Söhbət Rusiyadan və İrandan gedir. Əlbəttə, tarixə müraciət edib müxtəlif məqamları yada salmaq, vaxtilə nələrə sahib olduğumuzu xatırlatmaq niyyətində deyilik. Tarixə də bir qayda olaraq, kimlərin hansı iddialara düşdüklərini görəndə üz tuturuq. Məsələn, inanmırıq ki, İtaliyada Roma imperiyasını yada salıb qonşu ölkələrə ərazi iddiası irəli sürənlər tapıla. Çünki bu gün Avropa sərhədsizdir. İnsanlar Macarıstandan vurub İspaniyadan çıxırlar.

Əlbəttə, müqayisə aparmaq məqsədimiz yoxdur. Sözümüz ondadır ki, bu günə və gələcəyə baxmaq lazımdır. Yeri gəlmişkən, İran Prezidenti bir müddət əvvəlki açıqlamasında da bunu vurğulamış və tamamilə yeni münasibətlər sisteminə qədəm qoymağın zəruriliyindən söz açmışdı.

Əlqərəz, Azərbaycan müstəqillik qazanandan üzü bəri əhatəsində olan iki böyük dövlətin – Rusiyanın və İranın ən müxtəlif basqılarına məruz qalıb. İran hərbi təyyarələrinin Biləsuvaradək irəliləyib əzələ nümayiş etdirdiklərini, Rusiyanın Qarabağ kartı ilə ölkəmizə təzyiqlərini çox görmüşük. Hələ başqa məqamlar da var. Halbuki bunların heç biri olmamlı idi. Əslində, Prezident Pezeşkianın da verdiyi sualın məğzində dayanan budur.

Təsəvvür edin, Rusiya və İran dövlətçilik ənənələri, güc və qüdrətləri ilə öyünür, həmin gücü və qüdrəti göstərmək üçün ərazicə onlardan kiçik Azərbaycanı hədəf seçir. Görəsən, bu, nə yanaşmadır? Sual ətrafında çox da düşünməyək. Çünki cavab məlumdur. Həm Rusiya, həm də İran imperialist təfəkkürün əsiridir.

Diqqət yetirək, indi Rusiyada anti-Azərbaycan ritorikası xeyli güclənib. Ölkənin ictimai xadimləri, ziyalıları belə hazırda bu ritorikanın nəinki əsiri, hətta quludurlar. Biri Azərbaycana raket tuşlayır, o biri yer üzündən silir, bir başqası Bakıya tank yeridir. Bir adam ərazicə kiçik Azərbaycanın nə dediyini düşünmür.

Ölkəmizin rəhbərliyi isə, təxminən, bunu bildirir: Təyyarəmizi vurmusunuz, günahkarları müəyyənləşdirin, cəzalandırın, kompensasiya ödəyin. Rusiyadakı urapatriotların dediklərindən isə belə çıxır ki, Azərbaycan heç nə tələb etməməli imiş. Necə heyrətlənməyəsən? İranda da yumşaq desək, eyni heyrətedici fikirlər səsləndirənləri, fətva verənləri az görməmişik.

Bəli, həm İranda, həm də Rusiyada anti-Azərbaycan təmayüllər o qədər yüksək fazadadır ki, bu gün Azərbaycan cəmiyyətində hər iki dövlətə qarşı təəccüb, şübhə və etimadsızlıq var. Həmişə də belə olub. Dövlətimiz ən ağır şərtlər altında fəaliyyət göstərərək beynəlxalq aləmlə yanaşı, yaxın xaricin də təhlükələrinə qarşı mübarizə aparıb. Mübarizə aparıb və möhkəmlənib.

Halbuki İran da, Rusiya da fərqli davrana bilərdi. Axı özlərini böyük sayırlar. Ancaq elə vəziyyət yaradıblar ki, kiçik Azərbaycan onlara qarşı çıxmaq məcburiyyətində qalıb. Görəsən, “baş kəsməkdən” başqa yolları olmayıbmı? Niyə kəlamlarını qüdrətli etmək barədə düşünməyiblər? Nə üçün, heç olmasa, indi bu barədə fikirləşmirlər?

Hazırda belə təsəvvür var ki, İran Prezident Pezeşkianın şəxsində “baş kəsmək” deyil, kəlama kəramət gətirmək əzmindədir. Dövlət başçısı bildirir ki, İran özü də müstəqil dövlət olaraq Ermənistanla münasibətlər qurur və bunları qonşuluq siyasəti çərçivəsində aparır. Eləcə də Azərbaycanın öz xarici siyasətini formalaşdırmaq və istənilən ölkə ilə əməkdaşlıq etmək hüququ var: “Azərbaycan müstəqil dövlətdir və onun bütün dünya ölkələri ilə münasibətlər qurmağa haqqı var. Azərbaycan rəhbərliyi öz davamlı mövqeyini hər zaman açıq şəkildə ifadə edib”.

Sonda onu da deyək ki, müxtəlif cəbhələrdə mübarizə şəraitində inkişaf etmiş Azərbaycan mühüm regional aktordur. Prezident Məsud Pezeşkianın oğlu Yusif Pezeşkian isə bildirib ki, radikal və məsuliyyətsiz ritorika yalnız regionda gərginliyi artırır. Tam əminliklə onu da demək mümkündür ki, bu gün güclü və qüdrətli ölkəmizə qarşı çıxmaq meyilləri də gərginliyi artırır.

Bir halda ki, gələcəyə baxmaq lazımdır, deməli, ixtilafları da gələcəyə daşımaq gərəksizdir. Gələcəyə əməkdaşlığı, işbirliyini aparmaq lazımdır. Azərbaycan dövlətinin də hər zaman bəyan etdiyi məhz budur.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Livan erməniləri İrəvana qarşı

## *Xaricdəki daşnaklar təxribatçı planlarından əl çəkmirlər*



**Ermənistan dövlətinin Azərbaycana qarşı 30 ildən çox davam edən işğalçılıq siyasəti zamanı xaricdə yaşayan ermənilərdən yetərincə yararlandığı heç kəsə sirr deyil. Xaricdəki erməni diasporu Ermənistanın hərbi-siyasi strategiyasının həyata keçirilməsində uzun onilliklər ərzində xüsusi iştirakçılığı ilə seçilib. İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsi dövründə bu diaspor həm maliyyə, həm informasiya, həm təşkilati, həm də lobbi dəstəyi ilə İrəvanın mövqelərini gücləndirməyə çalışıb. Eyni zamanda, diaspor erməniləri bilavasitə döyüş əməliyyatlarına da qatılıblar. Onlar müxtəlif ölkələrdə təşkilatlanaraq öz təsir imkanlarından maksimum istifadə ediblər.**



Beynəlxalq media, diplomatik kanallar və ictimai kampaniyalar vasitəsilə Azərbaycanın haqq işinə kölgə salmağa çalışıblar. Belə ölkələrdən biri də Livandır. Əgər Birinci Qarabağ müharibəsi dövründə Azərbaycana qarşı vaxtilə Livanda vətəndaş müharibəsində (1979-cu ildə) döyüşmüş Amerika ermənisi Monte Melkonyan vuruşmuşdusa, İkinci Qarabağ müharibəsində birbaşa Livan Respublikasının vətəndaşı Eulcekcian Viken Abraham döyüşlərdə iştirak etmişdi. 1979-cu il təvəllüdlü Eulcekcian Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən 2020-ci ilin dekabrında həbs olunub. O, Yasamal Rayon Məhkəməsinin 2021-ci il iyunun 14-də çıxardığı hökmlə 20 il müddətinə azadlıqdan məhrum edilib.

“Daşnaksütyun”un Livan Mərkəzi Komitəsi avqustun 6-da keçirilmiş iclasının yekunlarına dair yaydığı bəyanatda Ermənistanda baş verən hadisələr “həyəcanverici” adlandırılır və bundan dərin narahatlıq ifadə edilir. Bildirilib ki, guya, Ermənistan ekzistensial (ekzistensializm mövcudluq, varlıq deməkdir–S.H.) təhlükə ilə üz-üzədir. Guya, Türkiyə–Azərbaycan ittifaqı Ermənistanı özünün geosiyasi ekspansiya obyektinə çevirmək üçün məqsədyönlü fəaliyyət göstərir. Xüsusilə, Zəngəzurun taleyi təhlükə altında imiş. Bildirilib ki, Zəngəzur Ermənistanın suverenliyinin şübhə altına alındığı geosiyasi maraqların toqquşmasının mərkəzinə düşüb. İddia olunub ki, Azərbaycan “sülh görüntüsü yaradaraq” Ermənistanı növbəti birtərəfli güzəştlərlə asılı vəziyyətə salaraq yeni ultimativ şərtlər irəli sürməkdə (?) davam edir.

Qeyd edilib ki, rəsmi İrəvan “Ermənistanın işğal olunmuş əraziləri” (?), Bakıda saxlanılan “hərbi əsirlər” (?) və “Artsax xalqının” kollektiv şəkildə geri qaytarılması hüququ məsələlərini gündəmə gətirmədən Bakı ilə sülh müqaviləsi imzalamağa hazır olduğunu bəyan edir: “Bütün bu taleyüklü məsələlərə məhəl qoymayan Ermənistan hakimiyyəti Erməni Apostol Kilsəsinə qarşı açıq mübarizə aparır, müxalifəti sıxışdırır və milli dəyərlərin qoruyucusu kimi “Daşnaksütyun”u təqib edir”.

Bəyanatda “Daşnaksütyun”un Livan Mərkəzi Komitəsi rəsmi İrəvanın kilsə əleyhinə siyasətini pisləyib, “milli dəyərlərə qarşı aparılan kampaniyanı” qəbuledilməz kimi qiymətləndirib və bütün siyasi məhbusların dərhal azad edilməsini tələb edib. Həmçinin qeyd olunub ki, 2026-cı il parlament seçkiləri ərəfəsində reytinqinin kəskin aşağı düşməsi şəraitində hakim qüvvələr milli institutları və cəmiyyətdə yüksək nüfuzunu saxlayan yeganə strukturu – kilsəni zəiflətməyə çalışır. Bəyanatın sonunda Livan ermənilərinin Ermənstanda qarışıqlıq salmaq prosesində iştirak niyyəti bu sözlərlə ifadə olunur: “Daşnaksütyun”un Livan Mərkəzi Komitəsi erməni kilsəsinə, Ermənistandakı bütün milli qüvvələrə tam dəstəyini ifadə edir və antimilli hakimiyyətin aradan qaldırılması üçün Ermənistanda aparılan mübarizənin uğuruna bütün potensialı ilə töhfə verməyə hazır olduğunu bəyan edir”.

*

“Daşnaksütyun”un Livan Mərkəzi Komitəsinin açıqlaması xarici mərkəzlərin Ermənistanın daxili siyasi proseslərinə təsir göstərmək və ölkə daxilində narahatlıq yaratmaq cəhdlərinin növbəti təzahürüdür. İclasın yekunlarına dair yayılan bəyanatda Zəngəzur dəhlizi məsələsi ətrafında səsləndirilən fikirlər, əslində, həm daxili auditoriyanı səfərbər etmək, həm də xaricdə yaşayan ermənilər arasında emosional reaksiya yaratmaq məqsədi daşıyır. Ermənistanın, guya, mövcudluq təhlükəsi ilə üzləşməsi, Türkiyə və Azərbaycanın ittifaq halında ekspansiyaya hazırlaşması kimi təqdim edilən iddialar, hadisələrin real mahiyyətindən çox uzaqdır. Azərbaycanın bölgədə sabitliyə və qarşılıqlı razılaşmalar əsasında sülhdə maraqlı olduğunu göstərən faktlar fonunda bu cür təxribatçı bəyanatlar vəziyyəti konstruktiv danışıqlardan yayındırmağa xidmət edir. Ermənistan rəhbərliyinin atdığı addımların səmərəliliyini qiymətləndirmək əvəzinə, ekzistensial təhlükədən bəhs olunması haylar arasında çaşqınlıq və qorxu hissini gücləndirir. Zəngəzur bölgəsinin, guya, təhlükə altında olması ilə bağlı tezisin ön plana çəkilməsi isə həm regional inkişaf layihələrini əngəlləmək, həm də daşnakların öz daxillərində siyasi nüfuz uğrunda aparılan mübarizədə bir vasitə kimi istifadə olunur. Nəticə etibarilə bu bəyanat konkret təhlil və əsaslı arqumentlərə deyil, daha çox ictimai emosiyalara və qeyri-müəyyən təsəvvürlərə söykənən yanaşmanı əks etdirir.

Bəyanatda Ermənistan hökumətinə qarşı səsləndirilən ittihamlar, əslində, siyasi mövqelərin müdafiəsindən çox, daxili auditoriyaya yönəlmiş təzyiq cəhdləridir. Azərbaycanla sülh müqaviləsinin imzalanması perspektivini kölgələmək məqsədilə işlədilən “hərbi əsir”, “işğal olunmuş ərazi” və “Artsax xalqı” kimi anlayışlar hazırkı regional reallıqlarla uzlaşmır. Rəsmi İrəvanın sülh danışıqlarına yönəlmiş addımlarını qeyri-məqbul kimi təqdim etmək bu prosesə qarşı olan dairələrin maraqları ilə üst-üstə düşür. Açıq şəkildə Ermənistan hökumətini dini institutlara və müxalifətə qarşı təzyiqdə ittiham etmək cəhdləri isə daha çox daxili qarşıdurmaları alovlandırmaq niyyəti daşıyır. “Daşnaksütyun”un özünü milli dəyərlərin qoruyucusu kimi təqdim etməsi bu bəyanatda müstəqil siyasi xəttdən çox hakimiyyətə qarşı yönəlmiş emosional narazılığın əks-sədası kimi görünür.

Bu bəyanat bir tərəfdən Ermənistandakı daxili siyasi proseslərə müdaxilə niyyətini ortaya qoyur, digər tərəfdən isə ölkədəki hakimiyyətə qarşı yönəlmiş açıq təzyiq çağırışıdır. Rəsmi İrəvanın, guya, kilsəyə qarşı siyasət aparması və milli dəyərləri hədəfə alması iddiası konkret faktlara deyil, siyasi ritorikaya əsaslanır. Seçki öncəsi dövrdə nüfuz itirən qüvvələrin bu cür bəyanatlarla həm daxildəki narazı kütlələri qızışdırmaq, həm də xaricdəki erməni icmalarını prosesə cəlb etmək cəhdləri diqqətdən qaçmır. Siyasi məhbuslara dair tələblər və kilsənin müdafiəsi bəhanəsi ilə Ermənistanın legitim siyasi quruluşuna qarşı çağırışların edilməsi vəziyyətin sabitliyinə deyil, daha çox qarşıdurmaya xidmət edir. Bəyanatın sonunda səsləndirilən “hakimiyyətin aradan qaldırılması” çağırışı isə açıq şəkildə destruktiv niyyətin ifadəsidir.

Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov XQ-yə açıqlamasında bildirdi ki, “Daşnaksütyun”un Livan Mərkəzi Komitəsinin son bəyanatı Ermənistanın daxili siyasi həyatına kənardan açıq müdaxilə cəhdi kimi qiymətləndirilməlidir. Onun sözlərinə görə, kilsə ətrafında yaradılan süni narazılıq və “milli institutların zəifədilməsi” kimi iddialar daxildəki mühafizəkar çevrələri səfərbər etməyə yönəlib: “Bəyanatın seçkilər ərəfəsində səsləndirilməsi isə təsadüfi deyil. Məqsəd hakimiyyətin manevr imkanlarını daraltmaq və cəmiyyətin müəyyən təbəqələrində inamsızlıq yaratmaqdır. Siyasi məhbuslarla bağlı tələblər, əslində, daxili mübarizədə təzyiq vasitəsi kimi istifadə olunur. Xüsusilə, bəyanatın sonunda hakimiyyətin devrilməsi kimi radikal fikirlərin yer alması bu çağırışların heç də ideoloji deyil, konkret güc maraqlarına söykəndiyini göstərir”.

Onu da bildirək ki, ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin hazırladığı “The World Factbook” sorğu kitabında Livanda 247 min 388 nəfər ermənin yaşadığı qeyd edilib. Bu isə ölkə əhalisinin 4 faizi deməkdir. Livandakı erməni icmasının üzvləri çoxdan vətəndaşlıq alıblar. Onların ölkə hökumətində təmsil olunmalarına zəmanət verilib. Ermənilərə Livan parlamentinə müəyyən sayda deputat seçməyə də imkan yaradılıb. Livan erməniləri yaxşı təşkilatlanıblar. Onlar əsasən Erməni İnqilabi Federasiyası – “Daşnaksütyun” sıralarında cəmləşiblər. “Daşnaksütyun” Livandakı erməni icmasında baş verən mədəni, dini və siyasi proseslərə ciddi nəzarət edir. 1953-cü ildən parlamentdə erməni icması üçün ayrılmış bütün yerləri istisnasız olaraq “Daşnaksütyun” nümayəndələri tutublar. “Daşnaksütyun” uzun müddət seçkilərdə müstəqil erməni namizədlər üzərində üstünlük təşkil edib. Lakin sonradan vəziyyət yavaş-yavaş daha kiçik qrupların və müstəqil namizədlərin xeyrinə dəyişməyə başlayıb. Yeri gəlmişkən, onu da qeyd edək ki, Livandakı erməni diasporu, xüsusən “Daşnaksütyun” və “Hnçak” ilk növbədə icmanı qorumaq üçün silahlı konfessiya könüllülərini (əvvəlcə 1958-ci ildə, sonra isə 1975–1990-cı illərdə Livanda vətəndaş müharibəsi zamanı–S.H.), eyni zamanda, şəxsi məqsədlərini həyata keçirmək üçün dəstəkləyib. Maraqlıdır ki, şəxsi məqsədlərini həyata keçirmək üçün verilən dəstək bəzi ermənilərin başqaları tərəfindən öldürülməsinə səbəb olub.

***Səxavət HƏMİD***
***XQ***

# Son dayanacağa bileti olmayanların maraq davası

*Bakı üçün prosesdə kiminsə maraqları deyil, sülh sazişinin imzalanması əsas şərtdir*




**“Nə tökərsən aşına, o da çıxar qaşığına”. Tarixin və həyatın dəfələrlə sübuta yetirdiyi, dəyişməz postulata çevrilmiş atalar sözümüzü bəzilərinə tez-tez xatırlatmağımız gərəkir. Özünü Ukrayna bataqlığına salan Moskva onilliklərdən sonra Cənubi Qafqazda öz təsirini tədricən itirməyə başladı və deyəsən, bunun fərqinə indi varmaqdadır.**

Əvvəlcə şimal qonşumuzdakı bəzi qüvvələrin nəzərinə unutmaq istədikləri həqiqəti çatdırmağımıza ehtiyac var. Azərbaycan Ermənistanla onilliklər boyu davam edən və Moskvanın mərkəzi aktoru olduğu münaqişəyə 44 günlük müharibədə nöqtə qoyandan, ardınca ildırım sürətli lokal antiterror tədbirlərindən sonra Qarabağ bölgəsinə tam nəzarəti bərpa edəndən təxminən iki il sonra İrəvan və Bakı Rusiyadan uzaqlaşaraq, yaxın vaxtlara qədər sonu görünməyən qanlı münaqişədən sonra sülh sazişi mətni üzərində razılığa gəldilər və münasibətlərini vasitəçilərsiz, ikitərəfli müstəvidə normallaşdıraraq tarix yazdılar. İndi Moskva həm Bakı, həm də İrəvanla əməkdaşlığı bərpa etməyə çalışır, “vasitəçilik” təklif edir. Üstəlik, bu zaman həm İrəvana, həm də Bakıya qarşı dezinformasiya kampaniyaları aparır.

Rusiya Dövlət Dumasında Trampın son günlər intensivləşən Qafqaz təşəbbüslərini şərh ediblər. “Rusiya bölgədəki maraqlarından heç kimin xeyrinə əl çəkməyəcək və boyun əyməyəcək. Əgər ABŞ Qafqaza da əl qatmaq istəyirsə, buna davam eləsin. Amma Cənubi Qafqazda sabitlik həmişə Rusiyanın maraqları nəzərə alınmaqla həll olunacaq”. Rusiya Dövlət Dumasının Təhlükəsizlik komitəsinin üzvü Adalbi Şxaqoşev ABŞ Prezidenti Donald Trampın Ermənistan–Azərbaycan dialoqunda vasitəçi olmaq təşəbbüsünü bu formada şərh edib. Şxaqoşev sözlərinə onu da əlavə edib ki, Moskva bütün tərəflərə hörmətlə yanaşmaqla, daxili işlərinə qarışmamaqla hərəkət edir və Qafqazda təhlükəsizliyi özünün prioriteti hesab edir.

Çoxdan uzaqlaşmış qatarın arxasınca nostalji hislərlə baxan deputat Şxaqoşevə bölgədə və dünyada baş verən proseslərlə yaxından tanış olmağı məsləhət görməkdən başqa deyəcək sözümüz yoxdur.

***

Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıxov hesab edir ki, ABŞ Prezidentinin məlum sülh təşəbbüsünə Rusiya tərəfinin qıcıqla yanaşacağı gözlənilən idi: “Buna əvvəlcədən şübhəmiz yox idi. Çünki Moskva özü üçün çoxdan müəyyən edib ki, həm Şimali, həm də Cənubi Qafqaz onun maraq dairəsində olmalıdır. Sanki özləri üçün ayrıca maraq dairəsi cızıblar və bu, hələ Rusiya imperiyası, çarizm dövründən üzü bəri davam edir. Amma yaddan çıxarırlar ki, artıq XXI əsrdir, dünənki postsovet respublikaları daha müstəqil dövlətlərdir. Və onların hər birinin prioritetləri, xarici siyasət xətləri var.

Məgər Donald Trampla görüşməkdən ötrü Bakı, yaxud İrəvan Moskvadan icazə almalıdır? Bu məsələ ilə bağlı Rusiya rəsmilərinin, deputatların, hökumətyönlü medianın çıxışlarına diqqət yetirsək görərik ki, Kremlin hər yerdə – Avropada, Yaxın Şərqdə, Asiyada, Afrikada – özəl maraqları var. Onun məntiqinə görə, hamı dinc, sakitcə oturmalı və tərpənməməlidir. Atdıqları hər addımda isə Rusiyanın maraqlarını nəzərə almalıdırlar.



Bu cür xudpəsənd və absurd yanaşma Rusiya siyasi elitasında elə dərin köklər buraxıb ki... Elə bil hələ də on beş, on altıncı əsrlərdə yaşayırlar. Bəs özü Ukrayna ərazisinə daxil olanda düşünmürdü ki, bu ölkə Avropanın maraq dairəsinə daxildir? Axı, faktiki olaraq, Ukrayna Avropanın tərkib hissəsi sayılır. Amma Moskva bu ölkənin NATO-ya daxil olub-olmaması, qoşun saxlaması kimi məsələləri özü tənzimləməyə çalışır. Guya, Ukrayna özünün neytral statusunu elan etməlidir”.

Politoloqa görə, müstəqil xarici siyasət yürüdən Azərbaycan kimdənsə məsləhət, yaxud tövsiyyə almaq barədə düşünmür: “Azərbaycan sivil dövlət olaraq, heç kəslə dümənçilik etmək fikrində deyil. Fəqət, ölkəmizə qarşı sayğısız münasibət sərgiləndə, təbii ki, Şxaqoşev kimi məsuliyyətsiz deputatların ağzının üstündən vurmalıyıq və vururuq. Siyasi iradə və qətiyyət Azərbaycanın xarici siyasətinin ana xəttini təşkil edir”.

Rusiya cəmiyyətində demokratik prinsiplərin, insan haqlarının pozulması ilə bağlı artan etirazların fonunda mediada azərbaycanofob hekayələr də dövriyyəyə buraxılmaqdadır. Beləsləri bəzən tarixi faktları təhrif etməkdən də çəkinmilər. Hamıya məlumdur ki, Qarabağ münaqişəsinin kökləri Rusiya imperiyası və Sovet İttifaqı dövrünə gedib çıxır və müstəqil Azərbaycan və Ermənistanla əlaqəsi yoxdur. Tarixən bu münaqişənin əsas mahiyyəti bəzilərinin iddia etdiyi kimi, demokratiya və azadlıq və ya bir qrupun dediyi kimi, dini amillərə bağlı deyil. Münaqişə ermənilərin Azərbaycanın Qarabağ bölgəsinin Ermənistana birləşdirmək mənasını verən “miatsum” konsepsiyasına əsaslanan ərazi iddiaları nəticəsində körükləndirilib. Axı Kremlin dəstəklədiyi “dqr” adlı separatçı tonqalı alovlanmazdan əvvəl iki xalq sülh şəraitində yaşayıb. İndi Moskvanın “vasitəçi, moderator” kimi yeni “təşəbbüslərinin” bu tonqalı yenidən qalamaq niyyətindən ibarət olduğunu Bakı da yaxşı bilir, İrəvan da...

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan təyyarə qəzasına görə cavab və cəza gözləyir




**(əvvəli 1-ci səhifədə)**

Hava məkanının təhlükəsizliyinin təmin olunması beynəlxalq hüquqa əsasən, hər bir dövlətin suveren hüququ və borcudur. Mülki Aviasiya üzrə Çikaqo Konvensiyasının 3-cü və 9-cu maddələrinə görə, mülki təyyarələrin təhlükəsizliyi həmin təyyarənin uçduğu hava məkanına nəzarət edən dövlətin məsuliyyətindədir. Əgər Azərbaycan təyyarəsinə zərbə Rusiya Federasiyasının nəzarətində olan hava məkanında dəyibsə, bu halda hüquqi və siyasi məsuliyyət Moskvanın üzərinə düşür. Bu, beynəlxalq hüquqda “pozitiv məsuliyyət” prinsipi ilə müəyyən edilir və bu prinsipə əsasən, dövlətlər öz ərazisində baş verən təhlükəli hadisələrə görə cavabdehlik daşıyırlar.

Prezident İlham Əliyevin bu məsələdə sərgilədiyi prinsipial və qətiyyətli mövqe Azərbaycanın beynəlxalq hüquqa və milli maraqlara əsaslanan xarici siyasətinin bariz nümunəsidir. Dövlət başçısı açıq şəkildə bəyan edib: “Bu məsələ Azərbaycan tərəfindən heç vaxt unudulmayacaq.” Bu, təkcə hadisənin ağırlığına deyil, həm də Azərbaycanın suverenliyinə qarşı yönəlmiş təhlükəyə verilmiş siyasi cavabdır. Azərbaycan bu məsələdə beynəlxalq hüquqa əsaslanaraq Rusiya Federasiyasından rəsmi üzr, hadisəyə görə maliyyə kompensasiyası və günahkar şəxslərin cəzalandırılmasını tələb edir. Bu tələblər emosional reaksiya deyil, beynəlxalq hüquq normalarına əsaslanan və hüquqi müstəvidə irəli sürülən haqlı çağırışlardır.

Hadisədən sonra yalnız şifahi üzr istənilməsi və təəssüf ifadəsi məsuliyyətin rəsmən qəbul olunması anlamına gəlmir. Etik jest kimi qəbul edilə biləcək üzr, hüquqi nəticələrə yol açmır. Məhz bu səbəbdən Azərbaycan rəsmi şəkildə beynəlxalq məhkəmə və tribunal mexanizmləri çərçivəsində məsələni araşdırmağa və nəticələr tələb etməyə hazırlaşır. Azərbaycanın bu addımı həm beynəlxalq hüquqa, həm də sivil yanaşmaya söykənir.

Qəza nəticəsində istintaq prosesi hazırda hadisənin baş verdiyi Qazaxıstanda aparılır. Qazaxıstanın baş nazirinin müavini Kanat Bozumbayevin açıqlamasına görə, ilkin istintaq təyyarənin gövdəsində xarici obyektlərin nüfuz etməsi nəticəsində deşiklər yarandığını göstərir. Qazaxıstan rəsmiləri bu tip silahların ölkələrinin arsenalında olmadığını və bu səbəbdən digər ölkələrə – yəni bu tip silahları öz silahlanmasında saxlayan dövlətlərə – rəsmi sorğular göndərdiklərini açıqlayıb. Baş nazirin müavini qeyd edib ki, avadanlıqların bir hissəsi hələ də xaricdə ekspertizadadır: “Avadanlıqların bir qismi ekspertiza üçün hələ də xaricdədir və tezliklə geri gətiriləcək. Təhlillər başa çatmaq üzrədir, ekspertlər yekun hesabatın hazırlanmasına davam edir. Düşünürəm ki, səbirli olmaq lazımdır. Yekun hesabat bir neçə aya hazır olacaq”.

Onun fikrincə, açıq qalan yeganə məsələ AZAL təyyarəsinin necə zədələnməsidir. O, əlavə edib: “Siyasiləşdirmək istəmədiyim yeganə məsələ təyyarənin necə zədələnməsidir. Bu suallara hüquq-mühafizə orqanları tərəfindən aparılan partlayıcı texniki ekspertiza cavab verməlidir. Bildiyimə görə, onlar qəzaya uğrayan təyyarənin füzelyajında aşkarlanan eyni zərbə elementləri ilə xidmətdə müxtəlif silah növləri olan digər ölkələrə sorğu göndəriblər. Buna görə də ilin sonuna qədər həqiqət aşkar ediləcək, bütün tələblər hərfinə, nöqtəsinə qədər yerinə yetiriləcək”.

Bütün bu proseslərin fonunda Azərbaycanın səbirli, amma prinsipial mövqeyi dünya ictimaiyyətinə güclü mesaj verir: Bakı yalnız regional maraqların deyil, qlobal ədalət və beynəlxalq hüququn keşiyindədir. Mülki aviasiya hüququ beynəlxalq sistemin sütunlarından biridir və bu prinsiplərə qarşı edilən hər hansı hücum insanlığa qarşı cinayət kimi qiymətləndirilməlidir. Azərbaycan bu cinayətin üstünün örtülməsinə imkan verməməkdə qərarlıdır.

Təyyarənin vurulması ilə bağlı məsələ artıq sadə texniki qəza çərçivəsini aşaraq, beynəlxalq münasibətlər sistemində hüquq, məsuliyyət və ədalət məsələsinin sınağına çevrilib. Azərbaycanın göstərdiyi siyasi iradə və hüquqi yanaşma bu sınaqda dövlətimizin mövqeyinin gücünü nümayiş etdirir. Bu, eyni zamanda, beynəlxalq ictimaiyyətə ünvanlanan açıq çağırışdır: Heç bir dövlət mülki insanların həyatını təhlükəyə atmaq hüququna malik deyil və belə hadisələr cəzasız qalmamalıdır.

Azərbaycan bu mübarizədə yalnız öz ədalətini deyil, eyni zamanda beynəlxalq hüququn nüfuzunu qoruyur. Qlobal təhlükəsizliyin təməli sayılan mülki aviasiyanın toxunulmazlığı prinsipi pozulduqda, bunun nəticələrinin ciddiliyi təkcə bir dövlətə deyil, bütün beynəlxalq sistemə təsir edir. Azərbaycanın bu məsələdəki mövqeyi isə qətiyyətlə bəyan edir: Ədalət tələb olunacaq və gec-tez bərqərar ediləcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Tehran–İrəvan xəttində yeni faza

*Azərbaycanın regional üstünlükləri fonunda İran–Ermənistan yaxınlaşması*

**İran Prezidenti Məsud Pezeşkianın yaxın həftələrə planlaşdırılan İrəvan səfəri Cənubi Qafqazda geosiyasi dinamikanın yeni fazaya keçidində önəmli hadisələrdən biri kimi qiymətləndirilir. Bu səfər təkcə protokol xarakterli diplomatik addım deyil, eyni zamanda, Tehran–İrəvan münasibətlərinin gələcək trayektoriyasına işıq tutan, İranın regiondakı rolu və mövqeyinə dair strateji niyyətləri anlamaq baxımından da xüsusi əhəmiyyət daşıyır. Lakin bu yeni mərhələyə nəzər yetirərkən, regionun dəyişən geosiyasi arxitekturası və xüsusilə Azərbaycanın güclənən rolu kontekstində bu münasibətlərin perspektivlərini analiz etmək zəruridir.**





Məsud Pezeşkianın hakimiyyətə gəlişi İranın xarici siyasətində üslub baxımından müəyyən dəyişikliklərə yol açsa da, strateji prioritetlər baxımından ciddi dəyişikliklərin baş verəcəyi hələlik gözlənilmir. İran üçün Cənubi Qafqaz bölgəsi, xüsusilə Ermənistan və Azərbaycanla münasibətlər, həm təhlükəsizlik, həm iqtisadi əlaqələr, həm də geosiyasi balans baxımından həssas bir zolaq təşkil edir. İranın Ermənistanla münasibətləri bu kontekstdə bir neçə məqsədə xidmət edir: Sərhəd təhlükəsizliyinin qorunması, regional proseslərdə iştirakı təmin etmək, eləcə də Qərbin artan təsirinə qarşı balans yaratmaq. Elə bu baxımdan da İrəvana yönəlik yeni diqqət İranın regional aktivliyinin təbii davamı kimi oxunmalıdır.

İran–Ermənistan münasibətləri son illərdə daha çox texniki və iqtisadi sahələrdə fəallaşıb. Nəqliyyat və enerji infrastrukturunun modernləşdirilməsi, ticarət dövriyyəsinin artırılması, eləcə də sərhədyanı əməkdaşlıq formatlarının genişləndirilməsi bu əlaqələrin gündəliyində önə çıxır. Eyni zamanda, bu münasibətlərin geosiyasi aspektləri də vardır. Tehran Ermənistanı regionda öz maraqlarını ifadə edə biləcəyi alternativ kanal kimi görür və bu kanalı açıq saxlamaqla həm Bakı ilə, həm də Qərblə münasibətlərində çevik manevr imkanlarını qorumağa çalışır. Bununla belə, bu yaxınlaşma İranın regional siyasətində mövcud reallıqları dəyişməkdən çox, ona adaptasiya olunmaq cəhdi kimi dəyərləndirilə bilər.

Azərbaycanın Cənubi Qafqazda formalaşdırdığı yeni reallıqlar isə İranın bu manevrlərini istər-istəməz məhdudlaşdırır. 44 günlük müharibədən sonra Azərbaycan yalnız ərazi bütövlüyünü bərpa etmədi, eyni zamanda regionda iqtisadi və diplomatik mövqeyini əhəmiyyətli dərəcədə gücləndirdi. Bakı bir tərəfdən Türkiyə ilə strateji ittifaqını daha da dərinləşdirərək geosiyasi balansda əsas dayaqlardan birinə çevrildi, digər tərəfdən isə Avropa İttifaqı, Çin və MDB məkanında müxtəlif oyunçularla paralel əməkdaşlıq modelləri qurdu. Belə bir çoxvektorlu siyasət Azərbaycanı regionun əsas geoiqtisadi aktoruna çevirdi.

Zəngəzur dəhlizi ətrafında son illər yaranan fikir ayrılıqları Tehran–Bakı münasibətlərində gərginlik mənbəyinə çevrilsə də, burada daha rasional yanaşmaların formalaşması üçün zəmin də mövcuddur. İranın dəhlizə dair narahatlıqları onun regional suverenlik və sərhəd təhlükəsizliyi baxımından duyduğu həssaslıqla bağlıdır. Lakin bu narahatlıqlar Azərbaycanın rəsmi səviyyədə dəfələrlə bildirdiyi kimi, suverenliyinə zidd hər hansı statusla bağlı deyil, əksinə, regionun iqtisadi inteqrasiyasına xidmət edən kommunikasiya layihəsinin bir hissəsidir. Bu səbəbdən, Bakı ilə Tehran arasında dialoqun dərinləşdirilməsi, qarşılıqlı anlayışın gücləndirilməsi bu gərginliyin aradan qaldırılması üçün vacibdir.

Digər tərəfdən, İranın Ermənistanla yaxınlaşmasının alternativsiz olmadığı da aydındır. Azərbaycan–İran münasibətləri tarixən dərin mədəni və coğrafi köklərə malik olub. Son illərdə ticarət, energetika və nəqliyyat sahələrində həyata keçirilən birgə layihələr də iki ölkənin əməkdaşlıq potensialının yüksək olduğunu göstərir. İki ölkə arasında alternativ nəqliyyat marşrutları üzrə razılaşmalar, Araz çayı üzərində tikilən su elektrik stansiyaları və digər layihələr bu baxımdan nümunə ola bilər. Belə olan halda İranın Ermənistanla yaxınlaşması Azərbaycanın maraqlarına zidd şəkildə deyil, əksinə, daha geniş regional əməkdaşlıq mexanizmlərinin bir hissəsi kimi inkişaf etdirilə bilər.

Pezeşkianın səfəri İranın regionda daha fəal olmaq istədiyini göstərir. Lakin bu fəallıq artıq Azərbaycanın razılığı və iştirakı olmadan geniş təsir radiusu qazana bilməz. Regionda yeni status-kvo Azərbaycanın suverenliyinə və regional liderliyinə əsaslanır. Mövcud reallıq nəinki qonşu ölkələr, həm də qlobal oyunçular tərəfindən qəbul olunmaqdadır. İranın bu yeni reallıqla uyğunlaşması isə yalnız təzyiq ritorikası deyil, qarşılıqlı əməkdaşlıq, anlayış və inam əsasında mümkündür.

Azərbaycan tərəfi üçün də İranın regional sabitlikdə və kommunikasiyaların açılmasında müsbət rol oynaması əhəmiyyətlidir. Bakı regional əməkdaşlıq modellərində Tehranın konstruktiv iştirakını həmişə alqışlayıb. Bu baxımdan, Pezeşkian dövründə münasibətlərin daha praqmatik və əməkdaşlıq yönümlü əsasda inkişafı üçün imkanlar mövcuddur. Lakin bunun baş verməsi üçün İranın Ermənistanla münasibətlərini Bakı ilə münasibətlərə zidd siyasi alətə çevirməməsi, əksinə, regionun bütövlükdə sabitliyinə yönəltməsi vacibdir.

Nəticə etibarilə, İran–Ermənistan yaxınlaşması regionda yeni balans formalaşdırmaq cəhdindən çox, İranın dəyişən reallıqlara uyğunlaşmaq üçün etdiyi bir addımdır. Prosesdə Azərbaycanın mövqeyi və regional üstünlükləri dəyişməz olaraq qalır. Pezeşkianın səfəri İranın Cənubi Qafqaz siyasətinin yeni konturlarını göstərsə də, bu konturlar Azərbaycanın iştirakı və razılığı olmadan sabit kontur kimi qalmaqda çətinlik çəkəcək. Regionda dayanıqlı sülh və əməkdaşlıq yalnız real güc balansını, suverenlikləri və qarşılıqlı maraqları nəzərə alan yanaşmalar əsasında mümkündür. Son olaraq qeyd etməliyik ki, İranın Cənubi Qafqaz siyasətində rasional və inklüziv xətt tutması bütün tərəflər üçün daha faydalı nəticələr verə bilər.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Dövlətçilik uğrunda savaş yeni mərhələdə



V MƏQALƏ

## Dövlətçilikdə regional liderlik vizyonu

Regional liderliyi təmin edən dövlətçilik baxışı (vizyonu) xüsusi məzmuna malikdir. Burada müstəqil dövlətin öz daxili birliyini gücləndirmək və bütün sferalar üzrə imkanlarını artırmaq Cənubi Qafqaz miqyasında lider rolunu oynamağın təmininə yönəldilmişdi. Azərbaycan Respublikası sosial, siyasi, iqtisadi, enerji, nəqliyyat-logistika və başqa sferalarda regional liderlik rolunu oynaya biləcək səviyyəyə yüksəldi. Bunu dünya miqyasında Vətən müharibəsindən sonrakı mərhələdə Azərbaycanın fəaliyyəti nəticəsində etiraf etdilər.

Regional lider kimi cəmiyyət daxilində bir sıra mühüm proseslərin aparılması zəruri idi. Onların sırasında dezinformasiya ilə mübarizə ayrıca əhəmiyyət kəsb edirdi. Burada əsas yeri Azərbaycanı dövlət kimi region xalqlarının gözündə salmaq tuturdu. Bununla yanaşı, gənclərin milli ruhda tərbiyəsinin yeni səviyyəyə yüksəldilməsinə də əngəllər törətdilər. Müşahidələr göstərdi ki, bir sıra yerli KİV orqanı da daxil olmaqla Azərbaycan xalqının II Qarabağ Zəfərinə süni hadisələr törətməklə kölgə salmağa çalışdılar. Bu zaman müxtəlif istiqamətlərdə dezinformasiyanı gücləndirdilər. Bir neçə nümunəyə baxaq.

Çalışırdılar göstərsinlər ki, Vətən müharibəsində qələbə Azərbaycan dövləti, Ali Baş Komandan, xalq və ordu deyil, hansısa din adamının fətvası ilə əldə edilmişdir. Şuşanı da hansısa dini qrupun üzvləri azad etmişlər. Başqa variantda ortaya Rusiyanın "insafı" və ya "Putinin razılığı" kimi qondarma mövzular atmağa çalışdılar. Azərbaycanın informasiya məkanında buna bənzər şər-böhtanlar, təəssüf ki, uzun müddət yer aldı. Burada məqsəd aydın idi: Azərbaycanın tarixi qələbəsini dövlətin başçısı, xalqın lideri, ordusu, ümumiyyətlə, cəmiyyəti deyil, hadisələrə heç bir müsbət təsiri olmayan şəxslərin adına çıxmağa cəhdlər göstərdilər. Belə görüntü yaratmağa çalışırdılar ki, Azərbaycan dövlət deyil və azərbaycanlılar, ümumiyyətlə, dövlət yarada bilmirlər. Azərbaycan Respublikasını da hansı yad siyasətçi idarə edir. Bakı qıraqdan verilən əmrlərə görə hərəkət edir.

Bu səviyyədə düşməncəsinə yalan və böhtanları cəmiyyətdə yayanlar içərisində çox təəssüf ki, "sapı burdan olan baltalar" da var. Çox təəssüf ki, onlar hələ də ortalıqda dolaşırlar. Hətta redaksiyalarda "zəhmət çəkirlər", "millətə xidmət edirlər"!

Bütövlükdə isə Azərbaycan cəmiyyəti bu cəhdləri qətiyyətlə rədd etdi və indi də rədd edir. Sözün həqiqi mənasında heç bir nəticə ala bilmədilər. Cəmiyyətin böyük əksəriyyətinin dövlətə, liderə, xalqa və orduya inamı zərrə qədər də azalmadı.

Başqa bir istiqamət kimi Azərbaycanla Ermənistan və Gürcüstan arasında ixtilaf yaratmaq cəhdlərini göstərə bilərik. Çox müxtəlif və dolayı üsullarla cəmiyyətdə belə təəssürat yaratmağa girişmişdilər ki, kənar dövlətlər olmadan regionda sülh, əməkdaşlıq, barış və təhlükəsizliyi təmin etmək mümkün deyildir. Buna işə ABŞ, Avropa, Rusiya və ya İran patronluq etməlidir. KİV həmin istiqamətdə xeyli canfəşanlıq etdi. Ancaq bu dağıdıcı prosesi Azərbaycan Prezidentinin çox fəal və yaradıcı siyasəti yerlə-yeksan etdi. Bu barədə Prezident İlham Əliyev Şuşa Qlobal Media forumlarında bəhs etmişdir.

Ən ciddi təsiri isə Azərbaycan rəhbərliyinin həyata keçirdiyi konkret əməkdaşlıq və təhlükəsizlik arxitekturasının yenidən yaradılmasına istiqamətlənmiş addımları göstərdi. Cəmi iki ilə aydın oldu ki, Azərbaycan rəhbərliyi Ermənistan siyasi hakimiyyətini yalnız onunla danışıqlar aparmağın lazım olduğuna inandıra bilmişdi.

Nəticədə ermənilərə havadarlıq edən böyük dövlətlər bir səhər yuxularından ayıldılar ki, Azərbaycanla Ermənistan vasitəçi olmadan sülh barədə nəticəverici danışa bilirlər. Bütün qüsurlarına baxmayaraq (çünki rəsmi İrəvan bəzən çaşır), bu gedişat Vətən müharibəsindən sonra regionu qarışdırmaq istəyənlərin pozucu siyasətlərinə güclü zərbə idi. Onun memarı sözsüz ki, Azərbaycan Prezidenti İlham Əliyevdir. Məhz İlham Əliyevin qətiyyəti, ədaləti, həqiqi sülhə xidmət edən addımları qarşı tərəfdə inam və etibar yaratdı.

Bununla Azərbaycan regional liderliyi təmin edən dövlətçilik viziyonunun praqmatik və reallaşa bilən olduğunu dünyaya sübut etdi. Belə bir vəziyyət yeni tarixi mərhələ üçün dövlətçilik baxımından son dərəcə vacib olan bir məqamı aktuallaşdırdı. Regional ldier kimi özünü təsdiq edən Azərbaycan mütləq surətdə daha geniş geosiyasi məkana müstəqil dövlətçilik baxışlarını uğurla proyeksiya etməli idi. Bununla regional liderlik vizyonu yeni geniş dövlətçilik baxışlarının tərkib hissəsi olmalı idi. Bu, Azərbaycanın davamlı olaraq müstəqil dövlət kimi inkişafı naminə edilməli idi.

Onun səbəbləri çoxdur və ayrıca təhlil edilməlidir. Burada onu vurğulayaq ki, Vətən müharibəsindən dərhal sonra Azərbaycan Prezidenti regional miqyası aşaraq regionlararası miqyasda müstəqil dövlətçilik kursunu reallaşdırmağa xidmət edən proqramlar həyata keçirməyə başladı. Onun əsas reallaşma "kanalı" Türk Dövlətləri Təşkilatı (TDT) idi. Ancaq Qoşulmama Hərəkatı da daxil olmaqla bir sıra regional və qlobal təşkilatlar çərçivəsində fəaliyyət yeni səviyyəyə yüksəldildi.

## Dövlətçilik vizyonunda güc və humanitarlığın vəhdəti

Əlbəttə, regionlararası miqyasda dövlət identikiliyin özünütəsdiqi daha mürəkkəb və çoxtərəfli prosesdir. Azərbaycan müasir tarixində ilk dəfə idi ki, bu səviyyəyə yüksəlmək şansı əldə etmişdi. Ona görə də demək olar ki, hər şeyi eksklüziv yaratmaq lazım gəlir. Burada ilk vəzifələrdən biri "türk ailəsi" ifadəsinə siyasi və geosiyasi məzmun verməkdən ibarətdir.

Dövlətlərin vahid təşkilatda birliyini ətmin edən şərtlər təbii ki, həm milli, həm də regional miqyaslarda keçərli olan şərtlərin yeniləşdirilməsi əsasında müəyyən edilməli idi. Azərbaycan Türkiyə ilə birlikdə "türk ailəsi" ifadəsinə hüquqi aspektdə məzmun verdilər. Bu, beynəlxalq miqyasda müstəqil dövlətlər arasında münasibətlərin hüquq normaları çərçivəsində qurulması qaydalarına tam uyğun aparılır.

Eyni zamanda, Azərbaycan dövlətçilik ənənəsində xüsusi yeri olan tarixi ədalət prinsipini daha geniş miqyasa proyeksiya edir. Bununla TDT-nin kollektiv varlıq kimi fəaliyyətinin təməlinə hüquq və ədalətlilik anlayışları yerləşdirildi. Eyni zamanda, mədəniyyət, tarix, din birliyi xüsusi yer tutdu. İndi bu kimi dəyərlərin fonunda Azərbaycan dövlətçilik uğrunda yeni mərhələsinə başlamışdır və ciddi mübarizəsini aparır. Həmin prosesdə humanitarlıq xüsusi olaraq özünü göstərir. Onun başlıca əlaməti Azərbaycan dövlətinin dost ölkələrə yardımlarını gücləndirməsi ilə bağlıdır. Məsələn, Suriyanın qazla təmin edilməsində Azərbaycanın atdığı addım yeni mərhələnin çox əlamətdar faktlarından biridir.

Bundan başqa, Bakı enerji, kommunikasiya, logistika və təhlükəsizlik arxitekturasının yaradılması ilə bağlı regionlararası miqyasda təsirli addımlar atmaqdadır. Bunlar cəm halında yeni mərhələdə dövlətçilik uğrunda savaşın ayrı-ayrı elementləridirlər.

Ancaq bütün bunların fonunda daxili vəziyyətə aid olan bir məqamın aktuallığı daha da artmışdır.

## Dövlətçilik və informasiya müharibəsi

Son illərin faktları göstərir ki, Azərbaycan cəmiyyətini çaşdırmaq, onu əsl dost və düşmənlərini müəyyən etməkdə yanlış yola yönləndirmək, gənclərin Vətənə bağlılığını zəiflətmək və s. kimi cəhdlər azalmır, əksinə, yeni məzmun və forma alır. Regional və qlobal miqyaslarda geosiyasi mübarizənin daha da kəskinləşməsi bu prosesdə risk faktorunu artırır. Həmin aspektdə bir neçə istiqamətdə əks tərəfin fəallaşdığını görürük.

Hər şeydən öncə, hiss olunur ki, müəyyən sosial-iqtisadi hadisələrdən süni istifadə edərək iqtidar-xalq birliyini şübhə yaratmağa çalışanlar vardır. Onlar bir sıra yerli KİV orqanları vasitəsi ilə ictimai şüuru manipulyasiya etməyə cəhdlər göstərirlər.

Başqa bir məqam ayrıca gənclərə yönəlmiş təbliğat siyasətidir. Burada da gündəlik həyatda baş verənləri düşmənləri qane edən forma və məzmunda təqdim etməklə Vətənsevərliyi zəiflətmək məqsədi güdürlər.

Son iki ildə Azərbaycan dövlətçiliyi üçün önəmli olan TDT kontekstində bir sıra qərəzli informasiyalar yayırlar. Burada Mərkəzi Asiya türk dövlətlərinin "etibarsız" obrazlarını yaratmaq cəhdləri özünü göstərir. Ayrıca, Türkiyənin yanlış obrazını formalaşdırmaq üçün qəbuledilməz informasiyalar yayırlar. Özü də bunu çətin zamanlarda yanımızda olmayanlara qarşı xüsusi yumşaqlıq və daha çox obyektiv yanaşma fonunda etməyə çalışırlar.

Nəhayət, son illər Azərbaycanda məmur-cəmiyyət ziddiyyəti formalaşdırmğa yönəlmiş informasiya cəhdləri özünü göstərir. Bu aspektdə başlıca olaraq ayrı-ayrı neqativ məmur davranışlarını ümumiləşdirmək cəhdləri biruzə verir.

Bütün bunlara qlobal güclərin geosiyasi mübarizəsinin gərginliklərini də əlavə etmək lazımdır. Azərbaycandan asılı olmayan səbəblərdən müxtəlif problemlər meydana çıxa bilər və burada gözlənilməz riskləri nəzərə almaq lazımdır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan yeni mərhələdə dövlətçilik uğrunda daha mürəkkəb, riskli və geniş əhatəli savaş verir. Bu mərhələdə də qalib gəlməyimiz olduqca vacibdir. Azərbaycan dövlətçiliyinə türk ailəsinin üzvü kimi yeni məzmun və məna çalarları verməyə doğru qətiyyətlə irəliləyir. Burada bir sıra məsələlərdə prinsipial olaraq yeni situasiya yaratmaq zəruridir.

Məsələn, Azərbaycan dinamik, vətənsevər gənc orta təbəqə yaratmaqla yanaşı, vətənsevər gənc məmur təbəqəsini də formalaşdırmaq istiqamətində çalışmalarını yeni səviyyəyə yüksəltməlidir. Daxili sosial, siyasi, mənəvi, mədəni, ideoloji birliyin güclənməsində gənc və Vətənsevər məmur kəsiminin rolu həlledici ola bilər. Şübhə yoxdur ki, bu istiqamətdə dövlət başçısı nəzərdə tutduğu proqramları bundan sonra da qətiyyətlə həyata keçirəcəkdir. Bu prosesdə Azərbaycan ziyalıları Prezidentə tam dəstək verməkdə davam edəcəklər.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Ermənistanın Azərbaycan ərazilərinə basdırdığı minalar və partlamamış hərbi sursatlar mülki əhali və hərbi qulluqçuların həyatını təhdid etməkdə davam edir. Bu təhlükənin hələ də mövcud olduğu və ciddi humanitar fəsadlara yol açdığı bir daha təsdiqini tapır. Sonuncu mina partlayışı avqustun 5-də Kəlbəcər rayonunun ərazisində baş verib. Bu partlayış nəticəsində Azərbaycan Ordusunun 5 hərbi qulluqçusu müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Bundan əvvəl, iyulun 10-da isə Ağdərə rayonunun Həsənqaya kəndində 1979-cu il təvəllüdlü Quluyev Qulu Tufan oğlu təhlükəli ərazidə mal-qarasını otararkən piyada əleyhinə minaya düşmüş, nəticədə sol ayağından ağır xəsarət almış, sonradan ayağı amputasiya edilmişdir.**

Göründüyü kimi, Ermənistanın işğal dövründə Azərbaycan ərazilərində qəsdən basdırdığı minalar hazırda mülki vətəndaşlarımıza xələl gətirir, bir çox çətinliklərin yaranmasına səbəb olur. Bəli, mina tələləri hərbi məqsədlərə xidmət etmir, mülki əhalini hədəf alaraq onlara qarşı böyük bir təhlükə yaradır. Həm də qaçqın və məcburi köçkünlərin doğma torpaqlarına geri qayıtmasının qarşısını almaq məqsədi güdür. Eyni zamanda, hayların bu əraziləri minalaması təkcə müharibənin hərbi aspektləri-

# Düşmən torpağımıza "ölüm toxumu" səpib...

*Gəlin, onun qara niyyətini gözündə qoyaq*



ni deyil, həm də onun uzunmüddətli sosial təsirlərini göstərir.

Onu da qeyd edək ki, bu gün minalanmış ərazilərin dəqiq xəritələrinin olmaması minatəmizləmə işlərini də çətinləşdirir. Bu isə öz növbəsində, məcburi köçkünlərin torpaqlarına təhlükəsiz qayıdışını əngəlləyir. Axı insanlar öz doğma yurdlarına geri dönməzdən əvvə həmin ərazilər minalardan təmizlənməli, təhlükəsiz hala gətirilməlidir.

Deməli, minalar yalnız müharibə nəticəsində dağıdılmış infrastrukturun bərpasını çətinləşdirmir, eyni zamanda, insanlar üçün yaşayış sahələrinin və sosial xidmətlərin bərpası prosesini ləngidir, həm də onların psixoloji vəziyyətinə mənfi təsir göstərir.

Bu məsələnin beynəlxalq səviyyədə müzakirə olunması vacibdir. Çünki Ermənistanın minalanmış ərazilərin dəqiq xəritələrini Azərbaycan tərəfinə verməsi, bu təhlükənin aradan qaldırılması və insanların təhlükəsiz şəkildə öz torpaqlarına geri dönməsi üçün vacib amildir. Ona görə də beynəlxalq təşkilatlar, hökumətlər və qeyri-hökumət təşkilatları, məsələyə ciddi yanaşmalı və müvafiq tədbirlər görməlidirlər. Minalanmış ərazilərin dəqiq xəritələrini təqdim edilməsi yalnız iki ölkə arasındakı münasibətlərin normallaşmasına deyil, həm də regionda sülhün bərqərar olması üçün atılacaq addımdır. Bununla bağlı Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva beynəlxalq təşkilatları Ermənistanın cinayətlərinə ciddi reaksiya verməyə çağırıb.

Müraciətdə deyilir: "Ermənistanın mina basdırılmış ərazilər barədə məlumatları təqdim etməkdən boyun qaçırması beynəlxalq humanitar hüququn kobud şəkildə pozulmasıdır. Hər bir dövlətin öz xalqını təhlükələrdən qorumaq hüququ var və minaların yerləşdirilməsi nəticəsində yaranan təhlükənin qarşısını almaq da bu hüquqdan irəli gəlir. Beynəlxalq təşkilatların müvafiq addımlar atması və Ermənistana təzyiq göstərməsi zəruridir. Bu məsələyə beynəlxalq hüququn, həmçinin insan hüquqlarının və ekologiyanın qorunması baxımından ciddi yanaşılması vacibdir. Həmin ərazilərdə aparılacaq işlərin düzgün şəkildə həyata keçirilməsi və bərpa proseslərinin uğurlu olması üçün minaların dəqiq xəritələrinin əldə edilməsi önəmlidir. Bu, təkcə münaqişə nəticəsində zərər çəkən insanların həyatını qorumağa deyil, həm də regionun gələcəyini təmin etməyə kömək edəcək.

Beynəlxalq ictimaiyyətin bu məsələyə daha fəal şəkildə müdaxilə etməsi və Ermənistanın bu məsələdə beynəlxalq humanitar hüquqa riayət etməyə məcbur edilməsi vacibdir. Bu istiqamətdə daha çox addım atılmasına ehtiyac var. Ombudsman olaraq, beynəlxalq ictimaiyyəti minatəmizləmə fəaliyyətlərinin təxirəsalınmazlığını qəbul etməyə, Azərbaycanın davam edən mina təmizləmə səylərinə dəstək olmağa və həmçinin Ermənistanı məqsədli şəkildə və geniş miqyasda basdırılmış minalara görə məsuliyyətə cəlb etməyə çağırıram".

*

Ombudsman müraciətdə onu da nəzərə çatdırıb ki, minalarla çirklənmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin aparılması, otuz il müddətində hüquqları pozulmuş 800 mindən çox keçmiş məcburi köçkünün öz doğma torpaqlarına qayıtması prosesi ciddi şəkildə gecikir. Bu isə həmin insanların fundamental insan hüquqlarının pozulması ilə nəticələnir

Bu da onu göstərir ki, ermənilərin Azərbaycanda mina terroru davam etməkdədir. 2020-ci ildən bəri təxminən 400 Azərbaycan vətəndaşının mina partlayışlarının qurbanı olması buna sübutdur. Onu da etiraf etmək lazımdır ki, bu minalar Ermənistan tərəfindən Azərbaycan ərazilərinin işğalı zamanı qəsdən və hər tərəfdə basdırılıb. Bir çox hallarda minalar hər hansı hərbi zərurət olmadan, yalnız mülki şəxsləri hədəf almaq məqsədilə yerləşdirilib. Ona görə də rəsmi Bakı minalardan təmizləmə fəaliyyətlərinə böyük önəm verir. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən həyata keçirilən müvafiq əməliyyatlar hər keçən gün daha çox ərazini təhlükəsiz edir.

Son dövrlər həyata keçirilən əməliyyatlar zamanı Tərtər, Kəlbəcər, Ağdam, Şuşa və digər rayonlarda yüzlərlə mina və partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən iyulun 28-dən avqustun 3-dək aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 48, tankəleyhinə 15 mina və 309 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Eyni zamanda, 1726,1 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

Təkcə iyul ayında piyadaəleyhinə 265, tankəleyhinə 57 mina və 2007 partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib, 7058,9 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.

**Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Rəhimoğlu XQ-yə bidirdi** ki, minaaxtaranlar hər addımda təhlükəni yoxlayır, hər qarış torpağı səbirlə, ehtiyatla, böyük diqqətlə təmizləyirlər: "Onlar bunu sabah bu yerlərdə yaşanacaq xoşbəxt və təhlükəsiz həyat üçün edirlər. 2020-ci ilin noyabrından 2025-ci il iyunun 1-dək azad olunmuş ərazilərdə 38 minə yaxın piyadaəleyhinə mina, 22 mindən bir qədər az tankəleyhinə mina, eləcə də 139 minə yaxın partlamamış hərbi sursat aşkarlanıb. Amma görülən işlərə baxmayaraq, qarşıda hələ çox məsuliyyətli və təhlükəli yol var.

İlkin hesablamalara görə, Ermənistanın Azərbaycan torpaqlarına yerləşdirdiyi minaların ümumi sayı 1,5 milyondan çoxdur. Təəssüf ki, minalar hər gün insan həyatını təhlükəyə atmaqda davam edir. Azərbaycan bu məsələyə beynəlxalq diqqətin cəlb olunması üçün ardıcıl səylər göstərir".

Sonda onu da qeyd edək ki, minalar yalnız insanların fiziki sağlamlığına deyil, həm də ətraf mühitə ciddi ziyan vurur, ekoloji tarazlığı pozur, bitki örtüyünü zədələyir və təbiətə zərər verir. Minaların təmizlənməsi, həmçinin bu ərazilərdə kənd təsərrüfatı və digər iqtisadi fəaliyyətlərin bərpasına imkan yaradır. Bu baxımdan mina təhlükəsinin aradan qaldırılması yalnız insanların təhlükəsizliyini təmin etməklə qalmır, həm də ölkənin iqtisadi inkişafına töhfə verir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Ötən “Əsrin müqaviləsi”nin yeni əsr uğurları

### *19 ildə Ceyhan limanından dünya bazarına 605 milyon ton neft göndərilib*



**Ölkəmizin iqtisadi müstəqilliyi üçün möhkəm təməl, etibarlı baza yaradan “Əsrin müqaviləsi” çərçivəsində əməliyyatlar uğurla davam edir. Əvvəlki dövrlərdə olduğu kimi, bu ilin yanvar-iyun aylarında da “Azəri-Çıraq-Günəşli” (AÇG) layihəsi üzrə tikinti-quraşdırma, qazma və hasilatla bağlı əməliyyatlar sahəsində uğurlu nəticələr əldə edilib.**

“BP-Azərbaycan” şirkətinin 2025-ci ilin birinci yarısının nəticələrinə dair hesabatına əsasən, yanvar-iyun aylarında konsorsium iştirakçıları tərəfindən “Azəri-Çıraq-Günəşli” layihəsinin əməliyyat tədbirlərinə 259 milyon dollar, əsaslı məsrəflərinə isə 558 milyon dollar xərclənib. Konsorsium iştirakçıları “Azəri-Çıraq-Günəşli” yataqlar blokunda aparılan 4-ölçülü yüksək dəqiqlikli dənizdibi qovşaqlarla seysmik tədqiqat proqramı çərçivəsində 2024-cü ildə əldə olunmuş seysmik məlumatların emalını bu ilin birinci yarısında yekunlaşdırıblar. İyun ayında isə ikinci il üçün məlumat toplanması işlərinə start verilib.

Cari ilin yanvar-iyun ayları ərzində “Azəri-Çıraq-Günəşli” yataqlar blokundan neft hasilatı sabit, təhlükəsiz və etibarlı şəkildə davam etdirilib. Hesabat dövründə AÇG-də, ümumilikdə, 143 hasilat, 46 su injektor və 10 qaz injektor quyusu istismarda olub. Bu ilin ötən dövründə 7 hasilat platforması vasitəsilə gündə orta hesabla 327 min barel və ya ümumilikdə, təxminən, 59 milyon barel, yəni 8 milyon ton neft çıxarılıb.

Ümumi hasilatın 21 min bareli “Çıraq”, 86 min bareli “Mərkəzi Azəri”, 75 min bareli “Qərbi Azəri”, 42 min bareli “Şərqi Azəri”, 54 min bareli “Dərinsulu Günəşli”, 24 min bareli “Qərbi Çıraq” və 25 min bareli “Azəri-Mərkəzi-Şərqi” platformalarının payına düşüb. Fevral ayının 18-də isə BP və tərəfdaşları AÇG layihəsi çərçivəsində “Mərkəzi Azəri” platformasından ilk neftin əldə olunmasının 20 illiyini qeyd etdilər. Xatırladaq ki, indiyədək bu platformadan, ümumilikdə 1,1 milyard barrel (154 milyon ton) neft hasil edilib.

AÇG layihəsi çərçivəsində neft hasilatını sabit saxlamaq məqsədilə ilin əvvəlindən bir sıra texniki tədbirlər həyata keçirilib. Belə ki, ikinci rübdə 4 illik fasilədən sonra “Çıraq” platformasından laylara su vurulması prosesi yenidən bərpa edilib. Bunun üçün platformada bir sıra vacib yenilənmə işləri həyata keçirilib. Həmin işlərə isə suvurma nasoslarının yenidən layihələndirilməsi və modifikasiya olunması, idarəetmə sisteminin yenidən qurulması, eləcə də əlavə bir su injektor quyusunun qazılması daxildir. Yeri gəlmişkən, yeni quyu “Çıraq” platformasında ilk dəfə olaraq ayrıca dizel generatoruna ehtiyac olmadan mövcud üst tikililər və qazma generatorlarının istehsal etdiyi elektrik enerjisi ilə qazılıb. Bundan əlavə, ikinci rübdə AÇG layihəsi çərçivəsində “ACE” platformasından ilk qaz injektoru quyusu təhlükəsiz şəkildə və qrafikə uyğun işə salınıb.

AÇG-də neft hasilatının sabit saxlanılması məqsədilə konsorsium iştirakçıları tərəfindən qazma əməliyyatları da nəzərdə tutulmuş qrafikə uyğun davam etdirilib. Belə ki, 6 ay ərzində müqavilə sahəsində 3 neft hasilatı, 3 su injektor və 1 qaz injektor quyusunun qazılması tamamlanıb.

“Azəri-Çıraq-Günəşli” yataqlar blokunun hazırda işlənməkdə olan laylarının altı sərbəst təbii qaz ehtiyatları ilə zəngindir. Mütəxəssislər AÇG yatağının çıxarıla bilən sərbəst təbii qaz ehtiyatlarının 4 trilyon kub futadək olduğunu düşünürlər. Həmin ehtiyatların kəşfiyyatı, qiymətləndirilməsi, işlənməsi və hasilatı ilə bağlı işləri irəlilətmək məqsədilə 2024-cü il sentyabrın 20-də, “Əsrin müqaviləsi”nin 30-cu ildönümündə AÇG üzrə mövcud hasilatın pay bölgüsü sazişinə yeni bir əlavə imzalanıb.

2025-ci iin birinci yarısında sərbəst təbii qaz ehtiyatlarının zəngin olduğu güman edilən iki prioritet layı əhatə edən ilkin qiymətləndirmə quyusunun qazılması tamamlanıb. Mövcud “Qərbi Çıraq” platformasından qazılmış həmin quyu olduqca əhəmiyyətli hesab edilir. Çünki quyu hasilat vasitəsilə qiymətləndirmə aparmağa da imkan verəcək ki, bunun əsasında da gələcək işlənmə planlarını qurmaq mümkün olacaq. Hazırda həmin quyudan ilk qaz hasilatının əldə olunması istiqamətində bütün lazımi sualtı birləşdirmə işləri davam edir.

Bu ilin ilk yarısında AÇG-dən neft və səmt qazının sualtı boru kəmərləri vasitəsilə Səngəçal terminalına göndərilməsi davam etdirilib. Yanvar-iyun aylarında AÇG-dən Azərbaycan dövlətinə, əsasən, Səngəçal terminalından, eləcə də “Neft Daşları”ndakı qurğu vasitəsilə gündə orta hesabla 8 milyon kubmetr, ümumilikdə, isə 1,5 milyard kubmetr səmt qazı təhvil verilib. Hasil edilən səmt qazının qalan hissəsi isə təzyiqi saxlamaq məqsədilə yenidən kollektora vurulub.

Xam nefti dünya bazarına çıxaran Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri, əvvəlki dövrlərdə olduğu kimi, 2025-ci ilin yanvar-iyun aylarında da fəaliyyətini uğurla davam etdirib. “BP-Azərbaycan” şirkətinin bu ilin birinci yarısının nəticələrinə dair hesabatına əsasən, konsorsium iştirakçıları tərəfindən BTC üzrə əməliyyat tədbirlərinə 60 milyon dollar, əsaslı məsrəflərinə isə 30 milyon dollar xərclənib.

Hesabat dövründə BTC vasitəsilə ixrac olunmuş, təqribən, 13 milyon ton xam neft və kondensat Ceyhan terminalında 145 tankerə yüklənərək dünya bazarlarına yola salınıb. Bütövlükdə isə, 2006-cı ilin iyun ayında istismara verilmiş 1768 kilometr uzunluğunda olan BTC boru kəməri vasitəsilə 2025-ci ilin ikinci rübünün sonunadək 605 milyon ton (4,6 milyard barel) xam neft nəql edilib. Xam neft Ceyhan limanında 6007 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Xatırladaq ki, hazırda BTC əsas ixrac boru kəməri, əsasən, Azərbaycandan AÇG nefti və “Şahdəniz” yatağından çıxarılan kondensatı daşıyır. Bundan əlavə, adıçəkilən kəmər vasitəsilə Qazaxıstan və Türkmənistana məxsus xam neft və kondensat həcmləri də nəql olunur.

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin tabeliyindəki Azərbaycan Akkreditasiya Mərkəzi (AzAK) Asiya – Sakit Okean Akkreditasiya Əməkdaşlığına (APAC) “Sınaq və kalibrlənmə laboratoriyalarının səlahiyyətliliyinə dair ümumi tələblər” beynəlxalq standartı üzrə tamhüquqlu üzv qəbul edilib.**

# AzAK Asiya – Sakit Okean əməkdaşlığına qoşulub

Dövlət Agentliyinin məlumatına görə, bu, AzAK tərəfindən akkreditasiya edilmiş sınaq və kalibrləmə laboratoriyalarının təqdim etdiyi uyğunluq sənədlərinin (kalibrləmə və sınaq nəticələri və s.) Asiya–Sakit Okean regionunda tanınmasına imkan yaradacaq, təşkilatın digər üzvləri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə, eləcə də respublikamızın qlobal akkreditasiya sistemində daha fəal iştirakına töhfə verəcək.

Xatırladaq ki, Azərbaycan Prezidentinin 2023-cü il 23 yanvar tarixli sərəncamı ilə təsdiq edilən “Milli standartlaşdırma sisteminin beynəlxalq tələblərə uyğunlaşdırılmasına dair 2023–2025-ci illər üçün Dövlət Proqramı”nın Tədbirlər Planında milli akkreditasiya qurumunun “Uyğunluğun qiymətləndirilməsi qurumlarını akkreditasiya edən orqanlara tələblər” beynəlxalq standartının tələblərinə uyğunlaşdırılması, müvafiq akkreditasiya üzrə beynəlxalq və regional təşkilatlara tamhüquqlu üzvlüyünün təmin edilməsi,




habelə qarşılıqlı tanınma razılaşmalarının bağlanılması nəzərdə tutulub. Bu çərçivədə AzAK-ın fəaliyyəti ISO/IEC 17011:2017 standartının, o cümlədən akkreditasiya üzrə beynəlxalq və regional təşkilatların tələblərinə uyğunlaşdırılıb.

# “Yaşıl və rəqəmsal İpək yolu” təlimi

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) “Enterprise Azerbaijan” portalı ABŞ-ın Nevada Universiteti ilə birgə həyata keçirdiyi “Yaşıl və rəqəmsal İpək yolu” beynəlxalq proqramı çərçivəsində onlayn təlimlərə start verib.**



Təlimlərin ilk günündə mərkəzin icraçı direktoru Vüsal Qasımlı “yaşıl” və rəqəmsal texnologiyaların iqtisadi inkişafa əhəmiyyətindən danışaraq bu sahədə artan investisiya imkanlarını vurğulayıb. O, eyni zamanda, innovatorlar üçün dəstəkləyici yanaşmaların önəmini diqqətə çatdıraraq bu istiqamətdə keçirilən onlayn təlimlərdən böyük gözləntiləri olduğunu bildirib. “Yaşıl iqtisadiyyat və təsirli startap təlimi” mövzusunda ilk təlimi Maltada fəaliyyət göstərən “A8” Sürətləndirmə Mərkəzinin layihə rəhbəri Qonca Kara aparıb.

Qeyd edilən proqrama ABŞ, Türkiyə, Çin, Pakistan, Qazaxıstan, Rusiya, Estoniya və Özbəkistandan 20-dən artıq beynəlxalq qurum, eyni zamanda, respublikamızın 30-a yaxın yerli təşkilatı tərəfdaşlıq edir. Layihənin məqsədi “yaşıl” enerji və rəqəmsallaşma sahələrində fəaliyyət göstərən startapları bir araya gətirmək və bu istiqamətlərdə innovativ ideyaların inkişafını dəstəkləməkdir.

# Sənaye zonalarında qeyri-neft istehsalı aparıcı yer tutur

### *Buraxılan məhsullar 70-dən artıq ölkəyə ixrac edilir*

**Bu gün Azərbaycanda iqtisadi inkişaf strategiyasının əsas istiqamətlərindən biri olan sənayeləşmə ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Son illərdə bu siyasət çərçivəsində yaradılan sənaye zonaları ölkənin qeyri-neft sektorunun gücləndirilməsində, ixrac potensialının artırılmasında və investisiya mühitinin daha da yaxşılaşdırılmasında mühüm rol oynayır.**

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən iqtisadi islahatların əsas məqsədi də məhz Azərbaycanın neftdən asılılığını azaltmaq, qeyri-neft sektorunu şaxələndirmək və dayanıqlı iqtisadi artımı gerçəkləşdirməkdir. Sənaye zonalarının yaradılması da məhz bu məqsədlərə xidmət edir. Həyata keçirilən layihələrin nəticəsidir ki, respublikamızda sənayeləşmə siyasətinə uyğun olaraq yaradılan sənaye zonalarının qeyri-neft sənayesi məhsullarının istehsalında və ixracında xüsusi çəkisi yüksəlib. İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) məlumatına görə, bu sektorda məhsul istehsalı cari ilin I yarısında 1,83 milyard manat (18,7 faiz), ixracı isə 583,5 milyon manat (28,3 faiz) olub.

İndiyədək respublikanın 13 sənaye zonasında investisiya portfeli 8 milyard manatdan çox olan 160 sahibkarlıq subyekti rezident, 12 sahibkar isə qeyri-rezident kimi qeydiyyata alınıb. 2015-ci ildən cari ilin I yarısı da daxil olmaqla sənaye zonalarında 17,2 milyard manatlıq məhsul satışı həyata keçirilib, bunun da 5,53 milyard manatlıq hissəsi (2024-cü ilin eyni dövrünə nisbətən 28,7 faiz, ixracı 22,4 faiz çox) ixrac edilib.

Sənaye zonalarında istehsal edilən polimerlər, karbamid, polad və polietilen borular, tütün məmulatları, divar kağızları, müxtəlif təyinatlı ayaqqabılar, sürtkü yağları, ferroərintilər, müxtəlif növdə kabellər, şüşə lövhələr, tikinti kimyəviləri, ipliklər, elektrod və s. məhsullar ABŞ, Kanada, Çin, Hindistan, İngiltərə, Almaniya, BƏƏ, Yunanıstan, İsrail, Avstriya, Norveç, Çexiya, İspaniya və Belçika daxil olmaqla, ümumilikdə, dünyanın 70-dən artıq ölkəsinə “Made In Azerbaijan” brendi adı ilə ixrac olunub. Sənaye zonalarına sahibkarların cəlb edilməsi, investisiyaların yatırılması və yeni iş yerlərinin yaradılması istiqamətlərində də müsbət addımlar atılıb. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,88 milyard manatdan çox investisiya yatırılıb və 10,9 min daimi iş yeri yaradılıb.

Qeyd edək ki, İZİA-nın idarəçiliyində olan sənaye parklarında fəaliyyət göstərən sahibkarlara, ümumilikdə, 1746 ədəd, cari ilin 6 ayında isə 144 ədəd təsdiqedici sənəd verilib. Həmin sənədlər əsasında rezidentlər tərəfindən sənaye parklarında tətbiq edilən idxal ƏDV-si və gömrük güzəştləri nəticəsində 520 milyon manatdan, 2025-ci ilin I yarısında isə 14 milyon manatdan çox şəxsi vəsaitə qənaət edilib. Bundan başqa, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir vergilərindən, həmçinin istehsal məqsədilə texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və gömrük rüsumlarından tam azad olunub.

Azərbaycan Respublikasının müxtəlif regionlarında yaradılan sənaye zonaları artıq qısa müddət ərzində ölkənin iqtisadi həyatında öz yerini tapıb. Bu zonalar qeyri-neft sənayesinin istehsal strukturunda xüsusi çəkiyə malik olmaqla, ixrac həcminin artırılmasına da ciddi təsir göstərib. Sumqayıt Kimya Sənaye, Pirallahı Sənaye, Mingəçevir və Balaxanı sənaye parkları, Neftçala və Masallı sənaye məhəllələri, eləcə də digər regional sənaye zonaları istehsal və emal sahələrində innovativ texnologiyaların tətbiqi baxımından nümunəvi platformalar kimi tanınıb.

Bu zonalarda fəaliyyət göstərən müəssisələr, eyni zamanda, kənd təsərrüfatı məhsullarının emalı, kimya, yüngül sənaye, əczaçılıq, tikinti materialları və maşınqayırma sahələrində ixtisaslaşıb. Bunun nəticəsində sənaye zonaları vasitəsilə ölkədə yeni istehsal seqmentlərinin formalaşması, daxili bazarın tələbatının ödənilməsi və əlavə dəyər yaradan məhsulların ixracı xüsusi diqqət çəkib.



Sənaye zonalarının iqtisadi uğurlarının təməlində iş adamlarına yaradılan əlverişli biznes mühiti və dövlət dəstəyi kimi mühüm bir amil dayanması, hökumət tərəfindən həyata keçirilən güzəştlər paketinin investorlarda böyük maraq doğurması bir tərəfdən sahibkarlıq subyektlərinin maliyyə yükünü azaldır, digər tərəfdən isə müasir istehsal texnologiyalarının ölkəyə gətirilməsinə stimul yaradır. Bunun nəticəsində isə rəqabətqabiliyyətli məhsul istehsalı və ixrac potensialının artırılması gerçəkləşir.

Sənaye zonalarının iqtisadi faydalarından biri də regionlarda yeni iş yerlərinin yaradılması və investisiya axınının stimullaşdırılmasıdır. Təkcə Sumqayıt Kimya Sənaye Parkında indiyədək milyardlarla manat həcmində sərmayə yatırılıb və minlərlə daimi iş yeri yaradılıb. Eyni zamanda, Neftçala və Masallı kimi regionlarda sənaye məhəllələrinin fəaliyyəti ilə yerli əhalinin məşğulluq imkanları genişlənib, sosial rifah səviyyəsi yüksəlib.

Sözügedən sahədə fəaliyyət göstərən müəssisələr tərəfindən istehsal edilən məhsulların bir qismi hazırda Avropa və Asiya bazarlarına ixrac olunur. Bu, həm daxili məhsul strukturunun keyfiyyətini artırır, həm də Azərbaycanın dünya bazarlarında rəqabət qabiliyyətini gücləndirir. Sənaye zonalarının rezidentləri tərəfindən ixrac olunan məhsullar yüksək keyfiyyəti, beynəlxalq standartlara uyğunluğu və innovativliyi ilə diqqət çəkir. Burada onu qeyd etmək lazımdır ki, qeyri-neft sənayesi məhsullarının ixracının artması ölkənin tədiyə balansına da müsbət təsir göstərir, valyuta gəlirlərini artırır və milli iqtisadiyyatın xarici şoklara qarşı dayanıqlığını gücləndirir.

Hazırda Azərbaycanda sənaye zonaları coğrafiyasının daha da genişləndirilməsini, yeni sahələr üzrə ixtisaslaşmanı gerçəkləşdirilməsini və innovativ texnologiyalar əsasında istehsal sahələrinin yaradılmasını sürətləndirmək istiqamətində uğurlu addımlar atılır. Eyni zamanda, “yaşıl” enerji konsepsiyasına uyğun olaraq sənaye zonalarında alternativ enerji mənbələrinin tətbiqi ilə bağlı layihələr də reallaşdırılır. Bununla da həm ekoloji davamlılıq, həm də istehsalat səmərəliliyinin artırılması reallaşır.

Növbəti mərhələdə Azərbaycanın sənaye zonalarının beynəlxalq əməkdaşlıq platformalarına inteqrasiyası, xarici investisiya cəlbediciliyinin artırılması və regionlararası iqtisadi əlaqələrin genişləndirilməsi də prioritet istiqamətlərdən olacaq. Xüsusilə Çin, Türkiyə, Mərkəzi Asiya və Avropa ölkələri ilə sənaye əməkdaşlığı çərçivəsində yeni sinerji imkanları formalaşacaq.

Sənaye zonalarının təşkili və inkişafı Azərbaycanın qeyri-neft sektorunun transformasiyasında mühüm mərhələdir. Bu zonalar vasitəsilə ölkədə innovasiyaya əsaslanan, yüksək əlavə dəyər yaradan sənaye infrastrukturu qurulur. Dövlətin ardıcıl dəstəyi, əlverişli vergi və gömrük güzəştləri, geniş investisiya imkanları sənaye zonalarını sahibkarlar üçün cəlbedici edir. Bütün bu layihələr nəticəsində sənaye zonaları təkcə iqtisadi artıma deyil, həm də sosial rifaha, regionların inkişafına və ölkənin ümumi rəqabətqabiliyyətinin yüksəldilməsinə töhfə verir.

Azərbaycanın sənayeləşmə siyasətinin bu istiqamətdə davam etdirilməsi ölkəni yaxın gələcəkdə regional sənaye mərkəzinə çevirmək potensialına malikdir. Bu isə iqtisadi müstəqilliyin daha da möhkəmlənməsi və davamlı inkişafın təmin olunması baxımından əhəmiyyətli bir hədəfdir.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Gəncə yeniləşir, biz də dəyişək…

*MDB Oyunları ərəfəsində qədim şəhərin gənclik nəfəsi*

**Gəncə dəyişir. Təkcə parkları, yolları, binaları, idman qurğuları, kommunikasiya xətləri yox – şəhərin özü, nəfəsi, ruhu dəyişir. Və bu dəyişimin içində biz varıq. Sakinlər, qonaqlar, şəhərin sabahını düşünənlər, bu şəhərə xidmət edənlər, Gəncəni sevənlər…**




## Stadiondan gələn səda – yeniləşmənin rəmzi

Yolumuzu bu səhər yenə Gəncədən saldıq...Küçələr boyu düzülən səliqəli bordürlər, təzə asfaltın parıltısı, fəvvarələrin səsi, parkların nəfəsi, stadionun içərisində və ətrafında işləyən texnika, insanlar – bu sadəcə mənzərə deyil, bu, hazırlığın səsidir. İndi şəhərə hansısa bir qonaq gəlsə, mütləq "bu şəhər nəyəsə hazırlaşır" deyəcək. Çünki Gəncə bu gün böyük bir hadisənin ərəfəsindədir. Azərbaycan üçün strateji, Gəncə üçün isə tarixi əhəmiyyət daşıyan hadisənin. Bəli, Nizami yurdu Üçüncü MDB Oyunlarına ev sahibliyi etməyə hazırlaşır.

Uzaqdan, şəhər stadionu tərəfdən səs gəlir. Bu, təkcə texniki avadanlığın gurultusu deyil. Burda zəhmət var, həyəcan var, sabahın əminliyi var. III MDB Oyunlarının əsas mərasimlərinin keçiriləcəyi Gəncə şəhər stadionu əsaslı şəkildə təmir olunur, tamamilə yenidən inşa edilir. Oturacaqlar, tribunalar, işıqlandırma, ot örtüyü – hər şey beynəlxalq standartlara uyğunlaşdırılır. Əmək briqadaları üç növbəli iş rejimində çalışır.

"Bu stadionda sabah Avropa səviyyəsində yarış olacaq", – deyə fəhlələrdən biri alnının tərini əli ilə silərək fəxrlə bildirir. Bu gün çəkilən zəhmət sabahın uğuruna yazılır. Hər daşın yerinə qoyulması, hər boltun bərkidilməsi, sadəcə, texniki iş deyil – bu, bir missiyanın yerinə yetirilməsidir. İdman infrastrukturunun yenilənməsi təkcə oyunlar üçün yox, şəhərin gələcək idman siyasəti üçün də təməl təşkil edir.

Bu stadionda bir zamanlar Azərbaycanın futbol əfsanələri addımlayıb, indi isə burada yeni nəsil yetişəcək. MDB Oyunları qurtaracaq, amma stadiona uşaqlar, gənclər, klublar gələcək, məşq edəcək, yarışacaq, ruh qazanacaq. Hər daş, hər kərpic yeni nəfəsin, yeni ruhun nişanəsidir. Mühəndislər yalnız idman obyektini yox, bir şəhərin imicini bərpa edirlər. Hətta xarici ekspertlər bu cür tikinti tempi və texniki keyfiyyətə heyran qalıblar.

"Gəncə stadionu artıq təkcə idman obyekti deyil – bu, şəhərin fəxarət rəmzinə çevrilir. Çünki burada təkcə tikinti yox, ideya inşa olunur". Bu fikirləri də "Kəpəz" futbol klubunun icraçı direktoru İlqar Nadiri dedi.

"Kəpəz" stadionu beynəlxalq standartlara uyğunlaşdırılır. Hazırda burada son tamamlama işləri gedir. Avropa standartlarına tam uyğun nəhəng bir idman qurğusu ölkə başçımızın gəncəlilərə gözəl bir hədiyyəsidir. Əvvəlki stadion nə gündəydi, heç bu barədə danışmağa dəyməz. İndi burada həm MDB İdman Oyunlarının açılışı olacaq, həm də idman yarışlarının bağlanışı bu stadionda keçiriləcəkdir. Gəncənin siması təkcə gözəlləşmir, həm də ciddiləşir.

Dövlət rəhbərliyi öz üzərinə düşəni edir: Prezident İlham Əliyevin Gəncəyə göstərdiyi diqqət və həyata keçirdiyi layihələr bunun bariz nümunəsidir. Lakin bu siyasətin dərin qatında vətəndaşın tərbiyəsi, şəhər mədəniyyətinin yüksəldilməsi, ictimai davranışın inkişafı dayanmalıdır. Bir anlıq gəlin yaxşı-yaxşı düşünək. MDB Oyunları gələcək və keçəcək. Qonaqlar



gedəcək, tribunalar boşalacaq, alqışlar səngiyəcək. Amma şəhər qalacaq. Bu şəhərin havası, insanı, həyatı yenə öz axarında davam edəcək. Onda sual budur: bu dəyişiklik tədbir üçündür, yoxsa gələcək üçün? Əgər bu dəyişiklik planlıdırsa, davamlıdırsa, dəyərlərə əsaslanırsa — deməli, Gəncə doğrudan da dəyişir. Və bu dəyişiklik yalnız tikinti deyil. Bu, dəyərlərin, baxışların, münasibətlərin, vətəndaş məsuliyyətinin dəyişməsidir. …

... Hazırda şəhərdə aparılan genişmiqyaslı hazırlıq işlərinin mərkəzində dayanan əsas məkanlardan biri də Gəncə İdman Sarayıdır. Şəhərin idman həyatına ev sahibliyi edən bu obyekt indi yeni nəfəs, yeni görkəm, yeni funksionallıqla beynəlxalq səviyyədə qəbul olunan idman kompleksinə çevrilməkdədir.

Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramovun son günlərdə sarayda aparılan yenidənqurma və təmir işləri ilə yerində tanış olması bu istiqamətdə görülən işlərin nə qədər yüksək səviyyədə aparıldığını göstərdi. Şəhər rəhbərliyi bu tədbirə yalnız idman baxımından deyil, həm də Gəncənin beynəlxalq nüfuzunun artması baxımından yanaşır.

İdman Sarayında yarışların keçirilməsi üçün müvafiq zonalar ayrılıb: idmançılar üçün qarderob və hazırlıq zonaları, mətbuat üçün iş otaqları, VIP və qonaq zalları, hakimlər üçün xüsusi yerlər, eləcə də müasir standartlara cavab verən tamaşaçı tribunaları artıq istifadəyə tam hazırdır. Üzgüçülük hovuzları, istirahət və reabilitasiya guşələri, idman zalı və digər köməkçi sahələr də beynəlxalq standartlara uyğunlaşdırılıb. Bu kompleks yalnız idmançıları deyil, həm də şəhərə gələcək çoxsaylı turist və media nümayəndələrini qəbul etmək iqtidarındadır.

## Şəhər yeniləşir, sakin də dəyişir

MDB Oyunları Gəncə üçün təkcə idman tədbiri deyil – bu, mədəni sıçrayışdır. Şəhər hamının gözü qarşısında, hər gün, hər saat dəyişir. Ən əsas dəyişiklik isə insanın özündə baş verir. Təmiz səkidə gəzmək, işıqlı küçədə addımlamaq insanı da işıqlandırır. Gəncə şəhəri indi öz sakinini dəyişməyə başlayıb. Bu da inkişafın əsl göstəricisidir. Yeni salınan yaşıllıqlar, abadlaşdırılan parklar, müasir işıqlandırma sistemi şəhərin nəfəsini dəyişib. Gəncədə "gecə həyatı" artıq təhlükəsiz və rahat şəkildə yaşanır – sakinlər axşamlar ailəvi olaraq şəhərə çıxır, gəzinti edir, musiqi dinləyir. Bu isə artıq həyat tərzinin dəyişməsidir.

Heydər Əliyev Parkı, Xan Bağı, park və prospektlər, yollar, binalar Cavad xan heykəli meydanı - hər biri bu tədbirə yeni görkəmdə daxil olur. Gəncənin siması təkcə gözəlləşmir, həm də ciddiləşir. Təbii ki, hamısını birdən eləmək mümkün olmur. Məsələn, şəhərin bəzi əraziləri hələ də bu yenilənmədən kənarda qalıb. Torpaq yollar, natamam kanalizasiya sistemi, köhnə dirəklər, səliqəsiz səkilər...Gəncənin bir başqa üzü də bax, budur. Unutmamalıyıq ki, şəhərin mərkəzi və kənarı arasında fərq olmamalıdır. Əsl inkişaf yalnız kompleks yanaşma ilə mümkündür. Şəhəri abadlaşdırmaq – dövlətin, icra strukturlarının, bələdiyyənin işi ola bilər. Amma onu qorumaq, yaşatmaq, sevmək vətəndaşın borcudur. Əgər yeni asfaltın üzərinə zibil atılırsa, qazılırsa, səkilər avtomobil üçün işğal olunursa, oturacaqlar sındırılırsa, hasarlar yazılırsa, bu, təkcə mədəniyyətsizlik deyil, həm də biganəlikdir, bu müqəddəs şəhərə, Ulu Nizaminin ruhu dolaşan şəhərə hörmətsizlikdir.

## Prezidentin qayğısı – yeniləşmənin dayağı

Niyazi müəllim deyir ki, "bu inkişafın arxasında siyasi iradə, dövlət qayğısı, xüsusilə Prezident İlham Əliyevin Gəncəyə verdiyi dəyər dayanır. Dövlət başçısının bu



şəhərə göstərdiyi diqqət təkcə infrastrukturla məhdudlaşmır – bu, təşəbbüslərə açılan qapı, xalqın etimadına cavab deməkdir. MDB Oyunlarının əsas mərhələsinin Gəncəyə verilməsi də birbaşa siyasi güvənin təzahürüdür.

Bu qərar Gəncənin gələcəyinə verilmiş böyük səlahiyyət və məsuliyyətdir. Əgər Gəncə dəyişirsə, bu dəyişimin təməlində dövlətin iradəsi var.

Cənab Prezidentin dəfələrlə Gəncəyə səfəri zamanı verdiyi tapşırıqlar bu gün öz bəhrəsini verir. Təkcə mərkəzi küçələr yox, ən ucqar məhəllə yolları da təmir edilir. Yeni təhsil və səhiyyə müəssisələri tikilir. İctimaiyyətin hər təbəqəsi bu diqqəti hiss edir – təqaüdçü də, tələbə də, kiçik sahibkar da.

Gəncədə keçirilən oyunlar, beynəlxalq forumlar, sərgilər və konfranslar birbaşa dövlət siyasətinin tərkib hissəsidir. Prezidentimizin idmana, mədəniyyətə, regionların inkişafına ayırdığı diqqət Gəncədə konkret nəticələr verir".

Şəhər rəhbərinin dediyi sözlərdə böyük bir həqiqət var. Çünki bu proses bir şəhəri deyil, bütöv bir bölgəni hərəkətə gətirib. Gəncənin simasında bütün Qərb bölgəsi ayağa qalxıb. Artıq bu regiona sərmayə gəlir, turist axını artır.

## Keçmişin səsi – kəhrizlər kimi səssiz, dərin

Gəncənin bugünkü dəyişimi əbəs yerə başlamayıb. Bu şəhərin altında axan kəhrizlər hələ yüzillər əvvəl bizə nəyi necə etməyi öyrədib. Səssiz axıblar, amma hər evə su çatdırıblar. Elə bugünkü yenilənmələr də səssiz, amma təsirli şəkildə gedir. Keçmişin təməli üzərində qurulan gələcək. Budur Gəncənin bugünkü missiyası!

Qədim abidələr bərpa olunur, tarix qorunur, müasirliklə qovuşur. Bu şəhərin altı tarixdir, üstü gələcək...

Kəhrizlər Gəncə tarixinin susan şahidləridir. Hər biri bir mədəniyyət qatıdır. Bu gün mütəxəssislər onların bərpası ilə yanaşı, yeni turizm marşrutları barədə də düşünürlər. Gələcəkdə bu gizli sular şəhərin yeni brendinə çevrilə bilər. Yeri gəlmişkən, qəzetimizin yaxın nömrələrinin birində Gəncə kəhrizləri və onların bugünkü vəziyyəti barədə geniş yazı verəcəyik.

Gəncənin muzeylərində, memarlıq komplekslərində aparılan bərpa işləri də bu keçmişin dirçəlişidir. Hər daş, hər dirək, hər kitabə – öz sözünü deyir. Tarixsiz gələcək olmaz.

Bu şəhərin ruhu qədimliyin içindən gəlir, müasirliklə qoşa addımlayır. Əgər şəhər nəfəs alırsa, bu nəfəs altında axan kəhrizlərdədir.

## Gəncə, bizi dəyiş, biz də səni...

İndi Gəncəyə gələn hər kəs burada bir təravət, bir ruh yeniliyi hiss edir. Artıq bu şəhər təkcə görmək üçün yox, daxilən dəyişmək üçün bir yerə çevrilib. III MDB Oyunlarının maskotları Leyla və Bəbir şəhərin simvolik təcəssümüdür: biri zəkadır, mədəniyyətdir, digəri gücdür, iradədir.




Onlar artıq Gəncə ilə sinonimə çevrilib. Şəhərin hər yerində bu iki obrazın şəkilləri, fiqurları və təbəssümü var. Leyla – Azərbaycan qadınının zəkasını, zərifliyini, ruhunu simvolizə edir. Onun gülümsəməsində millətimizin qonaqpərvərliyi, geyimində klassika ilə müasirliyin harmoniyası, duruşunda isə bir ev sahibinin inamı var.

Bəbir isə dağlardan enmiş qürur və çeviklikdir. O, fiziki gücü, idman əzmini, Azərbaycan təbiətinin və gəncliyinin vəhdətini ifadə edir. Onlar birlikdə – qadın zəkası və kişi enerjisinin sintezi, sülhün və əməkdaşlığın çağırışıdır.

Bu maskotlar Gəncənin yeni brendinə çevrilib. Hələlik onların plakatları, şəkilləri çox yerdə olmasa da, bir azdan stadionları bəzəyəcək, suvenirlərə köçürüləcək və şəhərin yaddaşına həkk olunacaq. Gəncə təkcə daşla, asfaltla yox, həm də obrazlarla dəyişir.

Gəncə yenidən doğulub. Amma bu doğuluş təkcə şəhər üçün deyil, həm də bizim üçündür. Gəlin, bu dəyişimin bir parçası olaq. Çünki şəhər dəyişirsə, biz də dəyişməliyik…

Şəhərin simasında hər birimiz özümüzü tapmalıyıq. Bu şəhərin təmizliyi, qaydası, rəngi – bizim daxili dünyamızın aynasıdır. Səssizcə dəyişən küçələr, ucalan yeni abidələr, yaşıllıqlara boyanan prospektlər... Bu mənzərə yalnız memarların deyil, düşünən insanların da əsəridir.

Artıq Gəncə təkcə Gəncə sakinlərinin deyil, bu, regionun, Azərbaycanın, hətta MDB-nin diqqət mərkəzində olan mədəniyyət və idman şəhərinə çevrilir. Burada olmaq həm məsuliyyətdir, həm qürur.

Gəlin, Gəncəyə sahib çıxaq. Dəyişən şəhəri izləməyək, onunla birgə dəyişək.

***Hm let QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**



*Milli Arxiv İdarəsi – 105*

# Mötəbər tarixi həqiqətlər məbədi

**(əvvəli ötən saylarımızda)**



Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 avqust 2022-ci il tarixli 544s nömrəli sərəncamından irəli gələn tapşırıqlara uyğun olaraq Milli Arxiv İdarəsinin Kollegiyasının qərarları ilə təsdiq edilmiş "Hüquqi şəxsin, xarici hüquqi şəxsin nümayəndəlik və filialının və onun ləğvi ilə bağlı yaradılmış ləğvetmə komissiyasının fəaliyyəti nəticəsində yaranmış arxiv sənədlərinin dövlət arxiv xidməti təşkilatlarına təhvil verilməsinə dair Arayışın Forması" və "Ödənişli arxiv xidmətləri göstərilməsinə dair Müqavilə"si Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilmişdir.

Milli arxiv fonduna məxsus elektron sənədlərin dövlət mühafizəsinə qəbulu, onların istifadəsi və arxiv fondu sənədlərinin rəqəmsallaşdırılması sahəsindəki fəaliyyətin tənzimlənməsi məqsədilə aidiyyəti dövlət qurumları ilə razılaşdırılaraq hazırlanmış layihə Azərbaycan Respublikasının Nazrlər Kabinetinin 2024-cü il 9 fevral tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmişdir.

"Milli arxiv fonduna məxsus elektron sənədlərin daimi dövlət mühafizəsinə qəbulu, mühafizəsi, istifadəsi və arxiv sənədlərinin rəqəmsallaşdırılması Qaydaları"ı dövlət mühafizəsində olan arxiv fondu sənədlərinin rəqəmsallaşdırılması, İKT tətbiq etməklə arxiv işinin modernləşdirilməsi, arxiv məlumatlarının axtarışı və istifadəsinin səmərəliliyinin artırılması, əlçatanlığın təmin edilməsi məqsədilə Elektron arxiv informasiya sisteminin formalaşdırılması sahəsindəki fəaliyyətin tənzimlənməsində xüsusi əhəmiyyəti ilə seçilən hüquqi aktdır.

Son illərdə dövlət arxivlərinin yeni texnoloji nailiyyətlər əsasında infrastrukturunun yenilənməsi, optik avadanlıqların, proqram təminatlarının alınması, optik rabitə kanalları, müşahidə kameraları ilə təchizatı, istifadədə olan informasiya sistemlərinin kiber müdaxilələrdən qorunması üçün təhlükəsizlik mexanizmlərinin qurulması təmin edilmişdir.

Arxiv fondu sənədlərinin etibarlı mühafizəsi və səməri istifadəsinin təmin edilməsi məqsədilə dövlət mühafizəsində olan elmi-tarixi baxımdan əhmiyyətli və daha intensiv istifadə edilən arxiv fondu sənədlərinin tədricən planlı şəkildə rəqəmsal nüsxələrinin yaradılmasına, onların müvafiq informasiya sistemində qeydiyyatının aparılmasına başlanılıb.

Dövlət mühafizəsində olan on mindən artıq arxiv fondu haqqında ilkin axtarış məlumatlarının, o cümlədən dövlət arxivlərinin elmi məlumat vasitələri olan arxiv siyahıları, audiovizual və çap materiallarının kataloq vərəqləri üzrə soraq-axtarış məlumatların elektron bazası yaradılması təmin edilib. Milli Arxiv İdarəsi və dövlət arxiv xidməti təşkilatlarının xarici ölkələrin arxiv təşkilatları ilə eləcə də sahə üzrə ixtisaslaşmış beynəlxalq təşkilatlarla əməkdaşlıq əlaqələri genişlənib.

Milli Arxiv İdarəsi ilə ayrı-ayrı ölkələrin arxiv təşkilatları arasında əməkdaşlığa dair sazişlər imzalanıb. Hazırda xarici ölkələrin arxivlərində saxlanılan Azərbaycanla bağlı sənədlər aşkar edilərək siyahıları hazırlanır, bir sıra ölkələrin (Türkiyə, Rusiya, Qazaxıstan) arxivlərində saxlanılan ölkəmizlə bağlı sənədlərin elektron surətləri gətirilərək aidiyyəti dövlət arxivlərində qeydiyyata alınması təmin edilmişdir.

Dövlət arxiv xidməti təşkilatlarının maddi-texniki təchizatının yaxşılaşdırılması, isitmə-soyutma və havalandırma sistemlərinin əsaslı şəkildə yenidən qurulması, Dövlət Arxivinin Şirvan, Şəmkir, Quba, Şamaxı filiallarında əsaslı təmir işləri həyata keçirilmişdir. Dövlət Arxivinin Mərkəzi Laboratoriyasının istehsalat və əmək şəraitinin daha da yaxşılaşdırılması, Sumqayıt filialı üçün yeni uyğun bina təmin edilməsi işləri həyata keçirilir. Yerli icra hakimiyyəti orqanları ilə birlikdə aparılan işlər nəticəsində bir sıra rayon dövlət arxivlərinin (Xaçmaz, Balakən, Zaqatala, İsmayıllı, Cəlilabad, Qusar, Şabran, Samux, Kürdəmir, Xocalı, Xızı və s.) daha uyğun binalara köçürülməsi ya onlara əlavə otaqların verilməsi təmin olunmuşdur.

Hazırda Dövlət arxiv xidməti sisteminə Milli Arxiv İdarəsi və tabeliyində 6 dövlət arxivi, Dövlət Arxivinin 15 filialı, 50 rayon (şəhər) dövlət arxivi, Naxçıvan MR Dövlət Arxiv İdarəsi və onun tabeliyindəki dövlət arxivləri daxildir. Respublikamızın dövlət arxivlərində 300 illik tarixi dövrü əhatə edən 15 mindən artıq arxiv fondu, 3 milyondan artıq kağız əsaslı saxlama vahidi, 450 mindən çox kino-foto-fono sənəd, 42583 çap məhsulu (kitab, jurnal, qəzet) mühafizə olunur. Dövlət arxivlərinin qarşısında duran vəzifələrin məzmunu zamanla dəyişir, onun elmi və ictimai əhəmiyyəti artır.

Dövlət arxivləri artıq milli-mənəvi dəyərlərin qorunmasına, ictimai fikrin, milli şüurun, vətəndaş cəmiyyətinin formalaşmasına, mədəniyyətin tərəqqisinə, hüquqi dövlət quruculuğuna böyük töhfələr verən sosial institutlara, peşəkar kadrların işlədiyi elmi-tədqiqat müəssisələrinə çevrilir. Dövlət arxivləri elmi-tədqiqat xarakterli materiallar hazırlayır, arxiv sənədlərindən elmin, mədəniyyətin, iqtisadiyyatın müxtəlif sahələrinin inkişafında geniş istifadə edilir. Arxivlər vətəndaşların sosial hüquqlarının müdafiəsini təmin edir, idarəetmədə zəruri qərarların qəbul üçün retrospektiv məlumatları dövlət orqanlarına təqdim edir, cəmiyyətin sənədlər əsasında maarifləndirilməsi ilə bağlı mədəni tədbirlər həyata keçirir, insanların keçmişlə bağlı biliklərinin əldə edilməsinə xidmət göstərir, habelə dövlətin rəsmi sənədlərinin mühafizəsini təmin etməklə zəngin informasiya resurslarını formalaşdırır.

Milli arxiv fondu xalqımızın maddi və mənəvi həyatını əks etdirən, tarixi, elmi, iqtisadi, siyasi, sosial və mədəni dəyəri olan, Azərbaycan xalqının mədəni irsinin ayrılmaz hissəsi hesab edilən sənədlərin məcmusu olaraq hər gün yeni sənədlərlə zənginləşir. Azərbaycan Respublikasının konstitusiya quruluşunun dəyişməsi, iqtisadi islahatlarla bağlı müəssisələrin mülkiyyət formalarının dəyişməsi, yenilərin yaranması, bir qisminin ləğv olunması Milli arxiv fonduna daxil olan sənədlərin kəmiyyət baxımdan həcminin artmasına səbəb olduğu kimi, həm də onun məzmun etibarilə keyfiyyətini artırmışdır.

Hazırda dövlət arxivlərimizdə mühafizə olunan Milli arxiv fondu sənədlərinin strukturunda idarəçilik sənədlərinin həcmi ümumi sənədlərin, təxminən, 75 faizini təşkil edir (digər 25 faizi isə elmi-texniki, şəxsi mənşəli, kino, foto və fono sənədlərdir). İdarəetmə prosesində yaranan sənədlərin tarixi-ictimai əhəmiyyəti həm də onların sosial həyatdakı fakt və hadisələri tam və dolğun əks etdirməsi ilə ölçülür.

Cəmiyyətin inkişaf dinamikasının konsentrasiya olunmuş şəkildə idarəçilik sənədlərində əks olunması nəzərə alınaraq, bu növ sənədlərin daimi dövlət mühafizəsinə qəbuluna xüsusi diqqət verilir. İdarəcilik sənədlərinin tərkibinə cəmiyyətin inkişafına yönələn, bu inkişafa nail olunmasını təmin edən, əldə olunmuş nailiyyətlərin uçotunu aparan, yeni vəzifələri müəyyənləşdirən, iqtisadi, siyasi, hüquqi, mədəni münasibətlər sistemini formalaşdıran sənədlər kompleksi daxil edilir.

Dövlət arxivlərində vətən tarixinin ilkin mənbələr əsasında öyrənilməsində müstəsna əhəmiyyət kəsb edən minlərlə fond və yüz minlərlə sənəd saxlanılır. Onlara xanlıqlar dövründə verilmiş fərmanlar, XIX əsrin əvvəllərində Rusiya imperiyasının yerli dövlət idarələrində yaranan Azərbaycanın siyasi, iqtisadi, mədəni, həyatından bəhs edən sənədlər, tarixi "Kürəkçay", "Gülüstan", "Türkmənçay" müqavilələrinin nüsxələri, təhsil, səhiyyə sahələrində aparılan işlər, neft sənayesi, şəhərsalma, faydalı qazıntı məhsullarının kəşfi, milli zəmində baş vermiş münaqişələr, Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin, parlamentin, ayrı-ayrı nazirliklərin fəaliyyətinə dair qiymətli sənədlər, deportasiya, soyqırım, tarixləri ilə bağlı komissiyaların sənədləri, Azərbaycanda sovet quruculuğu, kollektivləşdirmə, mədəni inqilab, sənayenin, kənd təsərrüfatının inkişafı, elm, təhsil, səhiyyə sahələrindəki tərəqqi, ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin müxtəlif dövlət tədbirlərində, sənaye, sosial və hərbi obyektlərin açılışı mərasimlərində, xarici ölkələrə səfərlərində, müxtəlif dövlətlərin rəhbərləri, diplomatik korpusların nümayəndələri ilə görüşlərində və digər tədbirlərdə lentə alınmış kino-foto-fono sənədlər, o cümlədən görkəmli dövlət, elm, mədəniyyət, incəsənət xadimlərinin yüzlərlə şəxsi fondları daxildir.

Arxivlərdə uzun illər məxfi qriflə saxlanılan və istifadəyə qapalı olan sənədlərin üzərindən müstəqillik illərində məxfilik qrifinin götürülməsi tədqiqatçı-alimlərimizin arxiv sənədlərindən istifadəyə marağını daha da artırmış və arxiv sənədləri əsasında aparılan elmi-tədqiqatların həcmi əhəmiyyətli dərəcədə çoxalmışdır. Dövlət arxivləri, elm adamları tərəfindən xalqımızın keçmişi ilə bağlı tarixi sənədlərindən, arxiv materiallardan istifadə etməklə elmi dövriyyəyə yüzlərlə yeni sənəd gətirilmişdir.

Dövlət arxivləri hər il on minlərlə Azərbaycan və xarici ölkə vətəndaşlarından daxil olan sosial-hüquq xarakterli sorğuları icra etməklə onların qanuni hüquq və maraqlarının təmin olunmasında iştirak edir, əhalinin keçmişlə bağlı informasiyaya olan tələbatını ödəyirlər. Dövlət arxivləri və arxivçilər tarixi həqiqətləri təhrif edən, millətçilik ideyaları yaymaqla özlərinə saxta tarix yaradanların qarşısına tutarlı faktlar, sübutlar qoymaqla bu müqəddəs işdə öz məsuliyyətlərini aydın başa düşür və Vətən tarixinin keşiyində şərəflə dururlar.

***Əsgər RƏSULOV,***
***Milli Arxiv İdarəsinin rəisi,***
***Həsən HƏSƏNOV,***
***rəis müavini***

*Milli kimlik qaynaqlarımız*

# Türkmən bəyliklərində törə və ənənələr

**Milli kimlik qaynaqlarımızın dərindən araşdırılması və xalqımıza, eləcə də dünya ictimaiyyətinə çatdırılması zərirəti XIII əsrin ortalarında monqolların yayılması ilə əlaqədar Asiyanın içərilərindən Anadoluya köç edən oğuz boylarının yaratdıqları Türkmən bəyliklərinin tarixinin, törə və ənənələrinin də öyrənilməsini aktuallaşdırıb.**

**Müdrik söhbətləri, dəmir məntiqi, hətta incə zarafatları və oturuşu-duruşu ilə də bizləri daimədəbiyyatımızın, mədəniyyətimizin dərin qatlarına nüfuz etməyə, tariximizin qaranlıq səhifələrini aydınlatmağa, xüsusən bu mövzunun araşdırılmasına həvəsləndirmiş tələbəlik dostum İlham Abbasov 1 il əvvəl dünyasını dəyişib əbədiyyətə qovuşub. Mərhumun xatirəsini dərin ehtiramla yad etdiyimiz bir vaxtda bu yazının onun uzun illər çalışdığı "Xalq qəzeti"ndə çap edilməsi unudulmaz azərbaycanşünas-publisistin ruhunu şad edəcək.**



**Türkmən bəyliklərini XIII əsrin ortalarında monqolların yayılması ilə əlaqədar Asiyanın içərilərindən Anadoluya köç edən oğuz boyları yaratmışdılar. Onların dövlət quruluşu da başlanğıcda aşirət (tayfa və qəbilə) təşkilatından ibarət idi.**

Türkmənlər ucsuz-bucaqsız bozqırlarda köçəri ömür sürmüş babalarından miras aldıqları təsisatları yeni yurdlarında da (oturaqlaşdıqdan sonra belə!) yaşadırdılar. Obalar bəyliklərin hakimiyyət nümayəndələrindən daha çox boy bəylərinin hökmünə baş əyir, aşirət rəislərinin dediyi ilə oturub-dururdu. Aşirətlər bir-birinə qan qohumluğu ilə bağlanan müxtəlif ailə, nəsil və tirələrin birləşməsindən əmələ gəlir, bu kiçik vahidlərin hər birinin başçısı "bəy" adlanırdı. Anadolu bəyliklərinin başında isə "ulu(q) bəy" dururdu.

Göytürklərdən etibarən türk əsilzadələri arasında "bəy" ünvanı həmişə işlənmişdi (Qaraxanilərdə "Bəybörü", "Bəybars" və s.). Türkmən bəylikləri də, adından göründüyü kimi, bəy əsaslı dövlətlər olub, bir və ya bir neçə bəyin iyerarxiya nərdivanı şəklində fəaliyyət göstərir, ailə, nəsil, elat bəylərinin qarşılıqlı münasibətləri şaqulu bağlılıqla şərtlənirdi.

"Tarix boyunca köçəri həyat və quruluş tərzi olan aşirət və qəbilələrin klassik dövlətlərə alternativ (antiteza) təşkil etməsinə", "köçəriliyin dövlətin təbiətinə zidd olmasına" (Yəhya Başkan), habelə Anadolu bəyliklərinin özlərini Səlcuqilərin (Qərbi və Mərkəzi Anadoluda) və Hülakuların (Şərqi Anadoluda) hüquqi-siyasi varisləri saymasına baxmayaraq, türkmənlərin köçəri ənənələrini yüzillər boyunca qoruyub saxlaması onların xarakterik milli-etnik xüsusiyyəti kimi qiymətləndirilə bilər.

Hətta Qərb müəlliflərindən Con Vuds Ağqoyunluların köçəri həyat tərzini bir prinsip səviyyəsinə gətirərək, məxsusi "köçərilik ideologiyası" yaratdıqlarını qeyd edir. Onun fikrincə, bu ideologiya oğuz törəsi, türklük və sərbəstlik (müstəqillik) mənası daşımışdır ki, bu da türkmənlərin qədim dünyagörüşündən irəli gəlirdi. Təsadüfi deyil ki, Qara Yülük Osman öz "Öyüdnamə"sində Ağqoyunluların gücünün əsasını köçəriliyə bağlılıqda görmüş, oturaq həyatın türklüyə və azadlığa (müstəqilliyə, özgürlüyə) zərər verəcəyini vurğulamışdır. Bu fikir heç də yeni deyildi.

İbrahim Qəfəsoğlunun qeyd etdiyi kimi, Göytürklər dövründə köçəri həyat tərzindən üz çevirmənin, şəhərlərə qapanmanın türklərə xeyir gətirməyəcəyini Bilgə Tonyukuk da söyləmişdi. Qara Yülük Osman konfederasiyada nizamın qorunub saxlanılması üçün onlu sistemin ən optimal quruluş olduğunu da bildirirdi. Bu da türklərin ordu-millət xarakterindən doğan bir sistem idi və təkcə hərbi deyil, eyni zamanda sosial-siyasi önəm daşıyırdı.

Məlumdur ki, Ağqoyunlu eli (boyları) onlu sistemə əsasən, onbaşıya, yüzbaşıya, minbaşıya, onminbaşıya (tümənbaşı) bağlı vahidlər kimi təşkilatlanmışdı. Elxanilərin süqutundan sonra Anadolu, Azərbaycan, Suriya, İraq ərazilərində heç bir dövlətə bağlanmaq istəməyən türkmən aşirətləri az deyildi. Onlar bəyliklərə biat etmir, azad və sərbəst yaşayır, həyat və düşüncə tərzlərini qoruyurdular.

Yeddicildlik "Azərbaycan tarixi"ndə qeyd olunduğu kimi, XIV əsrin sonlarına doğru Azərbaycanın bir çox ərazilərində köçəri tayfaların nüfuzu artmış və siyasi dominantlıq onların əlinə keçmişdi. Əlbəttə ki, bəylər bu aşirətləri öz tərəflərinə çəkmək istəyir, onlarla əməkdaşlığa çalışır, bəzən ittifaqa girir, güclərinə güc qatırdılar. Köçəri türkmənlər həm döyüşdə, həm də heyvandarlıq və toxuculuqda məharətli idilər.

Seyfəddin Ərşahin Ağqoyunlu Qara Yülük Osmanın türkmən (köçəri) prinsiplərinə dəyər verməsini, haqlı olaraq, onun müstəqil türkmən aşirətlərini öz konfederasiyasına cəlb etmək üçün göstərdiyi səylərlə əlaqələndirir. Bu fikri Qərbdə, Şərqdə yaranmasından asılı olmayaraq bütün Anadolu bəylikləri üçün səciyyəvi saymaq mümkündür. Onların hamısı azad aşirətləri özlərinə bağlamaqdan ötrü köçərilik prinsiplərinə anlayış göstərər, törə ilə hesablaşır, köçərilərin maddi və mənəvi ehtiyaclarını təmin etməyə çalışır, onlara imtiyazlar verir və əlbəttə ki, onların təbəəçiliyini qazanmaq uğrunda bir-birləri ilə mübarizə aparırdılar.

Bəyin gücü ona biat edən aşirətlərin sayı və sambalı ilə ölçülürdü. Əmir Teymura və onun varislərinə qarşı qeyri-bərabər mübarizədə Qaraqoyunlu bəylərinin (Qara Yusif, Qara İskəndər) siyasi və hərbi üstünlüyünün ana qaynağı onların türkmən aşirətlərini vahid mərkəzdə birləşdirmələri və idarə etmələri olmuşdu. Amma onu da yaddan çıxarmaq olmaz ki, tayfa maraqlarının konfederasiya (dövlət) mənafelərinin fövqünə yüksəldilməsi ulu bəyləri aşirət rəislərindən asılı vəziyyətə salır, daxili münaqişələri körükləyir və gözlənilməz problemlərə səbəb olurdu.

Orta əsr tarixçisi Firidun bəyin "Münşəat"ında "əcəm şahı" adlandırdığı Uzun Həsənin ölümündən sonra onun min bir əziyyətlə yaratdığı qüdrətli Ağqoyunlu imperiyası məhz daxili çəkişmələr nəticəsində uzunmüddətli tənəzzül mərhələsinə qədəm qoymuşdu. Təbriz taxtının sahibləri müxtəlif əmirlərin istəyi ilə əlcək kimi dəyişdirilmişdi. Həmzə bəyin ölməsi ilə Ağqoyunlu tayfaları parçalanıb iki yerə bölünmüş, bir hissəsi onun qardaşı Şeyx Həsəni, qalanları isə qardaşı oğlu Cahangir Mirzəni dəstəkləmişdir.

Şeyx Həsən başda olmaqla tərəfdarları 1450-ci ildə Qaraqoyunlularla savaşda düşmən tərəfinə keçmişdilər. 90-cı illərdə isə Sultan Baysunqura asi çıxan qacar, mosullu və pornək tayfaları birləşərək Əlincə qalasında həbsdə olan Rüstəm bəyi azad edib, hakimiyyətə gətirmişdilər. Sultan Rüstəm bu tayfaların nüfuzlu əmirlərinə vəzifələr və soyurqallar paylamış, onların etimadını doğrultmağa çalışmışdı. Amma tayfalar çox idi, maraqlar toqquşurdu və hamının rəğbətini qazanmaq mümkün deyildi.

Bəyliklər arasında bitib tükənmək bilməyən çəkişmə və toqquşmaların əsas səbəbi, qeyd etdiyimiz kimi, köçəri aşirətləri bir-birinin "əlindən alıb" öz gücünə tabe etmək idi. Müharibələrdən sonra qalib tərəf "nəvazişnamə" adlanan xüsusi məktublar göndərməklə məğlub tərəfin məşhur əmirlərini (tayfa və qoşun başçılarını) "yanlarına çağırır", özlərinə qoşulmağa dəvət edirdilər (aşirət və tayfaların bir bəylikdən digərinə keçməsi mütləq şəkildə könüllülük əsasında baş verə bilərdi).

Həsən bəy Rumlu Uzun Həsənin Cahanşah üzərində qələbəsindən sonra Qaraqoyunlu əmirlərini öz tərəfinə cəlb etmək məqsədilə onların yanına elçilər göndərdiyini yazır. Belə hallarda tayfaların əsasən (arada qan düşmənçiliyi olmayanda) qalib tərəfin səfinə qoşulduğu bəllidir. Lakin dəvətin rədd edildiyi hallar da az baş vermirdi. Misal üçün, Baharlu əmirlərinin Uzun Həsənin hakimiyyətini qəbul etməyib, teymurilərin himayəsinə sığındıqlarını tarixdən bilirik.

Köçərilik ideologiyasının populyarlığını şərtləndirən başqa bir amil də onun türkmənlər üçün doğmalığıdır. Anadolu bəylikləri (hətta sonradan klassik dövlət tipinə üstünlük vermiş və köçəri ideologiyasından imtina edərək möhtəşəm bir imperiyaya çevrilmiş Osmanlı bəyliyi belə!) bir və ya bir neçə aşirətin əsasında meydana gəlmiş tayfa dövlətləri kimi yaranmışdı.

Osmanlı cəmiyyətində köçəri aşirətlər yerinə yetirdikləri ictimai-iqtisadi funksiyaları ilə toplumun həyat damarlarından biri olmuşdur (Əli Sinan Bilgili). Qayı boyuna mənsub olan Osman bəy Anadolunun qərbində ucbəyi (ərəb qaynaqlarına görə, "sahibül-ucat") mövqeyinə yüksəlmiş, ətrafına türkmən mənşəli müxtəlif boy bəylərini toplayaraq onları fütuhat uğrunda siyasi cəhətdən təşkilatlandırmışdı. Bu baxımdan Osmanlı bəyliyini Hunlar, Göytürklər, Səlcuqilər kimi dövlətlərlə oxşar (və bəzən eyni) özəlliklər birləşdirir.

Əşirət dövlətinin quruluş dizaynı məfkurə (Osmanlı nümunəsində qəza), boy bə bəy ünsürlərinin vəhdətinə əsaslanır. Boyla bəyin hüquq birliyi eyniləşmə səviyyəsində gözlənilir, özünəməxsus bir ictimai sistem doğurur və praktik fəaliyyətlər məhz bu simbioz çərçivəsində həyata keçirilir. Bəy özünü boyundan, boy isə bəyindən ayrı təsəvvür etmir, bəy boyunun maraqlarını qoruyur, mənafelərini güdür, boy da bəyinin əmrlərinə qeyd-şərtsiz əməl edir.

Eyni prinsip tayfa birləşmələri tipində yaranmış Qaraqoyunlu və Ağqoyunlu dövlətləri üçün də keçərlidir. Bir neçə aşirətin daha çox qohumluq-qonşuluq əsaslı könüllü konfederasiyası şəklində ərsəyə gələn bu dövlətlərdə bəy-boy birliyi özünü daxili rəqabət şəraitində təzahür etdirir. Qədimdən mövcud olmuş, Əmir Teymur zamanında Orta Asiya və İranın türk etnik-coğrafi arealında daha da oturuşmuş bu strukturda (İ.Ortaylı) hər bir boyun ictimai-siyasi çəkisi onun konfederativ dövlət üçün hərbi, sosial və iqtisadi əhəmiyyət dərəcəsi ilə şərtlənir. Bu məqam ən parlaq ifadəsini qədim "orun" prinsipində tapır.

Haqqında Ağqoyunlu Qara Yülük Osmanın "Öyüdnamə"sində də danışılan "orun" ənənəsi siyasi toplantılarda (toy və ya şölənlərdə) bəyə ayrılan yer və mövqe ilə bağlıdır. "Orun" prinsipinin prototipi bizə "Kitabi-Dədə Qorqud"dan tanışdır ("oğlu olanı ağ otağa, qızı olanı qızılı otağa"...). Daha sonralar "orun", bəylik və ya konfederasiya ordusunda hansı boyun hansı cinahda vuruşmasından tutmuş məclislərdə bəylərin "səs hüququna" qədər geniş bir diapozonda gözlənilir.

**(ardı var)**

***Nizaməddin MUSTAFA***

*Üzeyir Hacıbəyli – 140*

# Dahi bəstəkarın əsərləri və həyatı ekranda

**Gələn ay şanlı yubileyi qeyd olunacaq dahi Azərbaycan bəstəkarı və istedadlı dramaturqu Üzeyir Hacıbəylinin milli kinomuzun təşəkkül və inkişafında da böyük xidmətləri olub.**



XX əsrin əvvəllərində, "lal filmlər" zamanında Azərbaycanda kino çəkmək istəyən rejissorların müraciət etdikləri ilk əsərlərdən biri məhz "Arşın mal alan" idi. 1913-cü ildə bəstəkarın operetta kimi yazdığı bu əsər 3 il sonra ilk dəfə kinoya qədəm qoyub. Bu da var ki, öz əsərlərini lüzumsuz qondarmalardan, bəsit, şit əlavələrdən, sönük pafosdan qoruyan dahi Üzeyir bəy "Arşın mal alan"ın ilk kino variantını bəyənməyib. Amma "Arşın mal alan" və "O olmasın, bu olsun" musiqili kinokomediyaları elə əsərlərdəndir ki, sonralar da kinematoqrafçıların diqqətini çəkib və müxtəlif dövrlərdə ekranlaşdırılıb.

Adıçəkilən filmlərin yaradıcılarının böyük əksəriyyəti bu gün aramızda yoxdur. Lakin tanınmış jurnalist, kino tədqiqatçısı, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Aydın Kazımzadənin "Üzeyir Hacıbəyov və kino" (2005-ci il) kitabında bu filmlərlə bağlı vaxtilə onlardan alınmış müsahibələr, toplanmış sənədlər və arxiv materialları zəngin təsəvvür yaradır.



Kitabın müəllifi qeyd edir ki, XX əsrdə "Arşın mal alan" 3, "O olmasın, bu olsun" 2 dəfə istehsal olunmuşdur. Bir dəfə də ermənilər "Arşın mal alan" operettası kimi (Maqalyan – red.), eyni adlı filmi də (Mamulyan – red.) oğurlamış, süjetini təhrif edərək Amerikada bəsit şəkildə lentə almış, hətta filmdə operettanın müəllifinin, yəni Üzeyir Hacıbəyovun adını belə göstərməmişlər.

"Arşın mal alan" filminin bəstəkarın bəyənmədiyi ilk çəkilişi 7 hissədən ibarət idi. Rejissor Boris Svetlov çəkilişlərə tanınmış səhnə aktyorlarını – Hüseynqulu Sarabski (Əsgər), Ələkbər Hüseynzadə (Sultan bəy), Mirzəağa Əliyev (Süleyman) və Hənəfi Terequlovu (Vəli) cəlb etmişdi. Qadın rollarına aktrisa axtararkən rejissor çətin vəziyyətə düşmüşdü. Odur ki, Gülçöhrə və Cahan xala (titrdə Gülcahan) rollarına kişi aktyorlardan Əhməd Ağdamski və Yunis Nərimanov, Asya və Telli rollarına isə Aleksandra Olenskaya və Yevgeniya Olenskaya çəkilib.

Kitabdan sətirlər: "Film ilk dəfə 1917-ci il yanvarın 3-də Bakıdakı "Forum" kinoteatrında nümayiş etdirildi. Film səssiz olduğuna görə onun təsir gücü az idi. Əsər ekran üçün işlənərkən öz gözəlliyini, təravətini və bədii qiymətini xeyli itirmişdi. Buna görə də, salonda yerləşdirilmiş xalq çalğı alətlərinin müşayiəti ilə operettadan musiqi parçaları çalınır, Cabbar Qaryağdıoğlu və digər xanəndələr operettadan ariyalar ifa edirdilər. Filmin keyfiyyəti Üzeyir bəyi və əsas rollarda çıxış edən aktyorları narazı salmışdı. Buna baxmayaraq, tamaşaçılar filmə böyük maraq göstərirdilər".

Kinolent sonradan bütün Qafqazda nümayiş etdirilib və sevilib. Ü.Hacıbəylidən gizli surətdə müxtəlif vaxtlarda və müxtəlif şəhərlərdə gah 7, gah da 4 hissədə göstərilib. Tədqiqatçı Qulam Məmmədli "Kinomuzun keçmişindən" məqaləsində yazırdı: "1916-cı ilin ikinci yarısında Bakıda çəkilmiş "Arşın mal alan" filmi 1917- ci ilin yanvarında göstərildi. Əsər "Cavan Əsgər ilə Vəlinin macərası", "Gəlin seçmək", "Arşın mal alan", "İkisi axtardı, dördü evləndi" kimi 4 hissədən ibarət idi. Birinci seansların bütün biletləri bir neçə saat ərzində satılıb qurtardı. Bundan xəbər tutan Ü.Hacıbəyov rəsmi dairələrə müraciət edərək, öz müəlliflik hüququnu müdafiə ilə etirazını bildirdi və müqəssirlərin məsuliyyətə cəlb olunmasını tələb etdi. Məsuliyyətdən yaxa qurtarmaq istəyən sahibkarlar "film yandı" deyib onu Bakıdan çıxardılar.

Hadisədən bir neçə gün sonra Aşqabadda "Modern" kinoteatrında "Arşın mal alan" filminin göstəriləcəyi yerli qəzetlərdə xəbər verildi. Müəllif xəbər tutmağa macal tapmasın deyə, "yalnız bircə gün nümayiş etdirildiyi üçün seans gündüz saat dörddə başlanacaqdır" sözləri də elana əlavə edilmişdi. Həmin filmi görmək mənə müyəssər oldu. Gizli şəraitdə, o vaxtın primitiv texniki vasitələri ilə çəkildiyindən həm quruluş və həm də aktyor oyunu çox zəif idi. İşıq məsələsi düzgün həll edilmədiyindən aktyorların simasını müəyyənləşdirmək mümkün deyildi.

Film bircə gün Aşqabadda göstəriləndən sonra Orta Asiyanın başqa yerlərinə aparıldı. Sonralar elə həmin şəraitdə Tiflis, Gəncə və başqa şəhərlərdə göstərildiyini qəzet elanları xəbər verirdi. 1918-ci ildə Üzeyir Hacıbəyovun İrana getdiyini bilən sahibkarlar filmi Bakıda da göstərdilər..."

Aydın Kazımzadə isə iddia edir ki, 1917-ci il yanvarın 3-də ilk dəfə nümayiş etdirilən "Arşın mal alan" filmi 4 yox, 7 hissədən ibarət idi. Bəstəkarın təkidi ilə ekrandan çıxarılandan sonra həmin filmdən 3 hissə kəsilib götürülüb və 1917-ci il aprelin 20-də yeni kinolent kimi təzədən nümayiş etdirilib. Deməli, tədqiqatçı Q.Məmmədlinin Aşqabadda baxdığı "Arşın mal alan" filmi 4 hissəli 2-ci variantdır.

Musiqili kinokomediyanın dünya şöhrəti qazanmış daha samballı variantının çəkilişləri isə 1945-ci ilə təsadüf edir. Deməli, bu il Üzeyir bəyin 140 illiyi ilə bərabər, "Arşın mal alan"ın da 80 illik yubileyidir. Rejissoru Rza Təhmasib, ssenari müəllifi Sabit Rəhman olan filmin yaradıcı qrupu 1946-cı ildə SSRİ Dövlət mükafatına layiq görülüb.



Onu da deyək ki, bu film daha 20 il sonra rejissor Tofiq Tağızadə tərəfindən 3-cü dəfə, 9 hissədən ibarət olaraq ekranlaşdırılıb. Elə bu da bir yubileydir – 60 il! Bu dəfə ssenarini Tofiq Tağızadə Muxtar Dadaşovla birlikdə yazıb. Rollarda Həsən Məmmədov, Leyla Şıxlinskaya, Ağadadaş Qurbanov, Möhsün Sənani, Əliağa Ağayev, Nəcibə Məlikova, Hacımurad Yegizarov, Xuraman Hacıyeva, Tələt Rəhmanov, Ətayə Əliyeva, Səfurə İbrahimova və başqaları çəkiliblər. Maraqlıdır ki, bu, sovet dövründə ən çox baxılan filmlərdən olub və sovet kinoprokatı xəttilə 1945-ci il variantına 16,2 milyon, 1965-ci il variantına 16,6 milyon tamaşaçı baxıb.

Ü.Hacıbəylinin 1910-cu ildə qələmə aldığı "O olmasın, bu olsun" operettası əsasında Hüseyn Seyidzadənin 1956-cı ildə çəkdiyi musiqili kinokomediya da (ssenari müəllifi Sabit Rəhman) sadə süjeti və kompozisiyası ilə fərqlənir. Bu filmə də erməni kino işbazları əl uzadıb, haram qatmaq istəyiblər. Xoşbəxtlikdən, kinokomediya qoruna bilib və taleyi uğurlu alınıb. Köhnəlik rəmzi olan və Sərvərlə Gülnazın timsalında yeniliyə, gəncliyə uduzan Məşədi İbadın, Rüstəm bəyin, Rza bəyin, Qoçu Əsgərin ekran sərgüzəştləri dünyanın 4 yanını dolanıb. "O olmasın, bu olsun" bir vaxtlar 40 ölkəyə satılıb və xeyli populyarlaşıb.

Azərbaycanın ilk rəngli bədii filmi olan bu ekran əsərində Əliağa Ağayev, Arif Mirzəquliyev, Tamara Gözəlova, Ağasadıq Gəraybəyli, Barat Şəkinskaya, Mustafa Mərdanov, İsmayıl Osmanlı, Möhsün Sənani, Lütfəli Abdullayev və başqaları parlaq obrazlar yaradıblar. Filmdə xanəndə Xan Şuşinski qonaqlıq səhnəsində "Kürd-Şahnaz" muğamını ifa edir, xanəndə Tükəzban İsmayılova isə "Segah" muğamı üstündə oxuyur.

Aydın Kazımzadənin "Üzeyir Hacıbəyov və kino" elmi araşdırmasına Xalq artisti Polad Bülbüloğlunun yazdığı ön sözdə qeyd edildiyi kimi, kitabı oxuduqda bir daha inanırsan ki, Üzeyir bəyin gördüyü böyük işlərlə Vətəninə və xalqına xidmət etməsi, sonsuz məhəbbəti dahi bəstəkara həsr olunmuş kinolentlərdə də öz layiqli yerini tapıb.

Bəstəkarın haqqında çəkilmiş "Üzeyir ömrü və ya uzun ömrün akkordları" (1982-ci il) Xalq yazıçısı, müəllif və rejissor Anarın müəllifi olduğu çox sanballı filmdir. Ekran əsəri dahi bəstəkarın uşaqlıq və gənclik illərini, onun musiqi aləmində ilk uğurlar qazandığı, istedadlı yazıçı, jurnalist, ictimai xadim kimi fəaliyyətə başladığı bir dövrü əhatə edir. Sənətkar, mübariz ziyalı, gözəl insan – seyrçilər bu nəcib keyfiyyətlərin hamısını Üzeyir Hacıbəylidə görür, onun həyat və yaradıcılıq yolu, maarifçilik fəaliyyəti, yazıçılıq məharəti ilə tanış olurlar. Filmdə bəstəkarın ayrı-ayrı əsərlərinin, o cümlədən "Leyli və Məcnun", "Arşın mal alan" və "Koroğlu"sunun səhnə taleyi də öz əksini tapıb.

Filmdə Üzeyir bəyin uşaqlığını Yalçın Əfəndiyev, yaşlı dövrünü Hüseynağa Atakişiyev oynayırlar. Digər rolları Nəcibə Məlikova (Natəvan), Qədir Rüstəmov (Cabbar Qaryağdıoğlu), Ramiz Quliyev (Qurban Pirimov), Rüstəm Rüstəmzadə (Əbdürrəhim bəy Haqverdiyev), Əli Zeynalov (Həsən bəy Zərdabi), Mikayıl Mirzə (Hüseynqulu Sarabski), Yaşar Nuri (Zülfüqar Hacıbəyov), Həmidə Ömərova (Məleykə xanım Hacıbəyova) ifa edirlər. Onu da xatırladaq ki, Üzeyir bəy rolunu canlandıran mərhum aktyor və rejissor, Əməkdar incəsənət xadimi Hüseynağa Atakişiyev 1995-ci ildə İstanbulda Ü.Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasını da tamaşaya qoymuşdur.

Bəli, dahi sənətkar Üzeyir Hacıbəyli opera və operettalarında, musiqili kinokomediyalarında, digər əsərlərində yaşayır. Onun hər bir yaradıcılıq nümunəsi, o cümlədən əsərləri üzrə çəkilmiş film-komediyalar bu gün də insanlara bol-bol sevinc bəxş edir.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Diaspor Gənclərinin VI Yay Düşərgəsi



**Bir neçə gündür ki, Azərbaycan Respublikası Diasporla İş üzrə Dövlət Komitəsinin və Heydər Əliyev Fondunun birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Xankəndi şəhərində Diaspor Gənclərinin VI Yay Düşərgəsi keçirilir.**

Düşərgə iştirakçıları Fəxri xiyabanda gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarınıziyarət edib, Şəhidlər xiyabanında ölməz vətən övladlarının xatirəsinə ehtiramlarını bildirib, Zəfər abidəsinin önünə gül dəstələri qoyublar. Gənclərə Azərbaycanın Konstitusiya və suverenlik dəyərləri, müstəqillik tarixi, Qarabağda qazanılan qələbə və bir sıra başqa mövzularla bağlı məlumat verilib. Bildirilib ki, ölkəmizin imicinin formalaşması və beynəlxalq nüfuzunun artırılmasında diaspor gənclərinin xüsusi rola malik olması onların doğru bilgiləndirilməsini zəruri edir.




İşğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərinə həsr olunan panel müzakirəsi maraqla qarşılanıb. Diasporla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Elşad Əliyevin moderatorluq etdiyi paneldə Prezidentin Laçın, Şuşa, Ağdam, Füzuli və Xocavənd rayonlarında xüsusi nümayəndələri, bərpa və idarəetmə xidməti təmsilçiləri iştirak ediblər. Çıxışlarda "Böyük Qayıdış" proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərdə aparılan irimiqyaslı infrastruktur layihələrindən, ağıllı kənd və şəhər modellərindən bəhs olunub. Yol və kommunikasiya xətlərinin çəkilişi, sosial obyektlərin inşası, həmçinin təbii və mədəni irsin bərpası istiqamətində həyata keçirilən kompleks tədbirlər diqqətə çatdırılıb. Gəncləri maraqlandıran suallar cavablandırılıb.

"Xankəndi" adlı növbəti panelin moderatoru isə Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Vəsilə Vahidqızı olub. İctimai fəal qadınlar müzakirələrə qatılıblar. Paneldə Prezident İlham Əliyevin Xankəndidə üçrəngli bayrağımızı qaldırmasının görüntüləri, həmçinin Xankəndi şəhərinin salınma tarixi ilə bağlı Azərbaycan və ingilis dillərində videomaterial nümayiş olunub. Qədim Azərbaycan torpaqlarında salınan Xankəndi şəhərinin zəngin tarixi və burada əzəli Azərbaycan mədəniyyətinin mövcudluğu barədə tarixi faktlar səsləndirilib, Xankəndinin erməniləşdirilməsi və tarixi ədalətin bərpa olunaraq şəhərin Azərbaycanın suverenliyi və ərazi bütövlüyünün bərpasının rəmzinə çevrilməsindən danışılıb. Həmçinin panelin xankəndili iştirakçıları xatirələrini danışıb, 30 ildən sonra Qarabağa qayıdışın sevincini bölüşüblər.

Panel sualların cavablandırılması və düşərgə iştirakçılarının qəhrəmanlıq ruhunda mahnıları ifa etmələri ilə yekunlaşıb. Diaspor gəncləri paneli mövzunu forma baxımından yeni platforma kimi dəyərləndiriblər.

Daha sonra Diasporla İş üzrə Dövlət Komitəsinin şöbə müdirlərinin Xankəndidə VI Yay Düşərgəsinin iştirakçıları ilə görüşü keçirilib. Maraqlı müzakirələr aparılıb.

Diaspor Gənclərinin VI Yay Düşərgəsinin qonağı olan Azərbaycan əsilli fransız -dünya şöhrətli fotojurnalist Reza Deqatiyə "Diaspor fəaliyyətində xidmətə görə" medalı təqdim olunub. Mükafatı Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov və Azərbaycan Respublikası Prezidentinin Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında xüsusi nümayəndəsi Elçin Yusubov təqdim ediblər. Komitə sədri məşhur fotojurnalist Reza Deqatinin uzun illərdir Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində apardığı misilsiz fəaliyyətini yüksək qiymətləndirib.

O, düşərgə, burada keçdiyi ustad dərsi haqqında danışıb və bu kimi tədbirlərin təşkilinin ayrı-ayrı ölkələrdən gəlmiş gənclər üçün son dərəcə gərəkli olduğunu vurğulayıb:

Bir daha həqiqətləri dünyaya çatdırmaqda göstərdiyim töhfələrə görə ən yüksək təqdirə layiq görülmək məni çox qürurlandırdı və təsirləndirdi. Bütün diaspor komandasına mən də daxil olmaqla, yüzlərlə gənci VI Yay Düşərgəsinə topladığı üçün təşəkkür edirəm. Gələcək parlaqdır və sülh vəd edir. Sizinlə dostluq mənim üçün çox dəyərlidir.

Düşərgə iştirakçıları üçün keçirilən Azərbaycan dili dərsi də böyük maraqla qarşılanıb. Ana dili dərsini Dürdanə Əlizadə tədris edib. Bildirilib ki, müəyyən qədər hiss olunan dil baryerinin aradan qalxması, diaspor gənclərinə və Azərbaycana dost münasibəti bəsləyən xalqların nümayəndələrinə Qarabağla bağlı səhih məlumatların verilməsi onların "yumşaq güc" kimi formalaşmalarına, ölkəmizin təbliğində və dezinformasiyaların qarşısının alınmasında iştirak etmələrinə töhfələr verilməsinə hesablanan addımlardır.

Qarabağ Universiteti ilə tanışlıq, Şuşa gəzintisi də hər kəsə xoş təsir bağışlayıb. Birinci Qarabağ müharibəsinin şəhidi Sənan Rüstəmovun qardaşı qızı, Diaspor Gənclərinin VI Yay Düşərgəsinə İsveçdən qatılan, əslən Qarabağdan olan Məsumə Rüstəmlidən İsa bulağında jurnalistlərlə söhbətində deyib ki, düşərgədən əldə etdiyi təəssüratları ömrü boyu unutmayacaq.

Qeyd edək ki, avqustun 9-dək davam edəcək Diaspor Gənclərinin VI Yay Düşərgəsində dünyanın 61 ölkəsindən 128 gənc iştirak edir. Bundan əvvəlki düşərgələr Şəki, Şamaxı, Şuşa, Naxçıvan və Laçın şəhərlərində olub.

***Ə.ƏLİYEV***
***XQ***

# Milli irsin Türkmənistan təqdimatı

**Türkmənistanın Avaza Milli Turizm Zonasında BMT-nin Dənizə Çıxışı Olmayan İnkişaf Etməkdə Olan Ölkələr üzrə III Konfransı çərçivəsində "Azərbaycan Milli Günü" uğurla keçib.**



Bayramdan əsas məqsəd Azərbaycanın zəngin mədəni və mənəvi irsini beynəlxalq ictimaiyyətə təqdim etməkdir. Açılışı keçirilən "Azərbaycanın milli irsinin inciləri" adlı sərgidə Azərbaycan xalçaçılıq ənənələri və müxtəlif xalça məktəblərinə aid nümunələr, milli geyimlər, kəlağayı, şəbəkə və tikmə sənəti inciləri təqdim olunub.

Ziyarətçilər sənət əsərlərini izləməklə yanaşı, xalça toxuma, şəbəkə düzəltmə, kəlağayı bəzəmə və zərgərlik üzrə ustad dərslərində də iştirak ediblər. Sərgi məkanında eyni zamanda canlı musiqi nömrələri və milli rəqslər nümayiş olunub.

Şənliyin kulinariya zonası da ziyarətçilərin diqqətini cəlb edib. Burada milli yemək və şirniyyatlarımız təqdim edilib. İştirakçılar bir sıra yeməklərimizin hazırlanma prosesini izləyib, onların dadına baxıblar.

Milli gün çərçivəsində axşam saatlarında Azərbaycan incəsənət ustalarının iştirakı ilə möhtəşəm konsert proqramı da keçirilib. Xalq artistləri Alim Qasımov, Gülyanaq Məmmədova, əməkdar artistlər Fərqanə Qasımova, Ramil Qasımov, Nərgiz Kərimova, Sahib Paşazadə, eləcə də Aşıq Samirə və Aşıq Əli, "Natiq" ritm qrupu və Azərbaycan Dövlət Rəqs Ansamblı bir-birindən maraqlı ifaları ilə tamaşaçıların qəlbini fəth edib.

Qardaş ölkədə "Azərbaycanın milli irsinin inciləri" sərgisi bu gün sona çatacaq.

***XQ***

# Trampın 100 faizlik yarımkeçirici rüsumu

## *ABŞ-la Çin arasında texnoloji hegemonluq savaşının yeni mərhələsi*



**Vaşinqtonda səslənən bəyanatlar təkcə iqtisadi siqnallar deyil, eyni zamanda, qlobal güc balansında dəyişikliklərin əlamətləridir. ABŞ Prezidenti Donald Trampın son açıqlaması texnologiya sahəsində "yeni müharibə mərhələsinin" başladığını təsdiqləyir. Söhbət ABŞ xaricində istehsal olunan mikrosxemlər və yarımkeçiricilər üçün nəzərdə tutulan 100 faizlik idxal rüsumundan gedir. Bu addım, analitiklərin fikrincə, yalnız iqtisadi deyil, həm də geostrateji təzyiq aləti kimi dəyərləndirilməlidir.**

Yarımkeçiricilər XXI əsrin texnoloji inkişafının əsas dayağı sayılır. Avtomobillərdən tutmuş süni intellekt sistemlərinə, hərbi peyklərdən tutmuş smartfonlara qədər — bütün sahələr bu mikroskopik komponentlərə möhtacdır. Texnologiya analitiki Piter Zayhanın dediyi kimi, "Mikroçipin olması bir dünya bugünkü müasir dünyanın tamamilə dayanması deməkdir".

ABŞ 2018-ci ildən bəri Çinlə ticarət və texnologiya sahəsində qarşıdurma vəziyyətindədir. Donald Trampın başlatdığı bu proses sonradan Co Bayden administrasiyası dövründə də müxtəlif formalarda davam etdirildi. Lakin yeni bəyanat göstərir ki, cənab Trampın rəhbərliyi ilə bu siyasət daha sərt və radikal istiqamətə yönələcək.

Ağ ev sahibinin çıxışında xüsusi olaraq "Apple" şirkətinə toxunması təsadüfi deyil. Şirkətin yaxın illərdə ABŞ iqtisadiyyatına 600 milyard dollarlıq sərmayə yatırmaq niyyəti Donald Trampın daxili istehsalı gücləndirmək strategiyasına cavab olaraq qəbul edilir. Bu, həm də onun seçkiqabağı şüarı olan "Make America Great Again" narrativinə texnoloji ölçü verir. "Apple bu sərmayə ilə texnologiyanı yenidən Amerikada doğurur. Biz yalnız istehlakçı deyil, istehsalçı da olmalıyıq," – deyə Tramp əlavə edir.

Bununla yanaşı, ABŞ administrasiyasının məqsədi yalnız daxili istehsalı təşviq etməklə bitmir. Strateji məqsəd Çindən texnoloji asılılığı minimuma endirmək, tədarük zəncirlərini daha sabit və nəzarətli mərkəzlərə yönəltməkdir. Bu çərçivədə Tayvan, Vyetnam, Hindistan və Meksika kimi ölkələr alternativ istehsal mərkəzləri kimi gündəmə gəlir.

Çinin "Made in China 2025" proqramı Pekinin texnoloji müstəqillik və liderlik ambisiyalarını aydın şəkildə ortaya qoyur. Bu proqram çərçivəsində Çin süni intellekt, kvant kompüterləri, 5G və mikroçip texnologiyalarında öz milli şirkətlərini qlobal miqyasda rəqabətqabiliyyətli səviyyəyə çatdırmağı hədəfləyir. Çin üzrə tanınmış mütəxəssis Keyt Bradsher yazır: "Pekin texnologiyaya sərmayə qoymaqla yalnız iqtisadi gələcək qurmaq istəmir, o, eyni zamanda milli suverenliyini qorumağa çalışır".

Bu mənzərədə prezident Trampın 100 faizlik rüsum qərarı, sadəcə, iqtisadi tədbir deyil, həm də strateji həmlədir. ABŞ bununla Çin istehsalçılarının Amerikanın yüksək texnoloji bazarlarına girişini məhdudlaşdırmaqla, rəqabət mühitini yenidən dizayn edir.

Amma analitiklər bildirirlər ki, yüksək rüsumlar təkcə Çinə deyil, ABŞ texnoloji sənayesinə də təsirsiz ötüşməyəcək. Mikroçiplərin qiymətində artım, təchizat zəncirlərində fasilələr və ümumi istehsal xərclərinin yüksəlməsi qaçılmaz ola bilər. Məsələn, texnologiyalar üzrə ekspert Şon Makduqall qeyd edir: "Texnoloji suverenlik strategiyası nə qədər cazibədar görünsə də, bazarın təbii prinsiplərinə qarşı getmək risklidir. İdeologiya iqtisadi realizmlə toqquşduqda nəticələr gözlənilməz olur".

Lakin bir məsələ dəqiqdir – texnologiyada qlobal liderlik uğrunda gedən mübarizə daha da qızışacaq. ABŞ öz təhlükəsizliyi və texnloji üstünlüyünü qorumaq üçün sərt addımlar atmaqdan çəkinməyəcək. Çin isə cavab olaraq tədricən öz tədarük zəncirlərini yenidən qurmağa və yerli istehsalı artırmağa məcbur olacaq.

Donald Trampın bəyanatı təkcə Amerika iqtisadiyyatına deyil, bütün dünyaya siqnaldır: Texnologiya artıq, sadəcə, inkişaf vasitəsi deyil, geosiyasi güc amilidir. Belə bir vəziyyət bu suala cavab axtarmağa təkan verir: "Kim qalib gələcək – texnoloji dövrün hegemonu kim olacaq?" Əlbəttə, bu sualın cavabı gələcəkdə qlobal iqtisadiyyatın, diplomatiyanın və hətta sabitliyin necə formalaşacağını müəyyən edəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Doğma Xankəndi, biz də qayıtdıq!



**Təsəvvür edin ki, içində xoşbəxt yaşadığınız, acılı-şirinli xatirələrinizin beşiyi olan evinizi ölüm təhlükəsindən tərk etməyə məcbur olursunuz. Öz doğma yurdunuzda, əzəli torpağınızda mənfur qonşularınız sizə yaşamaq üçün fürsəti evinizdə heç nəyə toxunmadan çıxıb getmək şərtilə verirlər.**

Var-dövlətinizi, olanınızı-olmazınızı qoyub, qapıya qıfıl vurub, sonsuz kədər içində həyət-bacana, küçəyə sonuncu dəfə baxıb getməyə məcbur olursunuz. Daha sonra evsizliyin, yurdsuzluğun, məcburi köçkünlüyün bitməyən əziyyətləri azalsa da, tükənməyə qoymadığınız geri dönmək ümidiniz...

Ancaq bir gün sanki möcüzə baş verir, nağıllarda deyilən kimi, yer yerindən oynayır. Böyük Sərkərdənin rəhbərliyi altında cəngavər oğulların torpağımıza göz dikən, ona yiyələnməyə çalışan yağıları gəldikləri yerə qədər qovduqlarının şahidi olursunuz. Doğma yurdunuz azadlığına qovuşur, 36 ildən sonra həyəcanla, sevinc göz yaşları işində yenidən öz evinizi görmək xoşbəxtliyini yaşayırsınız. İçəri girirsiniz, otaqları gəzirsiniz və heç gözləmədiyiniz halda sizin üçün çox qiymətli, xüsusilə mənəvi dəyəri yüksək əşyanızı tapırsınız – ailə quranda həyat yoldaşınızın özü ilə gətirdiyi açıq qırmızı ipəklə üzlənmiş cehizlik yorğanı!

Yenə elə nağıllardakı kimi, sonu xeyirin şər üzərində qələbəsi ilə başa çatan bu hekayəmizin qəhrəmanları ilə Xankəndidə təsadüfən tanış olduq. Öyrəndik ki, Məhərrəm Babayev doğma şəhərə vaxtilə bir yerdə çıxdığı həyat yoldaşı Sahibə xanımla birlikdə qayıdıb, 1 ilə yaxındır burada yaşayırlar. Özü təqaüdçüdür, yoldaşı isə Xankəndidəki şirniyyat evlərinin birində işləyir. Elə ayaq üstə başlayan söhbətimizi də S.Babayevanın iş yerində çay süfrəsi ətrafında davam etdirdik, kəşməkəşli tale yollarında başlarına gələnləri, bugünkü xoş təəssüratlarını qəzetimizlə bölüşdülər. Məhərrəm kişi bildirdi ki, ilk dəfə axtaranda vaxtilə yaşadıqları Nəriman Nərimanov küçəsindəki 12 nömrəli evlərini tanıya, tapa bilməyiblər:

- Az vaxt deyil, hər şeyimizi qoyub çıxanda1988-ci il idi, üstündən 36 il keçmişdi. Küçə də, ev də dəyişib. Evimizə kim yiyələnmişmişsə otaqlarımızı bölüb, əlavə tikinti aparıb, krayəşinlər saxlayırmış. Qəhər boğmuşdu bizi. Sonra yüklərin arasında öz yorğanımızı tapdıq. Sahibə üzündəki rəngi bir az solmuş qırmızı ipəyi görən kimi dedi ki, bu mənim cehizlik yorğanımdır. İndi öz üstümə sərirəm. Sözlə ifadə edilə biləcək duyğular deyil...

S.Babayeva da söhbətə qoşuldu. Dedi ki, Xankəndini tərk etməyə məcbur olanda 21 yaşında idim, bugünlərdə 60 illiyimi burada qeyd etdik:

- Ev-eşiyimizdən didərgin düşəndə məcburi köçkün kimi əvvəlcə Ağdama, sonra Şəkiyə pənah apardıq. Çətinliklərimiz çox olsa da həmişə dövlətimizin qayğısı ilə əhatə olunmuşduq. Bu yerlərə qayıtmaq inamımızı heç zaman itirməmişdik.

Həmsöhbətlərim evlərinə, həyətlərinə tez-tez baş çəkdiklərini, ağaclara, güllərə su verdiklərini bildirdilər. Onlara illər sonra öz bağlarının meyvəsindən yemək də qismət olub. Hələlik ikisi qayıtsa da, 3 övladları, 8 nəvələri var. Bugünlərdə nəvələri baba-nənələrinin yanına qonaq gəliblər, onları şəhərdə gəzdirib, evlərini göstəriblər.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xankəndi**



*Sağlamlıq*

# İstidən-bürküdən sıxılır ürək

## *Zərərli təsirdən necə qorunmalı?*

**Yay aylarında, xüsusilə, havanın temperaturunun yüksək olduğu günlərdə bəzi meteohəssas insanların səhhətlərində problemlər yaranır. Ürək-damar xəstəliklərindən əziyyət çəkən şəxslər isə isti havalarda daha çox əziyyət çəkirlər. Havanın temperaturunun 39–40 dərəcəni keçməsi ürək-damar sisteminə mənfi təsirini istər-istəməz göstərir. Bu mənfi təsir, hətta sağlam və gənc insanlarda da müşahidə edilir. Elmi Tədqiqat Kardiologiya İnstitutunun işemik xəstəliklər şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Mədinə Əzimova istinin təsirindən orqanizmdə baş verən bu prosesləri belə izah edir:**



– Havanın isti olması insanın qan damarlarını genişləndirir ki, bədənin artan istiliyini ətrafa ötürsün. Bundan qaynaqlanaraq müxtəlif nahiyələrdə kapilyar partlamaları, göyərmələr müşahidə edilir. Ayaqlarında varikoz (damar genişlənməsi) olanların aşağı ətraflarında ağırlıq, ağrı, eyni zamanda, baş ağrıları ola bilər. Venoz qan problemi olanlarda aşağı ətraflardan başa və geriyə qan dövranında ləngimə yaranır. Ona görə isti havalarda ürək və beyinə qan axını pozulur. Damar problemi olanlarda ödem, bədəndə şişkinlik, maye durğunluğu yarana bilər. Ürəyində problem olmayan insanlarda isti havada damarların genişlənməsi təzyiqi aşağı salır. Damarlar qan dövranı balansını düzəltmək üçün daha tez-tez yığılıb açıldığından taxikardiya, ürəkdöyünmə, ritmin artması baş verir.

Ürəyin əsas koronar damarlarında dəyişiklik varsa, onlar istiyə uyğun olaraq genişlənib qanı qova bilmir. Bu zaman ürək və ya beyinin işemiyası, infarkt riski artır. Arterial hipertenziya xəstələrində təzyiqin göstəriciləri daha da yüksələ bilər. Qanda elektrolitlərin miqdarının artması aritmiyanı gücləndirir.

Belə isti havalar, xüsusilə yaşı 50-dən yuxarı olan insanlara, tütün məhsullarından istifadə edənlərə, artıq çəki və piylənmədən əziyyət çəkənlərə, şəkərli diabet və ürək-damar sistemi xəstəlikləri olanlara daha çox təsir edir. İsti havada damarlar genişlənir, ürək döyüntüsü artır, qan qatılaşır, damarlarda tromblar əmələ gəlməsi riski artır. Yüksək hərarətdə istənilən fiziki aktivlik, hətta piyada gəzmək belə tərləməni və su itkisini artırır. Həmin su ilə birgə lazımi mikroelementlər, minerallar, kalium, natrium da yuyulub gedir. Bunlar isə ürəyin normal işləməsi üçün çox lazımdır. Nəticədə qan dövranı zəifləyir, nəbz yüksəlir, taxikardiya başlayır. Bütün bunlar isə öz növbəsində ürək tutması, insult, infarkt riskini xeyli artırır.

**– Mədinə xanım, isti hava normal insanların səhhətinə təsir edir. Bəs ayın bu qorabişirən günlərində xəstə insanlar vəziyyətdən necə çıxsınlar?**

– Hər şeydən öncə, su qəbulunu artırmalı, sərin, kölgəli, rahat yerdə olmalı, çox uzanmamalı, əksinə, çox hərəkət etməli, gündüzlər çölə çıxmamalı, fiziki iş görməməli, təzyiqi, şəkəri və maye qəbulunu nəzarətdə saxlamalıdır. Həzm edilməsi çətin olan qidaları həddindən artıq miqdarda yeməmək, isti içəcəklərdən, kofeinli və spirtli içkilərdən uzaq durmaq, çölə çıxarkən havanın keçməsini təmin edən açıq rəngli, boş paltar geyinmək, fasilələrlə təravətləndirici vanna qəbul etmək tövsiyə olunur.

Yeməklərdən meyvə, tərəvəzlərə, süd məhsullarına, quş ətinə üstünlük verilməlidir. Ürək-damar sisteminə müsbət təsir edən ərzaqlardan pomidor, cəfəri, moruq, qara və qırmızı üzüm, ağartı məhsulları, kətan toxumunu qeyd etmək olar. Ürək-damar problem olanlar, şəkər xəstəliyindən əziyyət çəkənlər dərmanlarını vaxtlı-vaxtında qəbul etməli, uzaq yola çıxdıqda isə onları mütləq özləri ilə götürməlidirlər. Bu sadə məqamlara əməl edərək sağlamlığın qayğısına qalmaq mümkündür.

**– Doktor, belə havalarda bəzi insanlar hədsiz tərləyir, halsız olduqlarını deyirlər. Bunun qarşısını almaq mümkündürmü?**

– İsti havada hərəkət etmək, həm də tərləməyə səbəb olur. Tərləmə ilə bədən duz və su itirir, orqanizmdəki kalium, maqnezium yuyulur. Bu da dövr edən qanın miqdarını azaldır, qanı qatılaşdırır, nəticədə tromb yaranma riski artır. Bu zaman bədənin su, duz balansını tənzimləmək, həmişəkindən çox miqdarda adi, sərin su qəbul etmək lazım gəlir. Halsızlıq da məhz bədənin su itirməsi nəticəsində yaranır. Bu zaman həm qəbul edilən qidaya, həm də qaldığı məkana ciddi diqqət edilməlidir.

Xüsusilə, riskli şəxslərdə bədən istiliyi artıbsa, baş ağrısı, başgicəllənmə, ürəkbulanma, qusma, əzələ ağrıları varsa, dərinin qızartı və quruluğu, sidik ifrazının azalması, qan təzyiqi həddindən artıq aşağı və ya yüksəkdirsə, ürək döyüntüsü ilə yanaşı tənəffüs çətinliyi, sinə ağrısı kimi əlamətlər varsa, ləngimədən həkimə müraciət edilməli və onun tövsiyələrinə əməl olunmalıdır.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Sirli "Göz" adası



**Yer kürəsində elə yerlər var ki, onların sirri illərdir alimləri çaşqınlıqda saxlayır. Bu yerlərdən biri də Cənubi Amerikanın ürəyində – Argentina ərazisində yerləşən heyrətamiz formada və hərəkətdə olan adadır.**

Bu qeyri-adi ada Parana çayının bataqlıq deltasında, Buenos-Ayres yaxınlığında yerləşir. Yerli sakinlər və turistlər arasında "El Ojo" – yəni "Göz" adı ilə tanınır. Adanın diqqətçəkən xüsusiyyəti onun tamamilə dairəvi forması və daha da qəribəsi fırlanmasıdır.

Elm adamları bu fenomeni ilk dəfə 2016-cı ildə geniş şəkildə araşdırmağa başlayıblar. Kosmosdan çəkilmiş peyk görüntülərində bu adanın ətrafındakı su kütləsində fırlanaraq yavaş-yavaş yerini dəyişdiyi müşahidə olunub. Adanın ətrafındakı suyun səthi çox dayazdır, bu isə onun fırlanmasını asanlaşdıran təbii amil kimi izah oluna bilər. Lakin bu izahat bütün suallara cavab vermir. Adanın simmetrik şəkildə və müntəzəm olaraq öz oxu ətrafında fırlanması həm geoloqların, həm də hidrologların marağını daha da artırıb. Adanın özü ilə onu əhatə edən su kütləsi arasında çox nazik bir su boşluğu var və bu, onun sərbəst hərəkət etməsinə imkan verir.

Məsələnin daha da qəribə tərəfi isə fırlanmanın mövsümi dəyişkənlik göstərməsi, yəni ilin bəzi vaxtlarında daha sürətli, bəzən isə tamamilə dayanmasıdır. Bu dinamika hələ də tam izah olunmayıb və müxtəlif təbii amillərlə (külək, axın, yeraltı suların təzyiqi və s.) əlaqələndirilir. Bəzi yerli əfsanələrə görə, bu ada mistik gücə malikdir və onun fırlanması göylə yer arasındakı enerji dövranının bir parçası sayılır.

Lakin elm ictimaiyyəti spekulyasiyalardan uzaq durmağa çalışaraq, bu təbiət hadisəsini hidrogeoloji proseslərin nadir kombinasiyası kimi izah etməyə səy göstərir. Adanın yaranması və hərəkəti barədə aparılan elmi tədqiqatlar hələ yekunlaşmayıb və Parana deltası bu baxımdan araşdırmalar üçün açıq laboratoriyaya çevrilib.

Bu qeyri-adi təbiət hadisəsi hələ də bir çox suallara cavab vermir və "Göz" adası, özündə sirr və elm arasındakı həssas sərhədi qoruyaraq dünyanın ən maraqlı coğrafi fenomenlərindən biri olaraq qalır.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az

№ 164 (30858) 8 avqust 2025-ci il, cümə

## İDMAN

### FİFA-da reytinqimiz dəyişməyib



**FIFA qadın futbolçulardan ibarət milli komandaların reytinq cədvəlini yeniləyib. Azərbaycan yığmasının da dünya reytinqindəki mövqeyi bəlli olub.**

Siyasət Əsgərovun başçılıq etdiyi kollektiv 1300,4 xalla 74-cü sırada qalıb. Yəni, əvvəlki reytinqlə müqayisədə yığmanın mövqeyində dəyişiklik olmayıb. Qeyd edək ki, reytinq cədvəlinə İspaniya seçməsi (2066,79) başçılıq edir.

### Qadın güləşçilərin təlim-məşq toplanışı



**Azərbaycanın qadın güləşçilərdən ibarət yığma komandası artıq 3 gündür ki, Bolqarıstanın paytaxtı Sofiyada növbəti təlim məşqlərinə toplanıb.**

Baş məşqçi əvəzi Toğrul Əsgərov və U-20 millisinin böyük məşqçisi Rövşən Umudovun rəhbərliyi altında Günay Qurbanova (59 kq), Ruzanna Məmmədova (62 kq) və Zəhra Kərimzadə (72 kq) "Diana" İdman Kompleksində Bolqarıstan və Fransa milliləri ilə birgə toplanışda iştirak edirlər.

Məqsəd yerli mühitə uyğunlaşmaq və Bolqarıstanın Samokov şəhərində təşkil ediləcək U20 dünya çempionatına daha yaxşı hazırlaşmaqdır. Qeyd edək ki, komanda avqustun 20-də Sofiyadan birbaşa Samokova yollanacaq.

### "Ən yaxşı gənc futbolçu"



**21 yaşadək "Ən yaxşı gənc futbolçu" adına namizədlər müəyyənləşib. "France Football" nəşri "Kopa Trophy" mükafatını qazana biləcək oyunçuların adlarını açıqlayıb.**

Qısa siyahıya Pau Kubarsi, Lamin Yamal (hər ikisi "Barselona", İspaniya), Ayyub Buaddi ("Lill", Fransa), Dezire Due, Joau Neveş (hər ikisi PSJ, Fransa), Estevao ("Çelsi", İngiltərə), Din Heysen ("Real", İspaniya), Maylz Lyuis Skelli ("Arsenal", İngiltərə), Rodriqo Mora ("Portu", Portuqaliya) və Kenan Yıldız ("Yuventus", İtaliya) daxil edilib.

Qeyd edək ki, ötən il Lamin Yamal mükafata sahib çıxıb.

*M.HACIXANLI*
*XQ*

*✓ 2024-cü il dekabrın 26-da Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən "ENEM AUDİT AND CONSULTİNG" MMC -yə auditor fəaliyyəti həyata keçirməyə icazə üçün verilmiş AT/207 nömrəli icazə sənədi itdiyi üçün etibarsız sayılır.*

*✓ Saatlı rayonunun Qara Nuru "Sudan İstifadə Edənlər Birliyi"nə məxsus qeydiyyat şəhadətnaməsi və nizamnaməsi (06-06-SI-Q-05, 01.03.2006-cı il) itdiyi üçün etibarsız sayılır.*

*Həyatın içindən*

# Ürəklərdə kədər, dillərdə giley...

**O, hər gün Qocalar evinin pəncərəsindən giriş qapısına boylanır. Amma nə zillətlə böyütdüyü övladları, nə də illərini verdiyi, adları dilinin əzbəri olan nəvələri onu yada salır. Hər gecə yuxusunda doğma ocağını gəzib-dolaşır, bir vaxtlar mehriban yaşadığı can yoldaşı ilə görüşür.**



Bəlkə də "uzaq-uzaq dağların arxasında" qalan o illərin xatirələri, ürəyində kino lenti kimi saxladığı xoşbəxt günləridi onu yaşadan. Hər dəfə həyat yoldaşının, ətrafında cəm olan oğul-qızlarının, nəvələrinin pünhan saxladığı foto-şəkillərə baxdıqca bir anlıq yenidən dirçəlir, gümrahlaşır, ağrı-acılarını unudur. Sonra özü özünə təskinlik verib deyir ki, yox, onlar məni unutmazlar, yaqin işləri çoxdu, başları açılan kimi zəng edəcəklər, gəlib məni buradan aparacaqlar, qulluğumda duracaqlar. Amma...

Bir Ana vardı kəndimizdə. Əri faşistlərə qarşı döyüşə gedəndə 1 yaşlı oğlu ilə qalıb. Bir ildən sonra ərinin məktubları kəsilib. Nə öldüsü, nə də qaldısı haqda heç bir xəbər ala bilməyib. Biri deyib, yəqin həlak olub, başqası deyib, ola bilsin ki, əsir düşüb, bəziləri də ürək-dirək verərək bildiriblər ki, gözlə, övladına görə də olsa, haçansa qayıdacaq. Qadın gümanla ümid arasında yaşayıb, gündüzlər günəşin yandırıb-yaxdığı pambıq tarlasında işləyib, gecələr yorğun, yuxusuz qalsa da, övladına layla çalıb, bircəciyinin böyüməsi üçün illərini verib. Müharibə qurtarıb. Cəbhəyə gedənlərin bəziləri yaralı, tayqıç, tayqol da olsa, evlərinə dönüblər. Amma Cəmilə xalanın əri dönməyib. O, ümidini üzməyib, harada əsgər şinelli adam görüb və elə bilib ki, əridir, qayıdıb...

O, oğlu üçün hər şey edib. Onu böyüdüb, oxudub, sevdiyi şəhərli qıza elçi düşüb...İllər ötüb, nəvələr dünyaya gəlib və getdikcə ananın yanına gəliş-gediş seyrəlib... Eldə-obada bəziləri Cəmilə xalaya rişxənd edib deyərdi:

– Oğlun üçün həyatını qoydun, özün doyunca yemədin, onu doyurdun, özünü köhnə geyindin, ona hər zaman dəst-dəst paltarlar aldın, indi ayda-ildə bir dəfə qapını açmır. Cəmilə xala isə həmişə özünü sındırmadan deyərdi:

– Şükür Allaha heç nəyə ehtiyacım yoxdur, təki onlar xoşbəxt olsun... Bəzən də gileyini gizlətməyib: "Mən analıq borcumu yerinə yetirmişəm, oğlum oğulluq borcu barədə düşünsün...", – bildirərdi.

Nəfəsinlə böyütdüyün, öz adını verdiyin nəvələr nə tez unutdular Səni. Sən isə ürəyində mərhəmət hissi, dilində dualar yenə onları düşünürsən....

İllərin mənə verdiyi dərs və həyatda görüb-götürdüklərimdən gəldiyim qənaət budur ki, gərək insan bəlli yaşdan sonra özü haqqında, sabahı haqqında düşünsün. Hər şeyi əzizləri, övladları üçün səfərbər, israf etməsin. Sirr deyil, bu gün cəmiyyətimiz vəfalı övlad, nəvə qıtlığı yaşayır. İllər ötdükcə bu təzad daha qabarıq özünü göstərir. Əgər əlində-ovcunda qiymətli bir şey varsa, sən unudulmursan. Yox, əksinədirsə, vay halına, onda ölən gününü sal yada...

Sən demə, ömür bir imtahanmış. Vəfalılar, yaxşılar, düzlər bu imtahandan keçmək üçün çox bədəl ödəməliymiş...

Bəlkə kimsə o Ananın, hansısa Babanın yerini kimliyini soruşacaq. Deyəcək ki, adını, ünvanını söylə, kömək edim, qulluğunda durum... Necə deyim, nə deyim? O, nur topası kimi qocalar, ağbirçəklər hər kənddə, şəhərdə var. Onlarla tez-tez küçədə, yaşadığımız həyətdə, dayanacaqlarda, klinikalarda rastlaşırıq. Diqqətlə baxsanız, çoxunun çöhrəsindən abır-həya tökülür. Lakin dillərində hər kəsə söylənə bilinməyən giley var. Çoxunun da ehtiyacı, umacağı bir şirin söz, bir telefon zəngidir.

***Səməd MƏLİKZADƏ,***
***yazıçı-publisist***

# AMEA beynəlxalq elmi qurumların üzvlüyünə qoşulur

**Azərbaycan Milli Elmlər Akademiyasının beynəlxalq əlaqələrinə son 3 ildə bir neçə yeni ünvan da əlavə olunub. Azərbaycan elminin baş qərargahı Beynəlxalq Elmi Şuranın, Asiya Elmlər Akademiyaları və Elmi Cəmiyyətləri Assosiasiyasının tamhüquqlu üzvü seçilib.**



Beynəlxalq elmi təşkilatlarla belə əməkdaşlıq AMEA alimlərinə dünya elminin nailiyyətlərini, aparıcı istiqamətlərini, problemlərini daha yaxından öyrənmək, onların tədbirlərində fəal iştirak etmək, elmi inteqrasiyaya ahəngdar qoşulmaq imkanı yaradır. Bu yöndə daha bir uğura imza atan milli akademiyamız Akademiyalararası Tərəfdaşlıq Assosiasiyasının (IAP) tam üzvlüyünü də qazanıb.

Qurum rəhbərliyinin bugünlərdə AMEA-nın prezidenti, akademik İsa Həbibbəyliyə göndərdiyi məktubda üzvlüyə qəbulla bağlı səmimi təbrik, bu ilin dekabrında Qahirədə keçiriləcək IAP Konfransına və onun Baş Assambleyasında iştiraka dəvət ifadə olunub. AMEA rəhbəri mərkəzi Yunanıstanın paytaxtı Afinada yerləşən Beynəlxalq Platon Akademiyasından da üzvlüyə razılıqla bağlı məktub alıb.

***Qabil YUSİFOĞLU***
***XQ***

## Hava

# Əs küləyim, qov istini...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 24-28, gündüz 34-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 757 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 22-27, gündüz 35-40, bəzi yerlərdə 41 dərəcəyədək, dağlarda gecə 16-21 dərəcə isti, gündüz 28-33 dərəcə isti olacağı gözlənilir.

***XQ***


## "Çınqıl Servis" ASC səhmdarlarının nəzərinə!

8 sentyabr 2025-ci il saat 11.00-da "Çınqıl Servis" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

İclas, İmişli rayonu, Çaxırlı kəndi, "Çınqıl Servis" ASC-də keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Nizamnaməde müvafiq dəyişikliyin edilməsi.
2. Digər məsələlər.

E-mail: cinqil.servis@mail.ru

*"Çınqıl Servis" ASC*


# Könüllülər "Şirvani ocağı"nda



**Kürdəmir Rayon İcra Hakimiyyətinin könüllüləri Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin Xaqani Şirvani adına Aran regional filialında olublar.**

Bu barədə mətbuata muzeydən məlumat verilib. Filialın müdiri, filologiya üzrə fəlsəfə doktoru Yaqut Bahadurqızı könüllülərə Azərbaycanın mədəni irsi, klassik ədəbiyyatımız barədə ətraflı məlumat verib. O, dövlətimizin humanitar siyasəti, milli-mənəvi sərvətlərin qorunması, təbliğ olunması üçün gördüyü işlərin, Azərbaycan xalqının yaratdığı və qoruyub saxladığı böyük mənəvi dəyərlərin zəngin mədəniyyəti ilə dünyanın marağına səbəb olmasını vurğulayıb. Yaqut Bahadurqızı gəncləri müxtəlif mədəniyyət nümunələri, rəsm və heykəltaraşlıq əsərləri ilə yaxından tanış edib.

Daha sonra könüllüləri maraqlandıran suallar cavablandırılıb.

***XQ***


BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3396
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00